Qəzənfər PAŞAYEV



QƏBƏLƏ

keçmişdə və günümüzdə

QƏBƏLƏ keçmişdə və günümüzdə PAŞAYEV Qəzənfər

Təhsil
BAKI-2021

QƏZƏNFƏR PAŞAYEV

Qəbələ keçmişdə və günümüzdə

“TƏHSİL”
BAKI–2021



QƏZƏNFƏR PAŞAYEV

Qəbələ keçmişdə və günümüzdə

BAKI–2021

Redaktor: **Nərgiz Axundova,**
akademik, tarix üzrə elmlər doktoru, professor

Ön söz: **Qənirə Paşayeva,**
Prof.Dr., Millət vəkili

Rəyçi: **Abid Tahirli,**
filologiya üzrə elmlər doktoru, professor

Paşayev Qəzənfər
P26 Qəbələ keçmişdə və günümüzdə. Bakı, "Təhsil", 2021, 224 səh.

Əməkdar elm xadimi, professor Qəzənfər Paşayevin "Qəbələ keçmişdə və günümüzdə" əsəri "Qəbələ tarixi", "Qəbələ etnoqrafiyası", "Qəbələ folkloru" işığında müəllifinin təəssüratlarını, qənaət, fikir və ideyalarını ehtiva edir.

"Giriş", üç fəsil və "Nəticə"dən ibarət əsərin "Qəbələ keçmişdə və günümüzdə" adlanan I fəslində Qəbələnin yeni eradan əvvəlki dövründən zəmanəmizədək uzun bir zaman kəsiyinə ekskurs edilir, tarixin hər birinin minillikləri əhatə edən ən qədim Paleolit, Mezolit, Neolit, Eneolit, Tunc, Dəmir dövrlərinin səciyyəvi xüsusiyyətlərindən bəhs edilir.

II fəsildə "Qəbələnin etnoqrafiya dünyası" ümumazərbaycan etnoqrafiyası kontekstində gündəmə gətirilir və tədqiqat süzgəcindən keçirilir.

Əsərin "Bitib-tükənməyən incilər xəzinəsi" adlanan III fəslində insana beşikdən qəbrədək yol yoldaşı olan şifahi xalq ədəbiyyatı hərtərəfli tədqiq edilir.

İnanmaq istərdik ki, bu yığcam monoqrafiya təkcə mütəxəssislərin deyil, eləcə də tarix, etnoqrafiya və folklorşünaslıq elmlərinə maraq göstərən oxucuların da diqqətini çəkəcəkdir.

P $\frac{4502020000}{053}$ **2021**

© Paşayev Qəzənfər, 2021

Qəbələnin şərəfli keçmişi, gözəl gələcəyi vardır.

HEYDƏR ƏLİYEV



Biz Azərbaycanın son illərdəki inkişafını Qəbələ rayonunun timsalında əyani şəkildə çox yaxşı görürük.

İLHAM ƏLİYEV

Azərbaycan Milli Elmlər Akademiyasının
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun
Elmi şurasının 4 noyabr 2020-ci il tarixli
(protokol №5) qərarı ilə çap olunub.



ƏSƏR AZƏRBAYCANIN
MİLLİ QƏHRƏMANI,
ŞƏHİD GENERAL-MAYOR
POLAD HƏŞİMOVUN
ƏZİZ XATİRƏSİNƏ İTHAF OLUNUB.

ÖN SÖZ

Əməkdar elm xadimi, professor Qəzənfər Paşayevin "Qəbələ keçmişdə və günümüzdə" əsəri adından, strukturundan tutmuş ümumiləşdirmələrinədək diqqətəlayiq bir elmi yaradıcılıq aktıdır (bura müəllifin özkeçmişini də əlavə etsək, daha dolğun təsəvvür yaranar). Doğrusu, kitabın adında ifadə olunmasa da, mən bu əsəri keçmişdən və bu günümüzdən daha artıq dərəcədə gələcəyə ismarıc hesab edirəm. "Bu gün" ötəridir, "keçmiş"in adı üzərində – keçmişdir; "gələcək" isə arzumuz, inamımız, yolumuz dəyərindədir. Əlbəttə, arzumuz, inamımız, yolumuz dəyərində olan Gələcək Qəbələnin etnoqrafiya dünyasından keçir, bitib tükənməyən incilər xəzinəsi folklordan zənginlik qazanır. Bu yerdə ümummilli liderimiz Heydər Əliyevin dəyərləndirməsini xatırlatmaq istərdim: "Qəbələnin şərəfli keçmişi, gözəl gələcəyi vardır".

Günümüzün Qəbələsini bilmədən, keçmişdəki olaylara vaqif olmadan gələcək inşa etmək qeyrimümkündür. "Qəbələ keçmişdə və günümüzdə" əsərinin əslən Qəbələdən olan Azərbaycanın Milli

Qəhrəmanı, şəhid generalımız Polad Həşimovun ruhuna ithaf edilməsi də dərin məzmun daşıyır. Ərəblər "dünyada təsadüf yoxdur, təvaümlük var" deyirlər; General Həşimov Tovuzda şəhid olub; əslən Tovuzdan olan professor Qəzənfər Paşayev Qəbələ haqqında əsər yazıb. Bu, mənə bir Azərbaycançılıq simmetriyası, ahəngi və alqoritmi kimi gəldi. Bu, Böyük Azərbaycan dünyasının ilməsi, naxışı, bəzəyi, süsü... kimi təcalla edir mənim gözümdə...

Müəllif Azərbaycanda, türk və ərəb dünyasında "Altı il Dəclə-Fərat sahillərində" əsəri ilə ədəbi şöhrət qazanıb. Ondan öncə və sonra (özəlliklə sonra!) irihəcmli tədqiqat əsərlərinin olmasına baxmayaraq, Qəzənfər müəllim oxucu yaddaşında, ilk növbədə, məhz o – təkrar nəşrlərlə yüzminlərlə tiraja çatmış "Altı il Dəclə-Fərat sahillərində" əsəri ilə qalıb. Ümumən hər müəllif daha çox bir əsərlə tanınır, xatırlanır. Qəzənfər müəllimin də həmin əsərinin ön plana çıxması ərəb coğrafiyasındakı Azərbaycan-türk tarixinin, mənliyinin parlaq ifadəçisi olması və maraqlı üslubu, bilgi zənginliyi ilə şərtlənir.

Bununla belə, etiraf etməliyik ki, professor Qəzənfər Paşayevin yaradıcılığı çoxşaxəlidir, əbədiyaşardır, genişüfüqlüdür, iftixar doğuran yaradıcılıqdır. Alimin dilçilik, folklorşünaslıq, ədəbiyyatşünaslıq,

mətnşünaslıq, tərcüməçilik kimi elm sahələrində xidmətləri böyükdür. Ancaq onun ən böyük tarixi xidməti İraqda yaşayan soydaşlarımızın – İraq türkmanlarının ləhcəsini və folklorunu nəzəri cəhətdən tədqiq etməsidir, qəriblikdə yaşayan soydaşlarımızı xalqımıza tanıtmasıdır. Professor Yaşar Qarayev təsadüfi yazmırdı: "Bizim üçün İraq, Kərbəla Füzulidən başladığı kimi, Kərkük də Qəzənfər Paşayevdən başlayır".

Xalq yazıçısı Anarın fikri Yaşar Qarayevin dediklərinə dayaq olur: "Azərbaycanın İraqla əlaqələri çox qədimdir. Ölkəmizin bu qardaş diyarda ilk mədəniyyət və mənəviyyat təmsilçisi dahi şairimiz Məhəmməd Füzuli olub. Bu gün həmin missiyanı Qəzənfər Paşayev ləyaqətlə yerinə yetirir".

Ustad alimin Kərkük folkloruna, ləhcəsinə və ədəbiyyatına həsr olunmuş, İraqda, Türkiyədə, İranda, Azərbaycanda çap olunan 30-dan artıq kitabı vardır.

Akademik Tofiq Hacıyev haqlı olaraq yazırdı: "Azərbaycanda Kərkükşünaslıq adlanan elm sahəsi vardır. Onun banisi prof. Qəzənfər Paşayevdir". Bütün bunlar görkəmli alimə verilən qiymətdir.

Böyük Azərbaycan dünyasının mədəniyyət iqliminin yayıldığı arealların bilicisi olan ustad elm xadimimizin Qəbələyə əsər həsr etməsini də çox

məntiqli hesab edirəm. Bu əsərdə sanki həm türk dünyası – Azərbaycan–Qəbələ, həm də Qəbələ–Azərbaycan – türk dünyası yolçuluğu izlənib. Qəbələ ümumazərbaycan tarixinin landşaftını, tarixi proseslərin politexnologiyasını, mədəni relyefini təcəssüm etdirməsi ilə səciyyəvidir. Azərbaycan bölgələrinin inkişafı kontekstində Azərbaycan turizminin döyünən ürəyi halına gəlmiş Qəbələ son illər sürətli inkişaf prosesi keçib. Qəbələ beynəlxalq festivallara, önəmli dövlət tədbirlərinə, yarışmalara və s.-ə yüksəksəviyyəli ev sahibliyi edib. Qəbələdən çıxmış aydınlarımız ölkənin müxtəlif əməli fəaliyyət sahələrində öz töhfələri ilə seçilir. Özəlliklə qəbələli gənclərin təhsilində, idmanda, vətəndaş cəmiyyəti quruculuğunda, ədəbi-elmi yaradıcılıqda uğurlarını tez-tez eşitməkdəydik. Qəbələ mənə hərdən Azərbaycanın kiçik modeli kimi gəlir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Biz Azərbaycanın son illərdəki inkişafını Qəbələ rayonunun timsalında əyani şəkildə çox yaxşı görürük". Qəbələlilər və Qəbələ problemləri, uğurları, mədəni irsə qayğıları, ümumölkə işinə töhfələri ilə diqqətə və təqdirəlayiq bir mövqeyə sahibdir.

Monoqrafiyanın usta müəllifi tarix, etnoqrafiya və folklorşünaslığın maraqlı palitrasını yaradıb. Təsəvvür edin ki, "Giriş", üç fəsil və "Nəticə"dən

ibarət olan bu yığcam əsər bu günümüzdən bizim eradan öncəki uzaq zəmanəyədək işıq salır, güzgü tutur; burada paleolit, mezolit, neolit, eneolit, tunc, dəmir dövrlərinin səciyyəvi özəlliklərinin bir bölgənin timsalında necə şəkilləndiyini görürük. Sözümüzün əvvəlinə qayıdaraq, bu günün daşıdığı məna yükümlülüyünə diqqət çəkmək istərdim: əsərin fakturası elədir ki, günümüz dayaq nöqtəsi – istinadgah kimi iştirak edir sanki.

Tarixçi alim, tanınmış yazar Yunus Oğuzun təbirincə desək, "Keçmişdən gələcəyə nə daşıyırıq?" sualı bu əsərin "mətn-məzmun"una uyğun cavab tapır, həllə qovuşur. Qəbələnin gələcəyindən danışır və o gələcəyin gözəl olacağına inanırıqsa, bu, respublikamızın gözəl gələcəyinə də inamı ifadə etmiş olur – hansısa bir bölgəmiz əlahiddə şəkildə deyil, ümumi inkişaf strategiyası içində görünməlidir. "Qəbələ tarixi", "Qəbələ folkloru", "Qəbələ etnoqrafiyası" işığında təəssürat, qənaət, fikir və ideyalar, professor Qəzənfər Paşayevin üfüqi genişliyini, mövzuya yalnız intellektlə deyil, sevgiylə yanaşmasını da aydın şəkildə göstərir.

Kitabın dəyərinə dəyər qatan bir də onun redaktorunun və rəyçisinin kim olmasıdır deyə düşünürəm. Redaktoru akademik Nərgiz xanım Axundova, rəyçisi əslən qəbələli professor Abid

Tahirli olan bu maraqlı əsər örnək ola biləcək ibrətamiz mətləblərdən söz açır və adamı düşündürür. Faydalı olacağına əmin olduğum üçün bu son dərəcə maraqlı kitabı oxumağı tövsiyə edirəm.

Fikrimi yekunlaşdırarkən bir daha ustad alimimizə, ona bu əsəri yazmağa ilham verən xeyirxah və yaradıcı insanlara, əməyi keçən hər kəsə şükranlarımı yetirirəm.

Prof. Dr. **Qənirə Paşayeva**,
Milli Məclisin
Mədəniyyət Komitəsinin sədri

GİRİŞ

Keçən il Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunda akademik Teymur Bünyadovun rəhbərliyi ilə hazırlanmış fundamental "Qəbələ tarixi", "Qəbələ etnoqrafiyası", "Qəbələ folkloru" əsərlərinin təqdimatını keçirdi.

Qədim Çindən qalma kəlam var: "Əmələ çevrilməyən bilik əzab gətirir". Şükürlər olsun ki, Arxeologiya və Etnoqrafiya İnstitutunun alimlərinin bilikləri, illər boyu sərf etdikləri gərgin əməyi, axtarışları, tədqiqatları hədər getməmiş, SEBA (Seul-Bakı) Azərbaycan–Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının sədri, biologiya üzrə fəlsəfə doktoru Ruhəngiz xanım Heydərovanın ideyası, təşkilatçılığı, maddi-mənəvi dəstəyi sayəsində bu abidə əsərlər Azərbaycan, rus və ingilis dillərində ictimaiyyətə təqdim edilmişdir.

Təqdimat mərasiminə dəvət olunanlar arasında mən də vardım.

Təqdimatdan sonra bu qızıl qiymətli əsərlərlə tanış oldum və məndə Azərbaycanın bu füsunkar bölgəsinin tarixi, etnoqrafiyası və folklorundan bəhs edən, özlüyündə ilk olan, bu son dərəcə dəyərli, qədimliklə müasirliyin bir-birini tamamladığı

bənzərsiz əsərlər haqqında yazmaq arzusu baş qaldırdı.

Nəfis şəkildə çap edilən kitabların əyaniliyini zəngin illüstrasiyalar daha da artırır və oxunaqlı edir.

Həyatımda elmiliklə əyaniliyin çulğalaşdığı belə dəyərli, zəngin illüstrasiyalı kitablara az rast gəlmişəm. Bu, milli-mənəvi dəyərlərimizə məhəbbət sayəsində mümkün olmuşdur.

Bu səpkidə kitabların yazılması üçün arxeoloji qazıntılar aparmaq, ekspedisiyalar təşkil etmək, material toplamaq, tədqiqatları ümumiləşdirmək tələb olunur. Bu isə maddi-mənəvi dəstək olmadan mümkün deyil.

Bu tarixi missiyanı yerinə yetirmək üçün SEBA-nın təşkilatçılığı sayəsində ekspedisiyalar yaradılmış, Koreya arxeoloqlarının iştirakı ilə qazıntılar aparılmış, daş dövründən üzü bu yana tariximiz elmi əsasda araşdırılmışdır.

Uzun illərdən bəri aparılan arxeoloji qazıntıları və əldə edilən faktiki materialları araşdırdıqda bu qədim diyarımızın minillərdən gələn tarixi ilə üzləşirik.

Bu, SEBA Assosiasiyasının – arxeoloji qazıntılar və etnoqrafik layihələrinin həyata keçməsi sayəsində mümkün olmuşdur.

2004-cü ilin noyabr ayında Bakıda təsis edilən SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət

Mübadiləsi Assosiasiyası müxtəlif sahələrdə, o cümlədən də elmi layihələrdə fəaliyyət göstərir.

2005-ci ildə Azərbaycan arxeoloqlarına dəstək olmaq və gələcəkdə birgə Azərbaycan–Koreya ekspedisiyası təşkil etmək qərara alınmışdı. İlk olaraq AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları AMEA-nın müxbir üzvü İlyas Babayevin rəhbərliyi altında SEBA Assosiasiyasının maliyyə və təşkilati dəstəyi ilə Antik ərazi, Qala ərazisində və Beynəlxalq Aeroport ərazisində qazıntı işlərinə başlayıb. 2009-cu ildən etibarən isə ilk dəfə olaraq Azərbaycan–Koreya Qəbələ arxeoloji ekspedisiyası Səlbir, Dızaxlı kəndində və Paleolit dövrü ərazilərində arxeoloji qazıntı və kəşfiyyat layihəsinin uğurlu alınması üçün SEBA Assosiasiyasının rəhbərliyi alimlərə hər cür şərait yaratdı. 2014-cü ildə ekspedisiya üzvləri üçün Arxeoloji Mərkəz inşa olundu və sentyabrın 22-də Mərkəzin rəsmi açılış mərasimində Prezident İlham Əliyev iştirak etdi.

SEBA Assosiasiyası yeni bir təşəbbüs – etnoqrafik layihənin reallaşmasını irəli sürdü və SEBA-nın maliyyə dəstəyi və akademik Teymur Bünyadovun rəhbərliyi ilə Qəbələ Etnoqrafik Ekspedisiyası fəaliyyətə başladı.

2011–2013-cü illər ərzində ekspedisiya üzvləri Qəbələnin müxtəlifmillətli sakinlərinin adət-ənənəsi,



Prezident İlham Əliyev Qəbələ Arxeoloji Mərkəzinin açılışında, 22 sentyabr 2014-cü il

mətbəxi, sənətkarlığı, təsərrüfatı, tarixi, etnoqrafiyası, folkloru barədə zəngin material topladılar və tədqiqata cəlb etdilər. Nəticədə "Qəbələ tarixi", "Qəbələ etnoqrafiyası", "Qəbələ folkloru" topluları meydana gəldi. Rəngli illüstrasiyalarla zəngin olan bu kitablar SEBA Assosiasiyasının maliyyə və təşkilati dəstəyi ilə, yuxarıda deyildiyi kimi, üç dildə – Azərbaycan, rus və ingilis dillərində Bakıda və İstanbulda çap olundu.

İngilis – Azərbaycan dili və ədəbiyyatı üzrə mütəxəssis kimi ABŞ və İngiltərədə ixtisasartırma



Qəbələ Arxeoloji Mərkəzi, 22 sentyabr 2014-cü il

kurslarını bitirməyimə, uzun müddət xaricdə ingilis dili üzrə tərcüməçi işləməyimə, ingilis dilindən birbaşa bədii və elmi əsərləri tərcümə etməyimə, vaxtilə Xarici Dillər İnstitutunda ingiliscə antropologiya fənnini yaradaraq dərs deməyimə güvənərək bu fundamental əsərlərin ingilis dilinə tərcüməsini diqqətlə nəzərdən keçirdim. Görünür, bu nəcib işə peşəkar tərcüməçilər cəlb olunublar. Uğurlu tərcümələrdir. Nəzərə alsaq ki, əcnəbi alimlər Qəbələnin tarixi, coğrafiyası, etnoqrafiyası, folkloru barədə dəqiq məlumatı bu uğurlu tərcümələr vasitəsilə əldə edəcəklər, çə-

kinmədən deyə bilərəm ki, tərcüməçilərin xidməti böyükdür.

"Qəbələ keçmişdə və günümüzdə" monoqrafiyası fundamental "Qəbələ tarixi", "Qəbələ etnoqrafiyası", "Qəbələ folkloru" əsərlərinin işığında müəllifin təəssüratlarını, qənaətlərini, fikir və ideyalarını ehtiva edir. "Giriş", üç fəsil və "Nəticə"dən ibarət əsərin "Qəbələ keçmişdə və günümüzdə" adlanan I fəslində Qəbələnin yeni eradan əvvəlki dövründən zəmanəmizədək uzun bir zaman kəsiyinə ekskurs edilir, tarixin hər biri minillikləri əhatə edən ən qədim – Paleolit, Mezolit, Neolit, Eneolit, Tunc, Dəmir dövrlərinin səciyyəvi xüsusiyyətlərindən bəhs edilir.

Monoqrafiyanın II fəsli xalqın həyatının bütün sahələrini öyrənən etnoqrafiya elminə həsr edilib.

Etnoqrafiya yunan sözüdür. "Etnos" – xalq, "qrafo" – yazıram, təsvir edirəm mənasını verir.

"Qəbələnin etnoqrafiya dünyası" adlanan fəsildə Qəbələ etnoqrafiyası gündəmə gətirilir və başqa bölgələrin etnoqrafiyası ilə müqayisəli şəkildə tədqiqat süzgəcindən keçirilir.

Monoqrafiyada yazılı və şifahi ədəbiyyat nümunələrinə geniş yer verilmişdir. Bu, monoqrafiyanın oxunaqlı olmasına yardımçı olacaqdır.

Əsərdə, eləcə də, yeri gəldikcə, örnək ola biləcək ibrətamiz məsələlərdən də söz açmışıq. Düşünürük

ki, onlar kitabı oxuyanlar üçün həm maraqlı, həm də faydalı ola bilər. Məsələn: "pul kəsən maşın", "vicdanlı şor", "kökə, yurda bağlılıq", "Məcnun bulağı", "hikmətli kəlamlar" və s.

Monoqrafiyanın "Bitib-tükənməyən incilər xəzinəsi" adlanan III fəsli folklora həsr edilib.

Folklor ingilis sözü olub "folk" – xalq, "lore" – şifahi ədəbiyyat mənasında işlənir və hər ikisi – eyni hüquqa malik "folklor" və "şifahi xalq ədəbiyyatı" terminləri elmi dövriyyəyə daxil olmuş və sabitləşmişdir.

Folklorşünaslıq bir elm sahəsi kimi xalqın mənəvi dünyasını öyrənir.

Bu fəsildə folklorun bütün mövcud janr və növləri araşdırılır, Qəbələ folkloru ümumazərbaycan folkloru kontekstində tədqiq edilir və milli-mədəniyyət tariximizi əhatəli öyrənmək baxımından maraq doğurur. Burada "İlkin janrlar", xalq mərasim və nəğmələri, bayatılar və beşik nəğmələri, atalar sözü və məsəllər, nağıllar, tapmacalar və lətifələr tədqiqat süzgəcindən keçirilir.

Əsərdə ulu öndərimiz Heydər Əliyevin Qəbələ səfərlərinə ayrıca bölmə həsr edilmişdir.

Monoqrafiya boyu Prezident İlham Əliyevin ideyası və təşəbbüsü ilə Qəbələdə həyata keçirilən möhtəşəm layihələrdən bəhs edilir.

Möhtərəm Prezidentimiz İlham Əliyevin **"Biz Azərbaycanın son illərdəki inkişafını Qəbələ rayonunun timsalında əyani şəkildə çox yaxşı görürük"** sözləri Ulu Öndərimizin Qəbələyə səfəri zamanı uzaqgörənliklə dediyi **"Qəbələnin şərəfli keçmişi, gözəl gələcəyi vardır"** fikrini tamamlayır.

Dövlətimizin qayğısı nəticəsində turizmin döyünən ürəyi halına gələn Qəbələ qədim şöhrətinə, əzəmətinə qovuşur, dünyanın dilbər guşələrindən birinə, əfsanələr paytaxtına çevrilir.

Qəbələnin turizm mərkəzinə çevrilməsində, çiçəklənməsində, vüsətli inkişafında rayonun İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin əməyi az deyildir.

Bu əfsanələr paytaxtının tarixi yeni eradan əvvələ gedib çıxır. Alimlərimiz arxeoloji qazıntılar aparmış, material toplamış, araşdırmalar aparmış, tədqiqatları ümumiləşdirmiş, nəticədə qədim yaşayış məskəni olan bu ərazidə salınmış Qəbələ şəhərinin 2500 il bundan əvvəl yarandığı qənaətinə gəlmişlər.

Qədim Roma tarixçisi Böyük Plininin "Təbii tarix" əsərində yeni eradan əvvəl I əsrdə "Albaniyanın baş şəhəri Kabalaka" deyə bəhs etməsi mütəxəssislərin qənaətinə şübhə yeri qoymur.

Yeri gəlmişkən qeyd edək ki, Ptolomey, Strabon, Plutarx başda olmaqla bütün səyyahlar

və tədqiqatçılar Albaniya deyəndə indiki Azərbaycan ərazisini nəzərdə tutmuşlar.

Sonrakı tədqiqatlar göstərdi ki, xristian albanlar azərbaycanlılarla bir kökdəndirlər.

"Kitabi-Dədə Qorqud"da etnos adı kimi iki dəfə "alban" sözünün işlənməsi də təsadüfi deyildir (bax: "Kitabi-Dədə Qorqud". Bakı, 1988, s.17).

XVIII əsrdə Qarabağın dağlıq hissəsində yaşayan Alban xristian məlikləri I Pyotra və II Yekaterinaya yazdıqları məktublarında özlərini "Arşaki soyundan olan Alban türkləri" adlandırıblar. 1813 və 1828-ci illərdə Rusiya və İran arasında bağlanmış "Gülüstan" və "Türkmənçay" müqavilələrindən sonra ermənilər kütləvi şəkildə Qarabağın dağlıq hissələrinə köçürüldü və çar Rusiyası 1836-cı ildə müstəqil Alban kilsəsini ləğv edərək onu erməni Qriqorian kilsəsinə tabe etdi.

Lakin sonrakı hadisələr, xüsusən də, İkinci Qarabağ müharibəsi göstərdi ki, albanlar heç vaxt buna boyun əyməmişlər.

Albanların (udinlərin) ermənilərlə elə bir yaxınlığı yoxdur. Təkcə onu demək kifayətdir ki, erməni dili Hind-Avropa dilləri ailəsinə (bax: ASE, IV cild, s.81), udin dili isə İber-Qafqaz dilləri ailəsinin Dağıstan dillərinin ləzgi qrupuna daxildir (bax: ASE, IX cild, s.420). O da danılmaz faktdır ki, udinlər tarix boyu həmişə Azərbaycanın Qəbələ,

Şəki, Şəmkir, Tovuz, Qazax, Qarabağ zonasında yaşayıblar.

Sevindirici haldır ki, AMEA-nın Rəyasət Heyətinin iclasında AMEA-da "Albanşünaslıq Elm Mərkəzi"nin yaradılması qərara alınıb.

Lap yaxınlarda gürcü alimi Zaza Aleksidzenin Misirin Dağ Sinay Monastırında alban mətnlərini aşkar etməsi də ermənilərin Qafqaz Albaniyasının izini itirmək cəhdinə son qoyacaq. Zaza Aleksidze yazır: "Alban dini mətnlərinin Cənubi Qafqazda aşkar edilməməsi çox qəribədir". Zaza Aleksidze, Yoşi Qipper, Volfqant Şulz və Timur Maisak kimi alimlər də Azərbaycanın Qafqazşünas alimləri kimi ermənilərin Qafqaz Albaniyasının izini itirmək üçün tarixi sənədləri məhv etdiklərini və ya saxtalaşdırdıqlarını təsdiq edirlər. Onların fikrincə, Eçmiədzinin bəzi mətnləri hələ də saxlaması mümkündür, lakin çətin ki, bu sənədləri əlçatan etsin.

Əziz oxucu, əlinizdəki bu kitab "Qəbələ tarixi", "Qəbələ etnoqrafiyası", "Qəbələ folkloru" işığında yazılsa da, hər səhifədə müəllifin müstəqil qənaətləri, fikirləri, düşüncələri yer alır.

I FƏSİL
QƏBƏLƏ KEÇMİŞDƏ VƏ GÜNÜMÜZDƏ

Fundamental "Qəbələ tarixi" bu dilbər guşənin keçmişinə və bu gününə güzgü tutur. Əsər o qədər dəqiqliklə, elmi əsaslarla yazılıb ki, onu "Qəbələ ensiklopediyası" da adlandırmaq olar.

Açığını deyim ki, "Qəbələ tarixi" kitabında yer alan zəngin illüstrasiyalar məni qanadları üstünə alıb əlçatmaz, ünyetməz vaxtlara – Qəbələnin yeni eradan əvvəlki qədim dövrünə apardı.

Qəbələ şəhərinin Qala hissəsində yeni eradan əvvəl I əsrdən başlayaraq davamlı yaşayış olmuşdur. Düşmənlərdən qorunmaq, təhlükəsizliyi təmin etmək üçün Qəbələyə yol açan 10 təbii keçid üzərində istehkamlar qurulmuş, bürclər və qalın qala divarları tikilmişdi.

Bürclərin günümüzə qədər qalan hissəsinin hündürlüyü 5–12 metr, divarlarının eni 5 metr, daxili diametri 5 metr, çöl hissəsində yarımdairəvi divarlarının uzunluğu 27 metrdir. Qala divarlarının qalığının hündürlüyü 3–7 metr, eni isə 5 metrdir. Şəhərin Qala hissəsi Səlbirdən qala divarı və müdafiə xarakterli xəndəklə ayrılmışdı. Güman etmək olardı ki, belə müdafiəsi olan qalaya yaxın düşmək

mümkün olmazdı. Lakin bu möhtəşəm divar və bürclər belə çox vaxt Qəbələni xarici qəsbkarların hücumlarından xilas edə bilməmişdir.

Çox maraqlı "Qəbələ tarixi" kitabı akademik Teymur Bünyadov, tarix elmləri doktoru Solmaz Məhərrəmova, tarix elmləri doktoru, professor Qabil Əliyev, tarix üzrə fəlsəfə doktorları Bəhmən Əliyev və Əsəd Əliyev tərəfindən yazılmışdır.

Rəyçilər tarix elmləri doktorları, professor Tofiq Mustafazadə və professor Kərim Şükürovdur.

Xüsusi qeyd edilməlidir ki, "Qəbələ tarixi"ni yazarkən müəlliflər AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun Arxeoloji Fondunun, Qəbələ Arxeoloji Mərkəzinin, eləcə də arxeologiya üzrə mütəxəssislər Mənsur Mənsurov və Azad Zeynalov tərəfindən aparılmış tədqiqatlar, həmçinin İlyas Babayev, Qafar Cəbiyev, Yi Seon Bok, Ceyhun Eminli, Nəcəf Müseyibli, Nəsib Muxtarov və Natiq Alışovun rəhbərliyi ilə arxeoloji ekspedisiyaların qazıntı zamanı üzə çıxardığı zəngin faktiki materialdan bol-bol istifadə etmişlər. "Qəbələ tarixi" əsərinin 30-cu səhifəsində kiçik hərflərlə yazılmış "Qəbələnin arxeoloji baxımdan öyrənilməsində D.Şərifov, İ.Cəfərzadə, S.Qazıyev, Ö.İsmizadə, Q.Əhmədov, R.Göyüşov, İ.Babayev, F.Osmanov, F.Qədirov, Q.Cəbiyev və başqalarının böyük xidmətləri olmuşdur. Onlardan dünyasını dəyişənlərə rəhmət diləyir,



Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları Zarağan kəndində görüşdə, 2011-ci il

qalanlara təşəkkürümüzü bildiririk" cümlələri məni həddən artıq sevindirdi. Sevindim ki, əvvəllər bu sahədə əmək sərf edən alimlərin xidməti unudulmayıb.

Qəbələdə arxeoloji qazıntılar və tədqiqatlar fasiləsiz davam edir. Hər il "Qəbələ arxeoloji ekspedisiyası: hesabatlar, tapıntılar" adlı elmi məcmuə çap olunur. Maraqlı cəhət odur ki, hesabatların sonunda aşkarlanmış tapıntıların şəkilləri də verilir. Məcmuədə hesabatlar və tapıntılar ingilis dilində də verildiyindən əcnəbi arxeoloqların da marağına səbəb olacağına inamı artırır.

Ruhəngiz xanım Heydərovanın ideyası, rəhbərliyi və AMEA-nın müxbir üzvü İlyas Babayevin

məsul redaktorluğu ilə nəşr edilən "Qəbələ arxeoloji ekspedisiyası: hesabatlar, tapıntılar" adlı elmi məcmuənin 11 sayı ilə tanışlıqdan və Qafar Cəbiyevin "Qəbələdə arxeoloji tədqiqatların ən mühüm nəticələri" kitabını diqqətlə oxuyandan sonra bu qənaətə gəldim ki, "Qəbələ tarixi"ni yazarkən bu görkəmli alimlər, eləcə də Seul Universitetinin professoru Kim Jongil və tarix üzrə fəlsəfə doktoru Ceyhun Eminli işçi qrupuna cəlb edilsəydi, əsər daha çox uğur qazanardı.

Bununla belə, bu görkəmli arxeoloqlar yaradıcı heyətin tərkibində olmasalar da, xidmətləri unudulmayıb. Təəssüf ki, hər vaxt belə olmur. Düşünürəm ki, qədimdənqalma "Üç adama üç şey yaraşmaz: rəhbərə xəbislik, varlıya xəsislik, alimə hərislik" ifadəsi təsadüfi yaranmayıb. Hərislik edərək başqalarının ideyalarını, yaratdıqlarını öz adına çıxan, plagiatla məşğul olan alimlər olub, yəqin, indi də var.

Bütün bunları xüsusi vurğulamaqda məqsədim Arxeologiya və Etnoqrafiya İnstitutunun gördüyü nəcib işin ibrətamizliyini diqqətə çatdırmaqdır.

Yeri gəlmişkən, "Qəbələ tarixi" əsərində diqqətimi çəkən məsələlərdən biri də toponimlərlə bağlıdır. Təəssüf ki, bəzən tədqiqatçılar tarixin dərin qatlarına enə bilmədiklərindən toponimləri xalq etimologiyası səviyyəsində izah etməyə çalışırlar. "Qəbələ tarixi"ndə bunun əksini görürük. Burada sözlərin

etimologiyası tarixi faktlar əsasında araşdırılır və inandırıcı nəticəyə gəlinir.

Bircə faktla – "Səlbir" sözünün etimologiyası ilə bağlı misalla kifayətlənəcəyik. Sabir türkləri tez-tez Albaniyaya hücumlar edirdi. I Xosrov Ənuşirəvan sabirlərin yürüşlərinin qarşısını almaq üçün böyük ordu ilə Albaniyadan şimala hücuma keçdi. Döyüş zamanı sabirlər məğlubiyyətə uğradıldı. Ələ keçirilən 10 min sabir türkü I Xosrov Ənuşirəvanın əmri ilə Albaniya ərazisində, o cümlədən Qəbələdə yerləşdirildi. Ehtimal etmək olar ki, qədim Qəbələdə şəhər yerinin Səlbir ərazisinin adı **sabir türkləri** ilə bağlıdır. Təxminən, yüz il əvvələ qədər qədim Qəbələnin yaxınlığında **Sabur** adlı kənd də mövcud olmuşdur.

"Qəbələ tarixi"ndə də, "Qəbələ etnoqrafiyası"nda da toponimlərin elmi cəhətdən öyrənilməsi maraq doğurur. **Əslində, toponimləri dürüst bilmək elə tariximizi bilmək deməkdir.**

"Qəbələ tarixi" bir neçə fəsildən ibarətdir.

"Qəbələ ibtidai icma quruluşu dövründə" adlanan birinci fəsildə ən qədim **Daş** dövrü, Azərbaycanda insanlıq tarixinin ən qədim dövrü **Paleolitdən** başlamış, **Mezolit** (Orta Daş dövrü – e.ə. XIII–IX minillik), **Neolit** (Yeni Daş dövrü – e.ə. VIII–VI minillik), **Eneolit** (Mis-Daş dövrü – e.ə. VI–IV minillik), **Tunc** dövrü (e.ə. IV–II minillik), **Dəmir** dövrü (e.ə. II minillikdən etibarən) tədqiq olunub. Böyük zaman

kəsiyini əhatə edən bu dövrlərin hər biri öz səciyyəvi xüsusiyyətləri ilə seçilir və arxeoloji qazıntılar zamanı təsdiqini tapır. Biz hər biri minillikləri əhatə edən bu dövrlərin yalnız səciyyəvi xüsusiyyətlərindən bəhs edəcəyik.

Paleolit dövrü. 2005-ci ildə Azərbaycan–Rusiya birgə Paleolit ekspedisiyasının Qəbələnin Böyük Əmili kəndi yaxınlığında apardığı arxeoloji qazıntılar zamanı əldə edilən daş alətlərin bir qismi 450 min il əvvələ aid edilir.

2011–2012-ci illərdə SEBA Assosiasiyasının dəstəyi ilə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Paleolit arxeoloji ekspedisiyası Qəbələ rayonu ərazisində tədqiqatlar zamanı ibtidai insanlara məxsus daşdan hazırlanmış qəlpə, qaşov, gəzli alət, əl çapacağı və s. əmək alətləri üzə çıxarmışlar. Bu maddi mədəniyyət nümunələrinin 450 min ildən artıq yaşı olduğu müəyyən edilmişdir. İlk dəfə olaraq tapılan bu maddi mədəniyyət nümunələri Qəbələnin ən qədim tarixi sayılır.

Paleolit dövründə əmək alətlərinin tədricən təkmilləşməsi baş vermiş və nəticədə əmək insanların özünü formalaşdırmış, onların inkişafına zəmin yaratmışdır. Bu vaxt insanlar ilk dəfə olaraq süni oddan istifadə etməyə başlamışlar. Odun alınması bəşər tarixində ən mühüm ixtira olmuş, insanın təbiətdən asılılığını nisbətən azaltmışdır.

Mezolit dövründə yeni ixtira meydana çıxır, insan ilk dəfə olaraq ox və kaman yaradır. Bu ixtira ovçuluğa təkan verir.

Neolit dövrünün səciyyəvi xüsusiyyəti, ilk növbədə, mikrolit daş alətlərin makrolit daş alətlərlə əvəzlənməsi olmuşdur.

Qəbələdə, eləcə də Azərbaycanın digər ərazilərində yığım işi və ovçuluğun sonrakı inkişafı ibtidai əkinçilik və maldarlığın əsas təsərrüfat sahəsinə çevrilməsinə münbit şərait yaratmışdır.

Neolit dövrünün yeniliklərindən biri də dulusçuluq və toxuculuq sənətinin yaranması olmuşdur.

Eneolit dövründə misdən istifadəyə başlanılmışdır. Bu dövrün əsas təsərrüfat sahələri taxılçılıq və maldarlıq olmuşdur. Gildən hazırlanmış kiçikhəcmli araba təkərləri modellərinin tapılması göstərir ki, bu dövrdə araba ixtira edilmişdir.

Tunc dövründə, adından da göründüyü kimi, tunc kəşf edilmişdir. Bu vaxt metalişləmə sənəti meydana gəlmişdir. E.ə. III minilliyə aid metalərdən kürələr, daş və gildən hazırlanan qəliblər, tunc alətlər və silahların tapılması deyilənləri təsdiqləyir. Tunc dövründə yaşayan tayfalar dini inanclarını qoruyub saxlamışlar. Müxtəlif qəbirlərdən tapılan silah, alət, bəzək əşyaları, gil qabların içərisində qida qalıqlarının olması "o dünya" etiqadına dəlalət edir.

Dəmir dövrü. Bəşəriyyət tarixində dəmirin kəşfi görünməmiş dərəcədə mühüm rol oynamışdır. Üç min ildən artıq tarixə şahidlik edən bu dövr hər sahədə inkişafa təkan vermişdir. Bu dövrdə Qəbələ ərazisində, o cümlədən də Azərbaycanın digər ərazilərində ibtidai icma quruluşu tədricən tənəzzülə uğrayaraq başa çatmışdır. Sinifli cəmiyyət yaranmış, bu isə, öz növbəsində, dövlətlərin, şəhərlərin yaranmasına gətirib çıxarmışdır. Ehtimal ki, bu şəhərlərdən biri də Qəbələ olmuşdur. Mütəxəssislərin fikrincə, bu tarixi təqribən e.ə. I minilliyin ortalarına aid etmək olar.

Qəbələnin adı Qafqaz Albaniyasının paytaxtı kimi tarixi mənbələrdə ilk dəfə eramızın I əsrində çəkilir. Roma tarixçisi Böyük Plini "Təbii tarix" adlı əsərində Qəbələdən "Albaniyada baş şəhər Kabalaka" – deyə bəhs edir. Eramızın II əsrində yaşayan yunan alimi Klavdi Ptolemey də "Coğrafi təlimat" əsərində Qəbələnin adını "Xabala" deyə çəkir. Əldə olunmuş zəngin materiallar məmləkətimizin çox qədim tarixə malik olmasına şahidlik edir.

Bu ulu tarixi, zənginlikləri yaradan qədim insanlar olmuşdur. Odur ki "Qəbələ tarixi"ndə adı çəkilən "Ulu insan" şeirindən bir bəndi verməyi münasib bildik:

Zaman-zaman insanlığa can atmısan,
İnsan olub, min bir aləm yaratmısan,
Ulu insan!
Həyat eşqin, mübarizən, dözümün sənin,
Yenilməzdir, arzun sənin, əzimin sənin,
Ulu insan!

"Qəbələ e.ə. V–b.e. XVIII əsrlərində" adlanan ikinci fəsildə "Qəbələnin Qafqaz Albaniyasının paytaxtı kimi formalaşması və yüksəlişi", "Qəbələ erkən dövrlərdə", "Şəhər həyatı", "Elm, təhsil, mədəniyyət və ədəbiyyat", "Ərazi və qalalar", "Güllütala", "Səlbir-Qala", "Sasanilərə qarşı mübarizə", "Ərəb xilafəti tərkibində", "Müdafiə qalaları", "Səlcuq, monqol və qıpçaq işğalları" və s. tədqiqat obyektinə çevrilir.

Tarixə nəzər saldıqda məlum olur ki, VII–VIII əsrlərdə Qəbələ və bütövlükdə Albaniya ərazisi xəzərlər, sasanilər, bizanslar və ərəblər arasında döyüş meydanına çevrilmişdi. Sasani şahı II Xosrov Pərvizin hakimiyyəti dövründə (591–628) Mehrani sülaləsinin güclənməsindən ehtiyatlanmış və Albaniyanın paytaxtı Qəbələdən Partav (Bərdə) şəhərinə köçürülmüşdü. Səbəb Bərdə şəhərinin Sasani imperiyasının mərkəzinə yaxın olması idi.

Mehrani hökmdarı Varaz Qriqorun hakimiyyəti dövründə (628–642) dövlətin daxili və xarici siyasəti

qənaətbəxş deyildi. 642-ci ildə Varaz Qriqor hakimiyyətə oğlu Cavanşiri gətirdi. Cavanşir həm daxili, həm xarici siyasətdə müdrik qərarlar qəbul etdi. Çevik xarici siyasət yeritdi. Əvvəlcə Bizansla yaxınlaşaraq 654-cü ildə imperator II Konstantla görüşüb ərəblərə qarşı ittifaq bağlayıb. VII əsrin 60-cı illərində Xəzər xaqanı şimaldan Albaniyaya qarşı hücum etdi. Cavanşir xəzərlərin 1-ci yürüşünü dəf etsə də, 2-ci yürüşdən sonra xaqanla görüşüb ona tabe olmağa və xərac ödəməyə razılaşdı. Daha sonra xaqanla qohum oldu. Bu zaman Azərbaycanın şimal torpaqlarında, xüsusilə Qəbələdə xəzərlər kütləvi şəkildə məskunlaşdılar.

Cavanşir Ərəb xilafəti ilə də münasibətləri yoluna qoymuşdu. Bu məqsədlə 667 və 670-ci illərdə iki dəfə Dəməşqə gedərək xəlifə Müaviyə ilə görüşmüşdü. Cavanşirin uzun sürən hakimiyyəti dövründə (642–681) Albaniya nəinki müstəqilliyini saxlaya bildi, hətta elm, təhsil, ədəbiyyat sahəsində yeni inkişaf yoluna qədəm qoydu. Bunu Mingəçevirdə aparılan arxeoloji qazıntılar zamanı aşkarlanmış alban əlifbası da təsdiqləyir. 52 hərfdən, 21 işarədən ibarət olan alban əlifbası Cavanşirin hakimiyyəti dövründə daha da təkmilləşdirilmişdi. Məktəblər açılmışdı. "İncil", Homerin "İliada" və "Odisseya" əsərləri yunan dilindən alban dilinə tərcümə edilmişdi. Musa Kalankatlının "Alban tarixi" əsəri

bu dövrdə yazılmışdı. Kitabda Kalankatlı Cavanşirin hakimiyyətini layiqincə qiymətləndirmişdir: "Cavanşir İberiya sərhədlərindən Hun keçidinə və Araz çayına qədər əsl şah kimi əzəmətlə hökmranlıq etmişdir".

Təəssüf ki, 681-ci ildə bizanspərəst feodalların sui-qəsdi nəticəsində Cavanşir qətlə yetirildi. Hakimiyyətə Mehrani sülaləsinin digər nümayəndəsi, Cavanşirin qardaşı oğlu Varaz Trdat keçdi. İndi güclü dövlətlərin həyata keçirdiyi siyasət, sən demə, o vaxtdan qalma imiş. Fikir verin, Cavanşirin qətlə yetirilməsindən 24 il sonra VIII əsrin əvvəllərində Bizans tərəfdarlarını "cəzalandırmaq" bəhanəsi ilə Albaniyaya ərəb qoşunları yeridildi. Qəribədir ki, ərəblərin əsrlər öncə etdikləri indi öz başlarına gəlir. İraq Prezidenti Səddam Hüseyni şirniklərdirərək Kuveyti tutmasına təhrik edən qüvvələrin İraqı "cəzalandırmaq" bəhanəsi ilə Yaxın Şərqə NATO ordularını yeritməsi və İraqı zəbt etməsi deyilənlərə əyani sübutdur.

Ərəblər 705-ci ildə Mehranilərin sonuncu nümayəndəsini ailəsi ilə birlikdə Dəməşqə aparıb edam etdilər. Bununla da, Mehranilər sülaləsinin hakimiyyəti sona yetdi. Albaniyanın daxili müstəqilliyi ləğv edildi, idarəçilik xəlifənin canişininə tapşırıldı (Bax: "Qəbələ tarixi", səh.49).

Beləliklə, "cəzalandırmağın" əsl məqsədi faş oldu.

Xoşbəxtlikdən, Musa Kalankatlının "Alban tarixi" əsəri və Cavanşirin sarayında yaşayan şair Dəvdəkin Cavanşirin ölümünə həsr etdiyi "Elegiya"sı dövrümüzədək gəlib çatmışdır. Dəvdəkin 33 bənddən ibarət qəsidəsi o dövrdəki ədəbiyyatın inkişaf səviyyəsini bariz şəkildə göstərir.

Klassik ədəbiyyatda belə dərin mənalı, insanı düşüncələrə qərq edən, insan itkisinin ağrı-acılarını poeziyanın dili ilə dürüst ifadə edən poeziya nümunələrinə az təsadüf edilir. Görkəmli dilçi alimimiz, alban və udin dillərini mükəmməl bilən, mərhum dostum Voroşilin tərcüməsində qəsidədən üç bəndi təqdim edirik:

Ey ilahi, kəlamları xəlq eyləyən ulu Tanrı,
Özün nəğmə-ağı söylə, yad et bizim hökmdarı.
Elə nəğmə-ağı qoş ki, bu əvəzsiz itki üçün
Gözümüzdən gecə-gündüz axsın odlu göz yaşları.

Aslan kimi qüdrətliydi o öz aslan diyarında,
Düşmənləri zağ-zağ əsər, qarşısında donardılar.
Qüdrətinə baş əyərdi, həm qorxudan, həm sevgidən
Bütün elat başçıları, bütün müdrik ağsaqqallar.

Mənim ağım nə qu quşu, nə də pəri nəğməsidir.
Qatarından ayrı düşən bir durnanın naləsidir.
Yetim qalıb bizim şəhər, kövrəkləşib qədim Qala,
Uzun illər görməmişdik bu cür kədər, bu cür bəla.

Qüdrətli hökmdar Cavanşir yazıçılarımızın da diqqət mərkəzində olmuşdur. Xalq yazıçısı Mehdi Hüseyn "Cavanşir" tarixi dramını (1957) və şair Davud Nəcib vətənpərvərlik ruhunda yazılan, bəzi qeyrətsizləri qeyrətə səsləyən çox maraqlı "Cavanşir" (2000) və "Cavanşirsiz məmləkət" (2001) romanlarını yazmışdır.

Onlar bədii ədəbiyyatda Cavanşirin görkəmli sərkərdə, dövlət başçısı və diplomat kimi obrazını yaratmışlar.

Biz Qəbələnin müasir tarixinə daha çox yer verdik və yalnız **"Qəbələ XIX əsrdə" adlanan III fəsildəki "Təhsil və Ədəbiyyat" bölümü** haqqında ətraflı məlumat verməyi münasib bildik.

Bu diyardan bir çox gənc Qori seminariyasında təhsil aldıqdan sonra vətənə qayıtmış, müəllimlik etmiş, müxtəlif vəzifələrdə çalışmışlar. Onlardan Balabəy Sultanbəyov, İbrahim bəy Musabəyov, Süleyman bəy Musabəyov, Əziz bəy Paşabəyli, Həsən Əliyev kimi vətənpərvər ziyalıların adını çəkmək olar.

Vahid bəy Musabəyov haqqında xüsusi danışmağı münasib bildik. Vahid bəy İrəvan Müəllimlər Seminariyasını bitirdikdən sonra (1885–1889) yenidən Qutqaşenə qayıdaraq müəllimlik etmişdi. 1891-ci ildə məktəb üçün daş bina tikdirmişdi. Məktəbdə 1895-ci ildən təhsil müddəti 5 il olmuşdur. Burada şəriət, rus dili, ana dili, hesab, tarix, coğrafiya, kənd təsərrüfatı əməyi tədris olunurdu. Məktəbi bitirən

hər bir gənc, həm də müəyyən bir peşəyə (xarrat, bərbər, bağban, arıçı və s.) yiyələnirdi.

Qəbələ XIX əsrdə Azərbaycan ədəbiyyatına İsmayıl bəy Qutqaşınlı, Abdulla bəy Qutqaşınlı, Yusif Vəndami, Molla Əyyub, Molla Bədrəddin, Aşıq Daşdı, Qaçaq Seyid kimi şəxsiyyətlər bəxş etmişdir. İsmayıl bəy Qutqaşınlı (1806–1861) yazıçı, ictimai xadim, hərbçi kimi tarixə düşmüşdür. O, 1850-ci ildə general-mayor rütbəsi almışdır. İsmayıl bəy Qutqaşınlı Xan qızı Xurşudbanu Natəvanın həyat yoldaşı Xasay xan Usmiyevlə (Nə yaxşı ki, İsmayıl bəy Xasay xanla dostluq etmişdir. Yazıçının "Rəşid bəy və Səadət xanım" hekayəsi yoxa çıxmışdı. Onun öz dəst-xətilə Xasay xana bağışladığı fransızca nüsxə Bakıda 1932-ci ildə Azərbaycan Dövlət Muzeyində Salman Mümtaz tərəfindən üzə çıxarılmış, Azərbaycan dilinə tərcümə edilərək, elm aləminə təqdim edilmişdir), Bestujev-Marlinski, Qasım bəy Zakir (İsmayıl bəy öz şəxsi nüfuzundan istifadə edərək 1849-cu ildə şairi sürgündən azad etdirmişdir), Abbasqulu ağa Bakıxanov və M.F.Axundovla səmimi münasibətdə olmuşdur. M.F.Axundov İsmayıl bəyin "Rəşid bəy və Səadət xanım" hekayəsini yüksək qiymətləndirmişdir. Qeyd etməyə dəyər ki, 1835-ci ildə Varşavada fransızca çap olunan "Rəşid bəy və Səadət xanım" hekayəsi Azərbaycan realist nəsrinin ilk nümunəsidir.



İsmayıl bəy Qutqaşınlının heykəli.
Heykəltaraş İbrahim Zeynalovdur.
Qəbələ şəhəri, 2010-cu il fotosu



İsmayıl bəy Qutqaşınlının xatirə-ev muzeyi, 2017-ci il fotosu

Yazıçının "Səfərnamə" əsəri də o vaxt böyük maraq doğurmuşdu. "Səfərnamə" bədii publisistikanın səyahət oçerki janrının ilk və klassik nümunəsidir. Bu əsər İsmayıl bəyin Həcc ziyarətləri (1852–1853 və 1859–1860) zamanı yaranmışdır. "Səfərnamə"nin əlyazması 1978-ci ildə Qəbələnin Həmzəli kəndindəki qədim Şıxbaba pirindən tapılmışdır.

İsmayıl bəy 1861-ci ildə Ağdaşda karvansarayda dəm qazından zəhərlənərək ölmüş və Qutqaşenə gətirilərək Sultan baba qəbiristanlığında dəfn edilmişdir.

İsmayıl bəy unudulmamış, xatirəsi qədirbilən xalqımız tərəfindən əbədiləşdirilmişdir. Qəbələdə onun ev muzeyi fəaliyyət göstərir. Qəbələ tarix-diyarşünaslıq muzeyində "İsmayıl bəy Qutqaşınlı" guşəsi yaradılmışdır. Bakı və Qəbələnin küçələrindən biri onun adını daşıyır. Qəbələ şəhər məktəblərindən birinə İsmayıl bəy Qutqaşınlının adı verilmişdir.

Əslən Qəbələdən olan, filologiya elmləri doktoru Abid Tahirli İsmayıl bəy Qutqaşınlıya "Generalın qayıdışı" adlı dram əsəri həsr edib (Bakı, "Elm və təhsil", 2019).

"Qəbələ XX əsrdə" adlanan fəsildə "Milli oyanış", "Maarif və Mədəniyyət", "Birinci Dünya müharibəsi illərində", "Terror", "Qafqaz İslam ordusu", "Təhsil", "Repressiya", "İkinci Dünya müharibəsi illərində", "Əmək qəhrəmanları", "Maarif", "Heydər Əliyevin Qəbələyə səfərləri", "Mədəni-mənəvi həyat" (muzeylər), "Elm, təhsil, ədəbiyyat nümayəndələri", "Sosial

həyat", "Böhran illəri", "Müstəqillik illəri", "Qarabağ müharibəsi" kimi məsələlər tədqiqata cəlb olunub.

XX əsrdə Qəbələ Rəşid bəy Əfəndiyev, Əhməd Əfəndi (coğrafiyaşünas), Şəfi bəy Rüstəmbəyli, Mahmud bəy Şıxməmmədbəyov, İbrahim bəy Musabəyov, Muxtar Əfəndizadə kimi mədəniyyətimizə xidmət edən maarifçilər yetirmişdir.

Azərbaycanın azadlığında müstəsna rol oynayan Qafqaz İslam Ordusunun ilk dəstələrinin Qəbələ bölgəsinə gəlməsi (10.06.1918) ilə bolşevik-daşnak terror dəstələrinə qarşı mübarizə geniş miqyas almışdı.

Qəbələnin Rəfi Əfəndi, Hüseyn bəy Ömərbəyov, İbrahim Musabəyov, Leon Qoasari (görkəmli dilçi alimimiz Voroşilin atası), Abdulla Tahirzadə kimi şəxsiyyətlər repressiya qurbanı olmuşlar.

Böyük Vətən müharibəsi illərində (1941–1945) Qutqaşen rayonundan cəbhəyə 5563 nəfər getmiş, onlardan cəmi 2613 nəfər vətənə qayıtmışdır. Vətənə dönənlərin əksəriyyəti əmək qabiliyyətini itirmiş adamlar idi. Onların çoxu orden və medallarla təltif olunmuşdur. "Qəbələ tarixi" kitabında onların haqqında geniş məlumat verilmişdir.

İkinci Dünya müharibəsindən sonra Qutqaşendə təhsilin inkişafında canlanma baş vermişdir. Bu sahədə xüsusi xidmətləri olan Məhəmməd Qəribov və Hüseyn Məmmədov haqqında "Qəbələ tarixi"ndə geniş danışılır.

XX əsrin ortalarında, II Dünya müharibəsi başa çatdıqdan sonra Qəbələ əhalisi qarşısında duran başlıca vəzifə iqtisadiyyatı bərpa etmək və yenidən qurmaq idi. Rayonda təsərrüfatın müxtəlif sahələrinin bərpa və inkişafında qadınlar böyük fədakarlıq göstərirdilər. Kişilərin əhəmiyyətli hissəsinin müharibədə həlak olması, yaxud şikəst olub əmək qabiliyyətini itirməsi səbəbindən təsərrüfat işlərinin əsas ağırlığı qadınların çiyninə düşürdü. 50-ci illərdə Qəbələdə tütünçülük, çəltikçilik, qoyunçuluq, baramaçılıq və s. təsərrüfat sahələrinə xüsusi diqqət yetirilirdi. Əmək uğurları da məhz bu sahələrdə əldə olunurdu. Təsadüfi deyil ki, keçmiş SSRİ-nin ən yüksək təltifi sayılan "Sosialist Əməyi Qəhrəmanı" adına layiq görülmüş əməkçilərin hamısı bu sahədə çalışırdı. "Sosialist Əməyi Qəhrəmanı" adına layiq görülən 13 nəfərdən 10-u tütünçü qadınlar olmuşdur. İki nəfər çəltikçilik, bir nəfər isə heyvandarlıq sahəsində qazanılan nailiyyətlərə görə bu yüksək ada layiq görülmüşdü.

Qəbələ və qəbələlilərə şöhrət gətirən, öz zəhməti ilə ucalan əmək qəhrəmanlarını yad etməyi, təltif illərini göstərməklə adlarını iftixar və minnətdarlıqla çəkməyi münasib bildik.

Tütünçülük üzrə: Əzimova Cahan (1949), Çaldallari Təzəgül (1949), Muradxanova Badam (1950), Məmmədova Pakizə (1950), Məmmədrəhimova Minarə (1950), Mobili Təzəgül (1950), Dallari Siranuş

(1950), Zubkova Pelageya (1950), Rəsulova Bənövşə (1950), Orucova Töhfə (1950).

Çəltikçilik üzrə: Əhmədov Zakir (1949), Qəhrəmanov Rəsul (1949).

Heyvandarlıq üzrə: Əlimirzəyev Əşrəf (1966). Sonralar Siranuş Dallari və Əşrəf Əlimirzəyevin hər biri iki dəfə "Lenin ordeni"nə layiq görülmüşdülər.

"Qəbələ XX əsrdə" adlanan IV fəslin "Heydər Əliyev və qədim Qəbələ" bölümündə Ümummilli Liderin bu diyara səfərlərindən söhbət gedir. Rəhbərin Qəbələyə ilk səfərinin böyük marağa səbəb olduğu xüsusi vurğulanır.

Məlumdur ki, keçmiş SSRİ Silahlı Qüvvələrinin ən güclü Radiolokasiya stansiyalarından biri 1976-cı ildə Qəbələdə inşa edilməyə başlamışdı. Qəbələ RLS-ə 1977-ci ildə Mingəçevir Su-Elektrik Stansiyasından yüksəkgərginlikli elektrik xətti çəkilirdi. Elə planlaşdırılmışdı ki, elektrik xəttinin bir neçə böyük dirəyi Qala qapıları üzərinə, daha doğrusu, bürclər üzərinə düşürdü. Bu bürclər vaxtilə Qəbələnin təhlükəsizliyini təmin etmək üçün tikilmiş istehkamlar idi. Yuxarıda deyildiyi kimi, şimal divarlarının hündürlüyü 5 metr, cənub divarlarının hündürlüyü 10–12 metr, divarların qalınlığı 5 metr, bürclərin daxili diametri 5 metrdir.

Baş verənlərin təsadüfi planlaşdırma xətası olduğunu düşünmək sadəlövhlük olardı.



Tarixə şahidlik edən bürclər

Min illərlə tarixə şahidlik edən bu möhtəşəm abidələrin məhv olması təhlükəsi reallaşırdı. Ən təhlükəli məqamlardan biri də RLS-ə gedən elektrik xətləri, qurğuları, geniş torpaq sahələri ordunun mühafizəsinə verilir, qadağa zonasına çevrilirdi. Arxeoloji qazıntıların qarşısı alınırdı. Sovet generallarına qarşı durmaq asan deyildi. Vəziyyəti belə görən arxeoloqlar, Qəbələ ziyalıları birbaşa Heydər Əliyevə müraciət etdilər.

Ulu Öndərin əzmi, milli iradəsi və gərgin əməyi sayəsində elektrik xətti cənub qapılarından, divarlardan və Qala bürclərindən uzaqlaşdırıldı, tarixi abidələr xilas edildi. Ulu Öndərimizin xilas etdiyi bu alınmaz abidələr, bürclər, istehkamlar əfsanələr görmüş canlı tarixdir. Akademik Teymur Bünyadov obrazlı şəkildə deyib: "Bu tarixə Qəbələnin qədim sakinlərinin ruhu hopub. Bu daş divarlar min illərin tarixinə şahidlik edir".

Milli özünüdərk və milli oyanış yolunda atılan bu mühüm addım Ulu Öndərimizin tarixi xidmətidir.

Dahi şəxsiyyət Heydər Əliyevin tariximizin, mədəniyyətimizin xilası yolunda gördüyü möhtəşəm işlərin miqyasını təsəvvür etmək çətindir. Fəxr edirəm ki, Ulu Öndərimizə həsr etdiyim "Xilaskar", "Tarix qurub-yaradanları yaşadır", "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" və başqa məqalələrimdə, eləcə də "Xilaskarlar" kitabımda (Bakı, "Təhsil", 2021) onun əvəzsiz xidmətlərindən söz açmışam.

Heydər Əliyev bu füsunkar diyara ilk dəfə 1978-ci il may ayının 13-də səfər etmişdi. Bu səfər Qutqaşen rayonunun inkişafına təkan verdi. Məsələ burasındadır ki, Qutqaşen əhalisi yalnız Ağdaşa, oradan Göyçaya, oradan da Bakıya gedə bilirdilər. Uzaq bir məsafəni qət edirdilər. Bundan əlavə, Ağsu dolambacını qar basanda Bakıya getmək mümkün olmurdu.

Ulu Öndərimiz müvafiq qurumlara göstəriş verdi. Məlum oldu ki, Şamaxı–İsmayıllı–Qutqaşen istiqamətində yol çəkmək olar. Yol çəkildi də. Beləliklə, Qutqaşen əhalisinin Bakıya yolu inanılmaz dərəcədə qısaldı.

Onu da qeyd edək ki, müstəqillik illərinin lap əvvəlində (07.02.1991) Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə Qutqaşen şəhəri Qəbələ şəhəri və müvafiq olaraq Qutqaşen rayonu Qəbələ rayonu adlandırılmışdır.



Heydər Əliyev Qutqaşen (Qəbələ) rayonunda,
13 may, 1978-ci il



Heydər Əliyevin 13 may 1978-ci ildə
Qutqaşenə (Qəbələyə) səfəri



Prezident Heydər Əliyev və İlham Əliyev Qəbələdə,
8 noyabr 2002-ci il



Prezident Heydər Əliyev Dəmiraparan çayının sahilində,
Qəbələ, 8 noyabr 2002-ci il

Heydər Əliyev 2002-ci ildə Qəbələyə ikinci səfəri zamanı bu barədə fəxrlə danışdı: "Bu yol ona görə maraqlıdır ki, Azərbaycanın füsunkar təbiətinin bütün gözəlliklərini özündə birləşdirir. Ağdaşdan-Göyçaydan keçib Bakıya gedirdiniz. Yolunuz nə qədər uzaq olurdu. Elədirmi? Biz bu yolu açdıq. Bir neçə körpü tikdik. Burada (Azərbaycanda – *Q.P.*) işlədiyim əvvəlki dövrün son illəri – 1981–1982-ci illər idi. Mənim yadımdadır, bu yolun çəkilməsini xahiş etmişdilər, mən də bunu etdim. İndi Bakıya yolunuz qısalıbdır. Özü də yol belə gözəl meşənin içindən keçir. Adam baxır, deyir ki, burada təbiət nə qədər gözəldir! Siz belə bir yerdə yaşayırsınız. Belə yerdə yaşayan adamlar da həm fiziki cəhətdən, həm də əqli cəhətdən sağlam olur, həm də ki zəhmətkeş, fədakar olur".

Heydər Əliyevin ən böyük xidmətlərindən biri də Azərbaycanda məskunlaşan etnoslara xüsusi qayğı göstərməsi olmuşdur. "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir", – deyirdi. Bu qayğının nəticəsində onların dili, dini etiqadları və adət-ənənəsi keçmişdə olduğu kimi qalır. Öndərimiz bu etnosların xalqımızın həyatında mühüm rol oynadığını yüksək qiymətləndirirdi: *"Respublikanın ən başlıca sərvətlərindən biri, bəlkə də, ən başlıca sərvəti qədimlərdən bu torpaqlarda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən insanlardır"*.

Ümummilli Liderimizin fəxarətlə söz açdığı bu etnosların hər birinin özünəməxsus xüsusiyyətləri

əsrlər öncə olduğu kimi qalır və Azərbaycan xalqının mənəvi mədəniyyətini zənginləşdirir.

Ulu Öndər 2002-ci il noyabr ayının 8–9-da Dəmiraparan çayının sahilində, meşənin ətəyində yerləşən evdə qalmış, həmin ev bu gün onun xatirəsini yaşadan muzeyə çevrilmişdir. Qəbələdə Heydər Əliyevin şərəfinə "Heydər bulağı" inşa edilmişdir. 2004-cü ildə Ümummilli Liderin xatirəsini əbədiləşdirmək üçün rayon mərkəzində "Heydər bağı" salınmış, həmin bağda Ulu Öndərin abidəsi ucaldılmışdır.

İndi Qəbələnin mərkəzi küçələrindən biri Ümummilli Liderin adını daşıyır.

"Qəbələ tarixi" kitabında Qarabağ müharibəsinə və müharibədə qəbələlilərin iştirakına da geniş yer verilmişdir.

Dağlıq Qarabağ Muxtar Vilayəti ilə bağlı məxfi planı həyata keçirməyə çalışan M.Qorbaçovun xəyanətkar əməlləri nəticəsində 1987-ci ilin noyabrında Heydər Əliyev Siyasi Bürodan uzaqlaşdırıldı. Nəticədə, 1988-ci ilin fevralından Dağlıq Qarabağ münaqişəsi alovlandı. Həmin ildə 230 min azərbaycanlı öz dədə-baba torpağından indiki – Ermənistan ərazisindən deportasiya olundu.

"Qəbələ tarixi" kitabında az yerdə rast gəlinən tarixi həqiqət aşkarlanır:

"Ermənistan hərbi qüvvələrinin və Rusiya Federasiyasının Xankəndidə yerləşən 366-cı mexanikləşdirilmiş alayının 1992-ci il fevral ayının 26-da Xocalı

faciəsini törətməsi, 613 nəfərin öldürülməsi, 487 nəfərin yaralanması, 1275 nəfərin əsir götürülməsi ilə nəticələndi. Qarabağ müharibəsi şiddətləndi. Qəbələnin 1000-dən artıq igid oğlu Qarabağ müharibəsinə getdi. Torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə Qəbələnin 140 oğlu şəhid oldu, 16 nəfər itkin düşdü".

"Qəbələ XXI əsrin əvvəllərində" adlanan fəsildə Ulu Öndərimiz və sonralar Prezidentimiz İlham Əliyevin Qəbələyə səfərlərindən (2003–2016), "Təhsil", "Səhiyyə", "Sənaye", "Mədəniyyət ocaqları", "Turizm", beynəlxalq və respublika əhəmiyyətli tədbirlərdən (2010–2017), Heydər Əliyev Fondu – Beynəlxalq Musiqi Festivalları, Azərbaycan Mədəniyyəti Fondu və SEBA Assosiasiyası – Beynəlxalq İncəsənət Sərgiləri və s. kimi beynəlxalq əhəmiyyətli məsələlərdən söz açılır.

Bu müddət ərzində Prezident İlham Əliyev təqribən 75 obyektin açılışında şəxsən iştirak etmiş, qırmızı lenti kəsərək xeyir-dua vermişdir. Prezidentin açdığı obyektlərin siyahısına nəzər salmaq kifayətdir ki, Qəbələdə dövlət əhəmiyyətli, ağlasığmaz işlər barədə təsəvvür yaransın. Onlardan bəzilərini qeyd etməklə ölkə başçısının bölgələrə göstərdiyi qayğı və Qəbələdəki vüsətli inkişafın mənzərəsi barədə hərtərəfli təəssürat əldə etmək olar:

Qaraçay üzərindəki 132 metr uzunluğunda, 250 ton ağırlığında yükə davam gətirən körpünün açılışı (03.10.2003), "Heydər bağı"nın açılışı (18.08.2005),

"Gilan" yeyinti məhsulları istehsalı müəssisəsinin açılışı (18.08.2005), Qəbələ şəhərinə çəkilmiş yeni su xəttinin açılışı (18.08.2005), Zərifə Əliyeva adına parkın açılışı (02.03.2007), Qəbələ Konserv zavodunun açılışı (02.03.2007), Müalicə-Diaqnostika Mərkəzinin açılışı (20.09.2008), Qəbələ Süd Emalı zavodunun açılışı (20.09.2008), "Beltmann" piano fabrikinin açılışı (27.02.2010), Yeni avtovağzal binasının açılışı (27.02.2010), "Qafqaz Park" Gənclik Mərkəzinin (indiki "Qəbələnd" parkının) açılışı (27.02.2010), "Laza" yarımstansiyasının (110 kilovolt) açılışı (27.02.2010), "Qafqaz Resort" mehmanxanasının yeni korpusunun açılışı (27.02.2010), "Uşaq bağçası"nın açılışı (27.02.2010), "Fitnes" Sağlamlıq Mərkəzinin (indiki Qafqaz SPA və Sağlamlıq Mərkəzi) açılışı (27.02.2010), "Qafqaz Riverside" otelinin açılışı (29.07.2010), Qəbələ Beynəlxalq Aeroportunun açılışı (18.11.2011), Olimpiya İdman Kompleksinin açılışı (18.11.2011), "Qafqaz Sport Hoteli"nin açılışı (18.11.2011), Nic qəsəbəsində 2 nömrəli tam orta məktəbin açılışı (18.11.2011), Qəbələ Su-Limonad istehsalı zavodunun açılışı (18.11.2011), Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün tikilmiş 36 mənzilli binanın açılışı mərasimi (18.11.2011), Qəbələ Mədəniyyət Mərkəzinin açılışı (28.02.2013), Qəbələ şəhər məscidinin yeni binasının açılışı (28.02.2013), Bum qəsəbəsində Qəbələ Atıcılıq klubunun açılışı (28.02.2013), Heydər Əliyev Konqres Mərkəzinin açılışı (14.08.2013), "Aqro Kompleks Qə-

bələ" MMC-nin Aqro-Sənaye Kompleksinin açılışı (14.08.2013), "Qafqaz Karvansaray" otel kompleksinin açılışı (14.08.2013), "Tufandağ" xizək yay-qış istirahət kompleksinin 1-ci mərhələsinin açılışı (03.01.2014), "Qafqaz Yengicə Termal Hotel və SPA" kompleksinin açılışı (22.09.2014), Daxili qoşunların Qəbələdə inşa edilmiş yeni şəhərciyinin açılışı (22.09.2014), Qəbələ Arxeoloji Mərkəzinin açılışı (22.09.2014), Qəbələ regional "ASAN xidmət" Mərkəzinin açılışı (10.08.2016), Qəbələdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilən "Uşaq bağçası"nın açılışı (10.08.2016), "Qafqaz Tufandağ Mountain Resort" otelinin açılışı (10.08.2016), YAP Qəbələ rayon təşkilatının inzibati binasının açılışı (10.08.2016), Nohurqışlaq–Tüntül–Yengicə yolunun əsaslı təmirdən sonra açılışı (10.08.2016) və s.

2021-ci il may ayının 12–13-də Şuşa şəhərində Azərbaycanda toplu halda yaşayan bütün xalqların incəsənət ustalarının öz mədəniyyətlərini nümayiş etdirdikləri möhtəşəm "Xarıbülbül Festivalı"nda fəal iştirak etdikdən sonra möhtərəm Prezidentimiz İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva birbaşa qədim Qəbələyə gəldilər. Əvvəlcə "Müqəddəs Məryəm Ana" və "Müqəddəs Yelisey adına Cotari" alban kilsələrini ziyarət etdilər. Orada Udin din xadimləri ilə səmimi söhbət xeyli davam etdi.

Din xadimləri 2-ci Qarabağ müharibəsi qurtaran kimi Laçın rayonunda "Ağoğlan", Xocavənddə

Prezident İlham Əliyev və
Birinci vitse-prezident Mehriban xanım Əliyeva
Qəbələnin Nic kəndində "Məryəm Ana" və "Cotari" kilsələrində,
15 may 2021-ci il











“Müqəddəs Məryəm Ana” kilsəsi



Nic kəndində “Cotari” kilsəsi

"Tuğ", Kəlbəcər rayonunda "Xudavəng" məbədlərinin 30 illik həsrətinə son qoyulması üçün hər cür şərait yaradıldığına görə Prezident İlham Əliyevə bütün udin xalqı adından minnətdarlıqlarını bildirdilər.

Prezidentimiz və Birinci vitse-prezident, eləcə də Bum çayı üzərində salınmış körpünün və Ləki-Qəbələ dəmiryolunun açılışında iştirak etdilər.

Prezident, eyni zamanda Nic qəsəbəsində 360 yerlik yeni məktəb binasının tikilməsi barədə sərəncam imzaladı.

Onu da bilmək maraqlıdır ki, Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolunun tikintisinə başlanıb. Yeni layihəyə əsasən bu yol 9,7 km qısaldılaraq 76,8 km təşkil edəcək. Ağsuçayın üzərindən 1135 m uzunluğunda, 76,5 m hündürlüyündə asma körpü salınacaq. Bu yol paytaxtımızı təkcə Qəbələ deyil, Oğuz, Şəki, Zaqatala, Balakən rayonları ilə birləşdirən yol olacaq.

Sadaladıqlarımız Prezidentimizin təşəbbüsü və nəzarəti altında Qəbələdə həyata keçirilən möhtəşəm işlərin miqyası barədə təsəvvür yaradır. Bütün bunlar ağır zəhmətin, fədakarlığın və vətənpərvərliyin bəhrəsidir.

Möhtərəm Prezidentimizin fəxarətlə dediyi **"Biz Azərbaycanın son illərdəki inkişafını Qəbələ rayonunun timsalında əyani şəkildə çox yaxşı görürük"** kəlamı böyük həqiqətdən söz açır.

Təqdim etdiyimiz şəkillər də deyilənə dayaq olur.



"Qafqaz Resort" oteli 2008-ci ildə fəaliyyətə başlayıb.



"Beltmann" piano fabriki
2008-ci ildən fəaliyyətə başlayıb.



Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin abidəsi önündə,
Qəbələ, 22 sentyabr 2014-cü il



Qəbələ RİH-in yeni inzibati binasının açılışı,
18 noyabr 2011-ci il



Olimpiya İdman Kompleksinin açılışı,
18 noyabr 2011-ci il



Prezident İlham Əliyev Rusiyanın Təhsil və Elm naziri Andrey Fursenko ilə Qəbələdə görüşür. 3 mart 2007-ci il



Qəbələnin Nic qəsəbəsindəki 2 nömrəli tam orta məktəb 2011-ci ildən fəaliyyət göstərir.



Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 36 mənzilli bina 2011-ci ildən istifadəyə verilmişdir.



"Azərbaycanın qədim şəhər mədəniyyəti dünya urbanizasiya kontekstində" Beynəlxalq elmi konfrans.
Konfransın Rəyasət heyəti (soldan-sağa):
Nailə Vəlixanlı, Çoi Suk-İnn (Koreya), Ruhəngiz Heydərova, İradə Nəcəfova, Qəbələ, 9 noyabr 2012-ci il



"Azərbaycanda Koreya Kinosu Festivalı"nın rəsmi bağlanış mərasimi. Qəbələ, 15 avqust 2015-ci il



"Azərbaycanın qədim şəhər mədəniyyəti dünya urbanizasiya kontekstində" Beynəlxalq elmi konfransın iştirakçıları və təşkilatçıları Səlbir ərazisində. Soldan sağa: Kim Jongil (Koreya), Kvon Ohyounq (Koreya), Çoi Suk-İnn (Koreya), Rühəngiz Heydərova, Kim Seunq Hee (Koreya), Kvon Eun Ju (Koreya), İrina Zeynalova, Səbinə Abayeva, 10 noyabr 2012-ci il

Qəbələdə gedən sosial-iqtisadi inkişafda yeni məktəb binalarının tikintisi və mövcüd məktəblərin əsaslı təmiri xüsusi yer tutur. Kitabda Heydər Əliyev Fondunun Prezidenti, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu sahədəki misilsiz xidmətlərindən söz açılır. Son illərdə Qəbələdə tikilən 28 məktəb binasından 9-u Heydər Əliyev Fondu tərəfindən inşa olunmuşdur. Burada diqqəti çəkən bir məsələdən də yan keçmək olmur. Məlum olur ki, 2005–2016-cı illər arası Qəbələdən ali məktəblərə qəbul olunan 4118 abituriyentdən 247 nəfər 600-dən çox bal toplayıb. İllər üzrə götürsək, hər il onlardan 20-si 600-dən artıq bal toplamış, bir neçə nəfər "Prezident təqaüdü"nə layiq görülmüşdür.

Bundan başqa, 2010–2016-cı illər arası Qəbələ məktəblilərindən 94 şagird Respublika Fənn Olimpiadalarında iştirak etmiş, onlardan 21 nəfər Olimpiadanın qalibi olmuşdur. Təbii ki, şagirdlərin uğurunda müəllimlərin əməyi danılmazdır. Odur ki bir neçə müəllim "İlin müəllimi" fəxri adına və "Prezident mükafatı"na layiq görülmüşlər. Mirzalıyev Əhməd, Adımova Firəngiz, Kərimova Bilqeyis, Səfərəliyev Nizami, Əzizli Fərman, Cəfərova Yeganə "Əməkdar müəllim" adına layiq görülmüşlər. Hüseynov İxtiyar "Əməkdə igidliyə görə", Kərimova Suqra, Səfərova Nərminə, Kərimova Rəna, İbrahimova Xalidə "Tərəqqi medalı", Çintalova Anjela "Xalqlar dostluğu", Aydın Ağamirzə "Şərəf nişanı" ordeni ilə təltif olunmuşlar.

GENERAL POLAD HƏŞİMOV

Bu diyardan Azərbaycanın Milli Qəhrəmanı, general-mayor Polad Həşimov kimi fenomen şəxsiyyət çıxmışdır. O, 1975-ci il yanvar ayının 2-də Qutqaşen rayonunun (hal-hazırda Qəbələ rayonu) Vəndam qəsəbəsində anadan olmuşdur. 1976-cı ilin iyul ayında Həşimovlar ailəsi Sumqayıta köçüb. Polad orta məktəbi Sumqayıtda bitirərək (1992) Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə qəbul olunub və 1995-ci ildə oranı "Motoatıcı" ixtisası üzrə bitirib.

Polad Həşimov 1992-ci ilin noyabr ayında Birinci Qarabağ müharibəsi zamanı Ağdam rayonunun Mərzili və Novruzlu kəndlərinin müdafiəsi uğrunda gedən döyüşlərə qatılmışdır. 1994-cü ilin fevral ayında Murovdağ əməliyyatı zamanı Murov dağı silsiləsində "Güzgü", "Koroğlu" və "Ömər" postları uğrunda gedən döyüşlərdə savaşmışdır. Həmin ildə o, Müdafiə Nazirliyi tərəfindən İstanbulun Tuzla ilçəsində yerləşən Piyada Məktəbində üçaylıq təlimlərə göndərilmişdir.

Birinci Qarabağ müharibəsinin bitməsindən sonra Polad Həşimov daim cəbhə bölgəsində olan hərbi hissələrdə xidmət etmişdir. O, uzun illər Azərbaycan Silahlı Qüvvələrinin Murovdağ silsiləsində olan hərbi hissələrində xidmət etmişdir.

Polad Həşimov 1995–2017-ci illər ərzində Motoatıcı Taqım Komandiri vəzifəsindən Hərbi Hissənin Komandiri vəzifəsinə qədər müxtəlif vəzifələrdə çalışmışdır.

Polad Həşimov 28 yaşı olanda "mayor" hərbi rütbəsi almış, 2003-cü il iyunun 24-də Azərbaycan Prezidenti Heydər Əliyevin Fərmanına əsasən "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişdir.

2009-cu il iyunun 25-də Polad Həşimov "polkovnik-leytenant" hərbi rütbəsi almış və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Polad Həşimov 2003-cü ilin sentyabr ayında Ofeliya Salmanova ilə ailə həyatı qurmuşdur. Davud və Teymur adında oğulları, Aybəniz adında isə qızı var.

2016-cı il aprelin 1-dən 2-nə ötən gecədən başlayaraq Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin bölmələri arasında cəbhənin Tərtər və Cəbrayıl-Füzuli istiqamətlərində şiddətli döyüşlər başlamışdır. Tarixə "Aprel döyüşləri" adı ilə daxil olan hərbi əməliyyatlar zamanı Polad Həşimov 1-ci Ordu Korpusunun Komandir müavini – Qərargah rəisi idi. Cəbhənin Tərtər rayonu istiqamətində gedən döyüşlərin idarə edilməsi məhz ona həvalə olunmuşdu. Gecə döyüşləri zamanı Tərtər rayonunun Talış istiqamətində olan əlverişli mövqelər, strateji nöqtələr, o cümlədən Talış yük-

səkliyi Azərbaycan Ordusu tərəfindən işğaldan azad olunmuşdur.

Polkovnik Polad Həşimov Azərbaycanın ərazi bütövlüyünün qorunub saxlanmasında xüsusi xidmətlərinə və Silahlı Qüvvələr qarşısında qoyulmuş tapşırıqları yerinə yetirən zaman fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 20 aprel 2016-cı il tarixli Sərəncamına əsasən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

Aprel döyüşləri zamanı Tərtər rayonu istiqamətində gedən döyüşlərin idarə edilməsində xidmətlərinə görə Polad Həşimova mənzil hədiyyə edilmişdi. Kirayə mənzildə yaşamasına baxmayaraq, Polad Həşimov həmin mənzili Aprel döyüşləri zamanı şəhid olan hərbçinin ailəsinə bağışlamışdı.

Polad Həşimov son illərdə 3-cü Ordu Korpusunun Qərargah rəisi vəzifəsində çalışırdı (2017–2020).

2019-cu il iyunun 24-də Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Polad Həşimova "general-mayor" ali hərbi rütbəsi verilmişdir. Bununla da, Polad Həşimov XIX əsrdə yaşayan İsmayıl bəy Qutqaşınlıdan sonra Azərbaycan tarixində Qəbələdən general rütbəsi alan birinci hərbçi olmuşdur.

Tovuz döyüşləri

2020-ci il iyulun 12-də günorta saatlarından başlayaraq Ermənistan Silahlı Qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində Dövlət Sərhəd Xidmətinin mövqelərini artilleriya qurğularından atəşə tutub. Azərbaycan Silahlı Qüvvələrinin bölmələrinin cavab tədbirləri görməsi nəticəsində Ermənistan ordusunun hücum cəhdinin qarşısı alınıb və Ermənistan Ordusu geri oturdulub.

İyulun 12-dən 13-nə ötən gecədə Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində gərgin anlar davam edib. 3-cü Ordu Korpusunun Qərargah rəisi Polad Həşimovun qatıldığı hərbi toqquşmalarda artilleriya və minaatanların tətbiqi ilə gedən gecə döyüşlərində Azərbaycan Silahlı Qüvvələrinin bölmələrinin atəşi ilə Ermənistan Ordusunun dayaq məntəqəsi, artilleriya qurğuları və müdafiənin dərinliyində yerləşən hərbi nəqliyyat vasitələri, ehtiyatları və canlı qüvvəsi məhv edilib.

Döyüşləri idarə edən general-mayor Polad Həşimov 2020-ci il iyulun 14-də səhər raddələrində Tovuz rayonu istiqamətində tabeliyində olan əsgərlərlə bir yerdə döyüş zamanı ön xətdə şəhid olub. Həmin an onunla birgə olan 3-cü Ordu Kor-

pusunun Artilleriya Qərargahının rəisi İlqar Mirzəyev, mayor Anar Novruzov, mayor Namiq Əhmədov, gizir İlqar Zeynallı, gizir Yaşar Babayev və əsgər Elçin Mustafazadə də şəhid olub.

Bu, sentyabr ayında İkinci Qarabağ müharibəsinin başlanmasına aparan prosesin sürətlənməsində mühüm rol oynadı.

Polad Həşimov Azərbaycan Silahlı Qüvvələrinin hərbi əməliyyatlar zamanı şəhid olan birinci və yeganə general-mayorudur.

İyulun 14-də günorta saatlarında Polad Həşimovun nəşi doğulduğu Qəbələ rayonunun Vəndam qəsəbəsinə gətirilib. Hələ səhər saatlarından vida mərasiminə minlərlə insan Qəbələ şəhərindən Vəndam qəsəbəsinə axın eləmişdi. Doğma yurdunda vida mərasimi baş tutandan sonra Polad Həşimovun nəşi böyüyüb boya-başa çatdığı Sumqayıt şəhərinə yola salınıb. Axşamüstü Polad Həşimovun nəşi minlərlə insanın izdihamı ilə evinə gətirilib. Dəfn mərasimi bir gün sonra baş tutub.

Tovuz döyüşləri zamanı şəhid olan general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyevlə vida mərasimi eyni gündə, iyulun 15-də II Fəxri Xiyabanda baş tutdu. Vida mərasimində Müdafiə naziri Zakir Həsənov, Silahlı Qüvvələrin Baş Qərargah rəisi Nəcməddin Sadıqov, Prezident

Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdir müavini Yaşar Əliyev, Hərbi Hava Qüvvələrinin Komandanı Ramiz Tahirov, Bakı şəhərinin İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, ictimaiyyət nümayəndələri, mərhumun xidmət yoldaşları şəhidlərin ailə üzvlərinə və yaxınlarına başsağlığı verdilər. Daha sonra Azərbaycan Dövlət Himninin səslaları ilə Polad Həşimov və İlqar Mirzəyev hərbi ənənələrə uyğun olaraq yaylım atəşləri altında son mənzilə yola salındı. Dəfn mərasimi zamanı Azərbaycan Prezidenti İlham Əliyev telefon vasitəsilə Polad Həşimov və İlqar Mirzəyevin ailə üzvlərinə başsağlığı verdi.

Polad Həşimov ölümündən sonra Azərbaycan cəmiyyətində fenomenə çevrilən nadir şəxsiyyətlərdən biri oldu.

Ölkəmizdə, xüsusən də Qəbələdə yeni doğulan oğlan uşaqlarına "Polad" adı verilməyə başlandı.

2020-ci ildə "Polad generalımız" və "Polad Həşimov xatirələrdə" kitabları çap olundu. Bəstəkar Faiq Sücəddinov Musa Urudun sözlərinə yazılmış "Paşam, hey!" mahnısını yazdı.

Prezident İlham Əliyev 2020-ci ilin 29 iyulunda Qəbələyə səfəri zamanı general-mayor Polad Həşimovun adının əbədiləşdirilməsi ilə bağlı göstəriş verdi.

2020-ci ilin avqust ayında Qəbələ şəhərində mərkəzi küçələrin birinə Polad Həşimovun adı verilib.

2020-ci il oktyabrın 2-də Türkiyənin Elazığ ilinin Keban ilçəsində küçələrin birinə Polad Həşimovun adı verilib.

2020-ci il oktyabrın 28-də Bursa ilinin Osmanqazi ilçəsində Polad Həşimovun adını daşıyan bağın açılışı olub.

2021-ci ilin yanvar ayında Quba şəhərində mərkəzi küçələrin birinə Polad Həşimovun adı verilib.

2021-ci ilin fevral ayında Sumqayıtın mərkəzi küçələrindən birinə Polad Həşimovun adı verilib.

Ölkəmizin paytaxtında, Xətai rayonunda küçələrdən birinə və təzəcə salınmış parka Azərbaycanın Milli Qəhrəmanı, ordu generalı Polad Həşimovun adı verilib.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və döyüş tapşırıqlarını yerinə yetirən zaman göstərdiyi igidliyə görə Azərbaycan Prezidenti İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən Polad İsrayıl oğlu Həşimova ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adı verilib.



Bu küçəyə Azərbaycanın Milli Qəhrəmanı General-mayor Polad Həşimovun adının verilməsi barədə möhtərəm Prezidentimiz İlham Əliyev göstəriş verib.



General-mayor Polad Həşimov həmkarları arasında



Müdafiə naziri Zakir Həsənov general-mayor ali rütbəsini Polad Həşimova təqdim edir.



Elm və ədəbiyyat nümayəndələrinə "Qəbələ tarixi"ndə kifayət qədər yer verilmişdir. Görkəmli alimlər: Saleh Qazıyev (arxeoloq), Vahid Qəhrəmanov (hüquqşünas), Ümnisə Musabəyova (tibb elmləri doktoru, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi), Yusif Musabəyov (kimya elmləri doktoru), Ələkbər Kərimov (texnika elmləri doktoru, professor), Məcid Mərdanov (kimya elmləri doktoru, professor), Dursun Hüseynov (tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi), Xəlil Əlimirzəyev (tarix elmləri doktoru, professor), Əddin Şakirzadə (fəlsəfə elmləri doktoru, professor), Muxtar Abduyev (torpaq meliorasiyası sahəsi üzrə ilk azərbaycanlı kənd təsərrüfatı elmləri doktoru, professor), Cahangir Qəhrəmanov (görkəmli dilçi alim, filologiya elmləri doktoru, professor), Yadigar Yunusov (tibb elmləri doktoru, professor), Niyazi Kərimov (ilk hərbi dirijor, sənətşünaslıq namizədi), Qara Əhmədov (Azərbaycanda arxeologiya üzrə ilk elmlər doktoru, professor), Musa Məmmədov (iqtisad elmləri doktoru), Dilarə İsmayılzadə (tarix elmləri doktoru), Xalid Əlimirzəyev (filologiya elmləri doktoru, professor), Voroşil Qoasari (görkəmli dilçi alim, filologiya elmləri doktoru, professor), Firidun Haşımzadə (akademik, fizika-riyaziyyat elmləri doktoru, professor), Minirə Qarayeva (ingilis dilinin fonetikası üzrə filologiya elmləri

doktoru, professor), Qaryağdı Səfərəliyev (fizika-riyaziyyat elmləri doktoru, professor), Elxan Kərimov (tibb elmləri doktoru, professor), Vaqif Əhmədov (kimya elmləri doktoru), Natiq Yusifov (ingilis dili üzrə tanınmış alim, professor), Almaz Qaragözova (tibb elmləri doktoru), Əbdülsəid Səfiyev (kimya elmləri doktoru, professor), Baloğlan Səfiyev (filologiya elmləri doktoru), Abid Tahirli (filologiya elmləri doktoru), Danakari Riçard Arami (fəlsəfə elmləri doktoru), Eduard Amayakoviç Qoasari (tibb elmləri doktoru).

Adı çəkilən alimlərdən Cahangir Qəhrəmanov, Xalid Əlimirzəyev, Voroşil Qoasari ilə yaxşı münasibətdə olmuşam. Professor Minirə Qarayeva ilə birgə oxumuşam. Professor Natiq Yusifov tələbəm olub. Filologiya elmləri doktoru Baloğlan Səfiyevlə hazırda AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda birgə çalışırıq. Filologiya elmləri doktoru Abid Tahirli ilə dostluq münasibətindəyik.

İndi əslən Qəbələdən olan Vahid Qəhrəmanov, Ümnisə Musabəyova, Məcid Mərdanov, Muxtar Abduyev, Cahangir Qəhrəmanov kimi görkəmli alimlərin, Niyazi Kərimov, Əşrəf Əlimirzəyev kimi ictimai xadimlərin adları Qəbələ şəhərinin küçələrində yaşayır.

Yuxarıda adı çəkilən, xalq və dövlət qarşısında böyük xidmətləri olan, qürur mənbəyinə çevrilən şəxsiyyətlərin çoxunu şəxsən tanıyırdım. Fəxr edirəm ki, mənə belə insanları görmək, bəziləri ilə təmasda olmaq, dost olmaq qismət olub. Bu böyük şəxsiyyətlərin arasında iki nəfərdən xüsusi söhbət açmaq lazım gəlir. Mən misilsiz alimlər **Muxtar Abduyev** və **Qara Əhmədovu** nəzərdə tuturam. Bu iki görkəmli alim, həm də gözəl şair olublar. Odur ki onları fərqləndirmək vicdan borcumuzdur.

Doğrudur, Qəbələdən Muxtar Abduyev kimi çox alimlər çıxıb. Onlar da gələcəkdə akademik səviyyəsinə yüksələn aspirantlar yetişdiriblər. Əvəzolunmaz pedaqoq kimi gəncləri həvəsləndirərək elm aləminə gətiriblər. Bununla belə Muxtar Abduyevi fərqləndirən bir cəhət qırmızı xətt kimi keçir. Bu onun şairliyidir.

Alim olmaq üçün gecə-gündüz çalışsan, az-çox təfəkkürün və iradən olsa, axırda, pis-yaxşı, məqsədinə çatırsan. Şairlik isə ilahi vergidir. Nakam şairimiz Mikayıl Müşfiq təsadüfi demirdi: "Şairə ilhamdan mayə gərəkdir". Muxtar müəllimdə də, Qara müəllimdə də şairlik təbi, şairlik ilhamı vardı. Onlar əsl alim, əsl şair idilər.

Yaxşı yadımdadır, bütün keçmiş SSRİ məkanında tanınan, kənd təsərrüfatı üzrə ilk azərbaycanlı elm-

lər doktoru, torpaqşünas alimimiz və pedaqoqumuz Muxtar Abduyevin 85 illik yubileyi AMEA-nın möhtəşəm "Dəyirmi zal"ında təntənəli şəkildə qeyd olunurdu (08.06.2012). Alimin təkrar çap olunan elmi əsərlərini, daha doğrusu, altı monoqrafiyasını yubiley iştirakçılarına hədiyyə edirdilər.

Alimin monoqrafiyalarının hamısı sağlığında, sovet dönəmində çap olunub. Bu, tədqiqatçının əsərlərinin orijinallığından, onun elm aləminə gətirdiyi yeniliklərdən xəbər verirdi. Maraqlıdır ki, altı monoqrafiyanın üçü rus dilində, üçü Azərbaycan dilində çap olunmuşdu. Qısa ömür payında bu qədər monoqrafiyaya imza atmaq hər alimə qismət olmur. Məlumdur ki, kitab yazmaq, məqalələri toplu halında çap etdirmək olar, ancaq monoqrafiya yazmağın çətinliklərini elm aləmi yaxşı bilir. Bax buna görədir ki, professor Muxtar Abduyev Sovet dönəmində nəinki Azərbaycanda, eləcə də Sovet Birliyi ölkələrində yaxşı tanınır və yaradıcılığı yüksək qiymətləndirilirdi. Alimin əsərləri onun elm aləmində nüfuzundan xəbər verir.

Alimin monoqrafiyaları 2003 və 2012-ci illərdə Azərbaycan dilində yenidən çap olunub.

Akademik Rafael Hüseynovun sanballı "Ön söz" yazdığı "Muxtar Abduyev haqqında xatirələr" kitabından da göründüyü kimi, o, böyük nüfuza malik alimlərdən olmuşdur. Bunu akademiklər

Budaq Budaqov, Vahid Hacıyev, Qərib Məmmədov, Musa Musayev, Asəf Nadirov, Məhərrəm Babayev, Teymur Bünyadov, Abel Məhərrəmov, aspirantları olmuş AMEA-nın müxbir üzvü Amin İsmayılov, professor Nadir Mikayılov və başqaları, eləcə də professorlar Müseyib Müseyibov, Şahalı Həsənov, Əlövsət Gülüş oğlu Quliyev, Tofiq Mikayılov, Zeynalabdin Mövsümov, Paşa Zamanov, Ağamir Həşimov, Eyvaz Eyvazov, Sara Məmmədova, Füzuli Axundov və bir çox başqalarının bu böyük alimə həsr etdikləri yazılarından da görmək olur. Məqalə müəlliflərinin rəyindən o qənaətə gəlmək olur ki, Azərbaycan torpaqşünaslıq elmində "Muxtar Abduyev mərhələsi" deyilən mərhələ vardır. Bu fikir alimin 85 illik yubileyində məruzə və çıxışlarda da səslənirdi.

Yaxşı yadımdadır, yubiley iştirakçılarına alimin kitablarını bağışlayırdılar. Kitablar arasında onun "Dağlarım mənim" adlı şeirlər toplusu da vardı.

Kitabı vərəqləyəndə gördüm ki, şeirlər milli ruhda yazılmış poeziya nümunələridir. Şair qoşma və gəraylı üstündə insanı haldan-hala salan şeirlər yazmışdır:

Kim vurulmaz bu dağlara?
Sırası var qatar-qatar.
Şiş zirvəli yamaclarda
Buzlaqları könül açar.

Şairin poeziyasında təbiət təsviri daha güclüdür.

Bunu şairin altı bənddən ibarət "Durca yaylağı" şeirindən daha aydın görmək olur. Şair poeziyanın dili ilə unudulmaz lövhə yaratmışdır.

Quşqonmaz dağların düzən yeridir,
Qartalın dincəlib, süzən yeridir,
Maralın, cüyürün gəzən yeridir,
Möhtəşəm qamətli Durca yaylağı.

Şair səkkiz bənddən ibarət "Mənim kəndimin" adlı şeirində yenidən Durca yaylağının gözəlliklərindən ilham alaraq onu vəsf etmişdir:

Uzaqdan görünən qarlı Şahdağı
Sanki qibtə edir Bazardüzünə.
Çiçəkli, çəmənli Durca yaylağı
Yoldan keçənləri çəkir özünə.

Şeiri oxuyanda adam özünü heç vaxt görmədiyi Durca yaylaqlarında hiss edir. Budur poeziyanın qüdrəti, budur onu yaradan şairin xoşbəxtliyi!

Şairin hər adama qismət olmayan könül toxluğu, iddiasız və təmənnasız yaşamaq bacarığı, şan-şöhrətə can atmamağı, anasına sonsuz məhəbbəti, sanki poeziyasının misralarına hopub:

Yanmadım dünyada vara, dövlətə,
Çoxunu məst edən şana-şöhrətə,
Eşqə, məhəbbətə, nə də ülfətə,
Bircə sənə yandım, sənə, can ana!

Şairin "Necə çox idi" şeiri ibrətamizliyi və həyat həqiqətlərini bariz şəkildə göstərməsi ilə seçilir:

Sevgilim! Yadındamı bahar çağında,
Bülbüllər oxuyub, güllər açanda,
Eşqimiz parlayıb pərvazlananda
Bizə qibtə edən necə çox idi.

Sağına-soluna hey dolaşanda,
Eşqinlə dil açıb sən danışanda,
Sənin vüsalına şeir qoşanda,
Bizimlə sevinən necə çox idi.

On üç bənddən ibarət bu şeiri oxuyanda adam haldan-hala düşür. Bu səbəbsiz deyildir. Bu xoşbəxt gəlinin bədxah rəfiqəsi, onun xoşbəxtliyinə paxıllıq edir, gözü götürmür. Ailə dağılana qədər rahatlıq tapmır:

Qısqanclıq qəlbinə hakim olanda,
Sənə sadiqliyi yalan sananda,
Evimizdə tez-tez dava salanda,
Mənim təəssüfüm necə çox idi.

Sən məni özünə xain sananda,
Qəlbimi neştər tək parçalayanda,
Nəhayət, mənimlə sən ayrılanda,
Bizə heyifsilənən necə çox idi.

Görkəmli alimin ürək pıçıltılarını içinə alan "Dağlarım mənim" şeirlər toplusu üç bölmədən ibarətdir: "Kim vurulmaz bu dağlara", "Keçən ömür" və "Yanar, heç vaxt sönməz qəlbim".

Muxtar Abduyevin şeirlərindən kitabımın "Folklor" bölümündə də söz açmışam. Alim-şairin tədqiqata cəlb etdiyimiz poeziya nümunələrindən başqa da bir-birindən maraqlı bir çox şeirləri vardır. "Yeni il", "Ağlayar", "Ana məzarı", "Gözəl", "Keçən ömür", "Payız gəlir", "Nə gərək", "İki sevgi", "Yanar, heç vaxt sönməz qəlbim", "Pərvanə", "İki bölgü", "Xeyirsiz" və s.

Şairin "Biblioqrafiyası"nda bədii yaradıcılığına yüksək qiymət verilib: "Muxtar Abduyevin Azərbaycan təbiətinin gözəlliklərinə, Azərbaycan torpağının zənginliklərinə həsr olunan şeirləri əsl poeziya nümunələri kimi onun bu sahədəki istedadının və vətənə sonsuz sevgisinin sübutudur".

Çox təəssüf ki, elmi və ədəbi fəaliyyətinin çiçəkləndiyi bir vaxtda böyük alim 16 iyun 1979-cu ildə 53 yaşında cismani cəhətdən bizdən ayrıldı.

Sevimli şairimiz Səməd Vurğunun dahi Üzeyir bəyin ölümünə həsr etdiyi şeir sanki Muxtar müəllimin boyuna biçilmişdi:

Ölüm sevinməsin qoy... ömrünü vermir bada,
El qədrini canından daha əziz bilənlər.
Şirin bir xatirə tək qalacaqdır dünyada
Sevərək yaşayanlar, sevilərək ölənlər.

Görkəmli alim və şair Muxtar Abduyev sevərək yaşadı, sevilərək əbədiyyətə qovuşdu.

Haqqında söhbət açmaq istədiyim ikinci alim-şair arxeologiya elmimizin inkişafında misilsiz xidmətləri olan, arxeologiya üzrə Azərbaycanda ilk elmlər doktoru, AMEA-nın müxbir üzvü, professor Qara Əhmədovdur.

Dəniz suyunun duzlu olduğunu bilmək üçün bir damcı kifayət etdiyi kimi, bircə şeirdən onun müəllifinin şair olub-olmadığı bilinir. Alim-şair Qara Əhmədovun üç bənddən ibarət bircə qoşmasını təqdim edirik. Bu şeirdən gəldiyim qənaət odur ki, əsl poeziyada həyat həqiqətdə olduğundan daha həyati olur:

Həyat fəlsəfədir, mənası dərin,
Həyatın qoynunda min karvan olur.
Karvanda yol gedən müsafirlərin
Kimi rəncbər olur, kimi xan olur.

Həyat güzgü kimi görünür gözə,
Fəqət söyləməyir sirrini bizə.
Gecəni nur edir, verir gündüzə,
Ömrü gündüzün də tez tamam olur.

Həyat simfoniyadır, ahəngdar axır,
Onun da səsləri gah enir, qalxır.
Gah vulkan püskürür, ildırım çaxır,
Gah həyat ana tək mehriban olur.

Təəssüf ki, professorun başqa şeirlərini əldə edə bilmədik.

Qəbələ rayonundan qələm sahibləri az çıxmayıb. Onlardan yazıçı-jurnalist Əşrəf Hacıyev, Şərif Tahirli, Ədalət Tahirzadə, Ramin Məmmədov, teatrşünas və ədəbiyyatçı Şirin Abdullayevin adlarını çəkməkdə məmnunluq duyuram.

"Qəbələ tarixi" əsərində Qəbələdə səhiyyənin inkişafından bəhs edən bölüm vardır. Qəbələdə Mərkəzi rayon xəstəxanası fəaliyyət göstərir. Xəstəxanada terapiya, cərrahiyyə, reanimasiya, infeksiya, pediatriya şöbələri vardır. Uşaq xəstəxanası, poliklinika və uşaq poliklinikası gecə-gündüz əhalinin xidmətindədir.

2008-ci il sentyabrın 20-də Prezident İlham Əliyev Qəbələ Müalicə-Diaqnostika Mərkəzini təntənəli şəkildə açdı. Altımərtəbəli, yüksək standartlara malik Mərkəz müasir avadanlıqlarla təchiz olunaraq xalqın istifadəsinə verilmişdir. Burada şüa diaqnostikası, cərrahiyyə, reanimasiya, poliklinika, dializ şöbələri fəaliyyət göstərir. Şöbələr ən müasir avadanlıqlarla təmin olunmuşdur.

Qəbələnin 36 kəndində tibb məntəqələri fəaliyyət göstərir. Bundan başqa, Qəbələ Rayon Gigiyena və Epidemiologiya Mərkəzi rayon əhalisi arasında yoluxucu xəstəliklərə qarşı profilaktik tədbirlər aparır. Bütün bunlar dövlət qayğısı sayəsində mümkün olmuşdur.

"Qəbələ tarixi"ndə, həqiqətən də, tarixə düşəcək bir məsələdən də söhbət gedir. Məlum olur ki, Koreya Kyung Hee Universitetinin Şərq-Qərb Yeni Tibb Mərkəzi SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət

Mübadiləsi Assosiasiyasının təşkilatçılığı, Azərbaycan Mədəniyyət Fondu və Azərbaycan Taekvondo Federasiyasının dəstəyi ilə 2007-ci ilin 21–23 yanvar tarixində məcburi köçkünlərin məskunlaşdığı rayonlarda pulsuz ictimai tibbi xidmətin göstərilməsi layihəsini həyata keçirmişdir. Bu məqsədlə Koreyadan Azərbaycana 44 nəfərdən ibarət yüksəkixtisaslı mütəxəssislər dəvət olunmuşdu. Aksiya Qəbələ rayonunda keçirilmiş, üç gün ərzində 790 xəstəyə tibbi yardım göstərilmişdir. Bu aksiya dövlətlərarası əlaqələr baxımından böyük əhəmiyyət kəsb edən hadisə kimi qiymətləndirilmişdir.

Qəbələ beynəlxalq əhəmiyyətli tədbirləri həyata keçirən mərkəzdir.

Heydər Əliyev Fondunun həyata keçirdiyi **Beynəlxalq Musiqi Festivalları** deyilənə əyani sübutdur.

Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın milli-mənəvi dəyərlərimizin qorunması, inkişafı və Azərbaycan mədəniyyətinin dünyada tanıdılması və geniş təbliği ilə bağlı fəaliyyəti hər cür tərifə layiqdir. Bu təbiidir. Dəfələrlə xüsusi vurğulanmışdır ki, Mehriban xanım mədəni irsimizin təbliğinə, Azərbaycanın Dünya Birliyində mövqeyinin möhkəmlənməsinə, nüfuzunun artmasına xidmət edir. Şərq, o cümlədən də Azərbaycan qadınının dünyada formalaşmış imicini öz fəaliyyəti ilə alt-üst edən Mehriban xanımın ən böyük xidmətlərindən biri də Qəbələdə Beynəlxalq Musiqi Festivallarının keçirilməsi ideyasının



Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva Qəbələdə

irəli sürülməsi və onu gerçəkləşdirməsidir. Prezident İlham Əliyevin iştirakçısı olduğu II Beynəlxalq Musiqi Festivalının açılışında (20 iyul 2010) Mehriban xanım çıxış edərək qeyd etdi ki, Beynəlxalq Qəbələ Musiqi Festivalı davamlı olaraq keçiriləcək.

Belə də oldu. Bu festival mütəmadi olaraq keçirilir və mədəni irsimizin təbliği Azərbaycanın Dünya Birliyində mövqeyini get-gedə möhkəmləndirir. Bu baxımdan görkəmli şairimiz Hüseyn Cavidin misraları yerinə düşür:

Turana qılıncdan daha kəskin ulu qüvvət,
Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət.

Qəbələdə həyata keçirilən əlamətdar tədbirlərdən biri də **Azərbaycan Mədəniyyət Fondu** və **SEBA Assosiasiyasının həyata keçirdiyi Beynəlxalq İncəsənət Sərgiləridir**.

2010-cu ilin 18–19 dekabrından başlayaraq dörd dəfə Qəbələ Beynəlxalq İncəsənət Sərgisi keçirilmişdir. Ulu öndər Heydər Əliyevin 90 illik yubileyinə həsr edilən III Qəbələ Beynəlxalq İncəsənət Sərgisində (5–19 may 2013-cü il) dünyanın 23 ölkəsini təmsil edən 165 rəssamın 284 əsəri nümayiş etdirilmişdir.

Sərgidə akademik Tahir Salahov başda olmaqla dünyanın tanınmış və məşhur rəssamları ya iştirak etmiş, ya da əsərləri nümayiş etdirilmişdir.

Qəlbi qurub-yaratmaq eşqilə döyünən möhtərəm Prezidentimiz İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və qayğısı sayəsində son illərdə, daha doğrusu, XXI əsrin əvvəllərində Qəbələ inanılmaz inkişafa qədəm qoymuşdur. Prezidentimiz və Birinci vitse-prezidentin ideyaları əsasında Qəbələdə həyata keçirilən möhtəşəm layihələrin uğur qazanmasına yardımçı olan SEBA Assosiasiyasının sədri Ruhəngiz xanım Heydərovanın xidmətləri xüsusi qeyd edilməlidir.



Prezident İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva və UNESCO-nun Baş direktoru xanım İrina Bokovanın Qəbələ II Beynəlxalq Musiqi Festivalının rəsmi açılış mərasimində iştirakı, 30 iyul 2010-cu il



Qəbələ II Beynəlxalq Musiqi Festivalında UNESCO-nun Baş direktoru İrina Bokova UNESCO-nun "Qızıl Motsart" medalını Mehriban Əliyevaya təqdim edir, 30 iyul 2010-cu il



Koreyalı rəssam Lee Sang Yong Azərbaycan Respublikasının Birinci xanımı Mehriban Əliyeva üçün əsərini hədiyyə edərkən. Soldan sağa: Koreyalı rəssam Lee Sang Yong, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, SEBA Assosiasiyasının sədri Ruhəngiz Heydərova, Xalq rəssamı, akademik Ömər Eldarov, Xalq rəssamı Fərhad Xəlilov Qəbələ I Beynəlxalq Rəsm Sərgisinin açılış mərasimində. 18 dekabr 2010-cu il



Qəbələ III Beynəlxalq İncəsənət Sərgisinin rəsmi açılış mərasimi, 5 may 2013-cü il

Qəbələ, eyni zamanda siyasi mərkəzə çevrilib. Dövlət başçıları bu şəhərdə beynəlxalq əhəmiyyətli yığıncaqlar keçirir, protokollar, sazişlər imzalayırlar. Diplomatik korpusun nümayəndələri və səfirlərlə görüşlər keçirilir. Qonşu ölkələrin təhsil, müdafiə, mədəniyyət nazirləri qarşılıqlı əlaqələr barədə məsləhətləşmələr aparırlar. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sammitləri keçirilir.



Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısı, 16 avqust 2013-cü il



Belə ola həmişə!



Azərbaycan və Türkiyənin Yüksəksəviyyəli Strateji Əməkdaşlıq Şurasının ikinci iclası, 11 sentyabr 2012-ci il



Prezident İlham Əliyev və Prezident Aleksandr Lukaşenkonun iştirakı ilə Qəbələ rayonu və Qrodno şəhəri arasında regionlararası əlaqələrin qurulması haqqında sazişin imzalanma mərasimi, 29 noyabr 2016-cı il



Prezident İlham Əliyev ATƏT-ə üzv ölkələrin səfirləri ilə görüşdə. Qəbələ, 10 sentyabr 2012-ci il

Qəbələ Qafqazın incisidir.

HEYDƏR ƏLİYEV



Dünya tarixində Qəbələnin özünəməxsus yeri vardır.

İLHAM ƏLİYEV

II FƏSİL
QƏBƏLƏNİN ETNOQRAFİYA DÜNYASI

Etnoqrafiya elmi xalqın həyatının bütün sahələrini öyrənir və folklorla bərabər, bəlkə də, yeganə elm sahələrindəndir ki, insana beşikdən qəbrədək yol yoldaşı olur. Bu elmin adı qədim yunanlarla bağlıdır. "Etnos" yunan dilində "xalq", "qrafo" yazıram, təsvir edirəm deməkdir. "Qəbələ etnoqrafiyası"nı yazmaq Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşlarına qismət olmuşdur.

Mənə isə bu kitab haqqında və ümumiyyətlə, etnoqrafiya elmi barədə yazmaq, təəssüratımı bölüşmək qismət olmuşdur. Etnoqrafiya haqqında yazmağa mənəvi haqqım olduğunu düşünərək bu işə girişdim. Nə gizlədim, etnoqrafiyaya məhəbbət məndə cavan yaşlarımdan baş qaldırmışdı. "Altı il Dəclə-Fərat sahillərində" kitabımda yer alan "Göl ərəbləri", "Adət bənzərsiz, həyat bənzərsiz", "Qoşulub qaçmaq", "Adətim mənim, həyatım mənim", "Ailə, nikah, toy adətlərindən" və s. bütövlükdə etnoqrafiyadan bəhs edir. "İraq-türkman folkloru" kitabımın etnoqrafiya və folklorşünaslığın qovşağında qərar tutan bütöv bir fəsli: "Xalq mərasim və nəğmələri", "Dini bayram və nəğmələri", "Toy

mərasim və nəğmələri", "Yas mərasim və nəğmələri" və s. etnoqrafiyaya həsr olunmuşdur.

1983-cü ildə ABŞ-da ikiaylıq ixtisasartırma kurslarında olarkən ABŞ alimi Sula Benetin ingiliscə "Necə yaşayasan, yüzü haqlayasan" və Aleksandr Dümanın "Qafqaza səyahət" kitablarını əldə etdim, başdan-ayağa etnoqrafiyadan bəhs edən 1-ci kitabı ingilis dilindən tərcümə etdim. İkinci kitabı Həmid Abbasovla ingilis və fransız dilindən tərcümə edərək "Yazıçı" nəşriyyatında çap etdirdik. Qafqazda uzunömürlülərdən bəhs edən "Necə yaşayasan, yüzü haqlayasan" kitabı haqda mətbuatda akademik Teymur Bünyadovun "Uzun ömrün sirri" adlı müsbət rəyi çıxdı (Bax: "Ədəbiyyat və incəsənət" qəzeti, 03.08.1990).

Sonralar Teymur müəllim "Alim dünyasına bir baxış" adlı məqaləsində "Altı il Dəclə-Fərat sahillərində", Aleksandr Dümanın "Qafqaz səfəri" və folklora həsr etdiyim kitablardan söz açdı ("Azərbaycan" qəzeti, 01.10.2009).

On beş ildən artıqdır ki, Arxeologiya və Etnoqrafiya İnstitutu ilə əməkdaşlıq edirəm. Məhəbbət Paşayevanın "Azərbaycanlıların ailə mərasimlərində etnik ənənələr" kitabına "Bənzərsiz etnoslar haqqında bənzərsiz əsər" adlı ön söz yazmışam (Bakı, "Azərnəşr", 2008). İlhamə Məmmədovanın 500 səhifəlik fundamental "Təbriz şəhərinin maddi mə-

dəniyyəti (tarixi-etnoqrafik tədqiqat)" əsəri barədə mətbuatda müsbət rəylə çıxış etmişəm. Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları Solmaz Məhərrəmova və Məhəbbət Paşayevanın doktorluq, Rəna Rəcəbovanın namizədlik dissertasiyaları üzrə opponent olmuşam.

Bütün bunlar bir yana, məlumdur ki, etnoqrafiya və folklorşünaslıq elm sahələri arasındakı doğmalıq o qədər yaxındır ki, folklorşünasların tədqiqatının bir sıra mühüm sahələri eyni dərəcədə etnoqrafların araşdırma obyektidir. Nəzərə çarpan yeganə fərq odur ki, etnoqrafiya elmi xalqın həyatının bütün sahələrini, folklorşünaslıq isə mənəvi dünyasını daha çox öyrənir və dərindən araşdırır.

Bunlar mənə bir folklorşünas kimi mənəvi haqq verib ki, bu mötəbər elm ocağının hasilə yetirdiyi fundamental "Qəbələ etnoqrafiyası"ndan söz açım...

Müəlliflər qrupu başda akademik, Əməkdar elm xadimi Teymur Bünyadov olmaqla, tarix elmləri doktoru, Əməkdar mədəniyyət işçisi Solmaz Məhərrəmova, tarix üzrə fəlsəfə doktorları Bəhmən Əliyev və Əsəd Əliyev usanmadan "Qəbələ etnoqrafiyası" üzərində əzmlə çalışmış, ortaya bənzərsiz bir əsər qoymuşlar. Əsərə görkəmli alimlər – AMEA-nın müxbir üzvü Hacı Qadir Qədirzadə və tarix elmləri doktoru, professor Şirin Bünyadova müsbət rəy vermişlər.

"Qəbələ etnoqrafiyası" kitabının uğurlu alınmasını şərtləndirən bir amil də vardır. Akademik Teymur Bünyadov bu sahəni dərindən bilən və ömrünü bu çox maraqlı elm sahəsinə həsr edən alimlərimizdəndir.

Əsər poetik bir dildə yazılmışdır.

Layihənin ideya müəllifi "Qəbələ Etnoqrafik Ekspedisiyası"na maddi-mənəvi dəstəyini əsirgəməyən SEBA-nın sədri, biologiya üzrə fəlsəfə doktoru Ruhəngiz xanım Heydərovanın təşkilatçılığı və alimlərimizin gərgin əməyi sayəsində "Qəbələ etnoqrafiyası" hasilə yetmiş, zəngin illüstrasiyalarla 10 min tirajla çap olunmuş, geniş oxucu kütləsinə təqdim edilmişdir.

Nə yaxşı ki, milli-mənəvi dəyərlərimizi layiqincə qiymətləndirən, qədrini bilən, maddi-mənəvi dəstəyini əsirgəməyən vətənpərvər insanlarımız vardır. Əks təqdirdə, "Qəbələ etnoqrafiyası"nın taleyi professor Zümrüd Dadaşzadənin: **"Dəyərli elmi işlər, sanki bulanıq sularda itib-batır"** – deyə həyəcan təbili çaldığı elmi işlərin taleyinə bənzəyərdi.

"Qəbələ etnoqrafiyası"nda qədim Qəbələnin qısaca tarixi, təsərrüfat həyatı, sənətkarlıq sahələri, ailə və ailə məişəti, maddi-mənəvi mədəniyyəti, etnik mənzərəsi və s. arxeoloji mənbələr, arxiv sənədləri, mədəniyyət tarixi, sənətşünaslıq, tətbiqi

sənət, memarlıq sahələrinə həsr olunmuş yazılı abidələr, habelə yerli informatorlardan toplanmış məlumatlar əsasında ilk dəfədir tədqiq edilir.

Çöl materiallarının toplanılmasında fəal iştirak edən 140 nəfərdən artıq, müxtəlif yaş qrupunu təmsil edən yerli sakinlərin siyahısı, yaşları və anadan olduğu yer "Qəbələ etnoqrafiyası"nda öz əksini tapır. Bu, kitabda söhbət açılan etnoqrafik faktların dəqiqliyinə inamı artırır.

Məlumdur ki, etnoqrafiya elmi arxeologiya, ölkəşünaslıq, mədəniyyət tarixi, sənətşünaslıq, folklorşünaslıq, dilçilik, coğrafiya və s. ilə sıx əlaqəlidir. Onlarla qoşa yaranıb və qoşa addımlayır. Odur ki, bu elmlərin qarşılıqlı öyrənilməsi xalqın ictimai həyatını, maddi-mənəvi mədəniyyətini, adət-ənənələrini, ruhunu, məişətini, şifahi ədəbiyyatını hərtərəfli öyrənməkdə əvəzsiz xəzinəyə çevrilir.

Nəfis şəkildə buraxılan "Qəbələ etnoqrafiyası"nın əyaniliyini daha da artıran, onu daha da oxunaqlı edən zəngin illüstrasiyalarıdır.

Böyükhəcmli, 360 səhifəni əhatə edən "Qəbələ etnoqrafiyası" altı geniş və maraqlı fəsildən ibarətdir.

"Qəbələnin təbii-coğrafi şəraiti və əhalisi" adlanan fəsildə Qəbələnin "Coğrafi mövqeyi", "Relyefi", "İqlimi", "Torpaq örtüyü və torpaq fondu", "Bitki örtüyü", "Heyvanat aləmi", "Qoruq və milli parklar", "Təbii ehtiyatlar", "Çaylar və buzlaqlar",

"Şələlələr", "Göllər", "Bulaqlar", "Əhali" kimi yarımbaşlıqlar yer alır.

Əsrlərboyu qanlı döyüşlər meydanına çevrilən bu diyarın son vaxtlar tale üzünə gülməyə başlamışdır. Bölgənin coğrafi mövqeyi və relyefi sürətli inkişafa zəmin yaratmışdır. Qəbələ rayonu şimaldan Böyük Qafqazın Çaldaş silsiləsi boyunca Dağıstan Respublikası (13 km), Şahdağ silsiləsi ilə Qusar (16.8 km), şimal-şərqdən Salavat aşırımı istiqamətində Quba (14.4 km), cənubdan Axar-Baxar silsiləsi ilə Göyçay (14.1 km) və Ağdaş (13.6 km), şərqdən Göyçay çayı vadisi ilə İsmayıllı (79.8 km), qərbdən Türyançay vadisi boyunca isə Şəki (2.7 km) və Oğuz rayonları (59.8 km) ilə həmsərhəddir.

Relyefinə görə Qəbələ rayonu dağlıq, düzənlik və yayla vilayətlərinə ayrılır. Böyük Qafqazın ən hündür zirvələri – həmişə adlarını fəxrlə çəkdiyimiz Bazardüzü (4466 m), Tufandağ (4206 m), Bazaryurd (4126 m), Şahdağ (4243 m) Qəbələnin şimal sərhədi boyunca yerləşir.

Ortaillik temperatur cənubda +10-12°C, şimalda isə -20°C-dir. Qəbələ rayonunda Quşlar, Kürd, Bayramkoxalı kəndlərində yay vaxtı temperatur +40°C-yə çatır. Bazardüzü dağının zirvəsində qışın ən şaxtalı günlərində temperatur -50°C-yə qədər aşağı düşür.

Relyef və iqlim şəraitinin rəngarəngliyi torpaq tiplərinin zənginliyinə gətirib çıxarmışdır. Qəbələ

rayonunda 7 torpaq tipinə təsadüf edilir: **dağ torpaqları, düzən torpaqları, dağ-çəmən torpaqları, qəhvəyi-dağ meşə torpaqları, qonur dağ-meşə torpaqları, şabalıdı və açıq-şabalıdı torpaqlar**. Hər torpaq növünün də özünəməxsusluğu vardır. Məsələn, qonur meşə torpaqları fıstıq, vələs və cökə meşələri, qəhvəyi və qonur dağ-meşə torpaqları bağçılıq, xüsusən meyvəçilik üçün əlverişlidir.

Qəbələ rayonunda dağların, düzənlərin, meşələrin və yaylaların çoxluğu – heyvanlar və quşlar üçün münbit şərait yaratmışdır. Burada dağ kəli, dağ keçisi, maral, cüyür, ayı, qaban, canavar, vaşaq, meşəpişiyi, tülkü, çaqqal, dovşan, kirpi kimi heyvanlar, qırqovul, kəklik, turac, soltantoyuğu, çöl göyərçini, qartal, qarğa, hacıleylək, qızılqaz, ördək və s. quşlar məskən salmışlar. Burada müxtəlif növ sürünənlər, o cümlədən yaylalarda güclü zəhərə malik Tosik gürzəsi də az deyildir.

Qəbələ rayonunun xeyli hissəsi dağlıq ərazilər olduğu üçün rayon ərazisində xeyli sayda bolsulu çaylar vardır. Çayları yeraltı, yağış və qar suları qidalandırır. Türyançay, Qaraçay, Tikanlıçay, Bumçay, Həmzəliçay, Ağçay, Bazarçay, Vəndam və Dəmiraparan çaylar gur çaylardır.

Qəbələ buzlaqları ilə də məşhurdur. Böyük Qafqazın Azərbaycan ərazisində olan dağ buzlaqlarının hamısı, demək olar ki, Qəbələ ərazisindədir. Ba-

zardüzü, Bazaryurd, Tufandağ, Şahdağ zirvələrində buzlaqlar vardır. Dağ buzlaqları Qaraçay, Tikanlıçay, Bumçay, Dəmiraparan və Vəndam çaylarını qidalandırır.

Maraqlıdır ki, dağlıq ərazilərdə ona qədər şəlalə də vardır. Onlardan ikisi – Mucuq (Muçuqçazaq) və Yeddi gözəl şəlalələri məşhurdur. Dəmiraparan çayı üzərində yerləşən Mucuq, hündürlüyü 60 m olan Afurca şəlaləsindən sonra (Quba) ikinci ən hündür (50 m) şəlalədir.

Qəbələ rayonu ərazisində dərinliyi 4 metrdən 24 metrə qədər olan 10-a qədər göl vardır: Tufangöl, İsmayıl bəy Qutqaşınlı gölü, Küləkgöl, Qoturgöl, Nohurgöl və s. Qəbələ bolsulu bulaqları ilə də məşhurdur.

Maraqlıdır ki, Böyük Qafqazın şirin su ehtiyatlarının 13%-i Qəbələ rayonu ərazisində formalaşır.

Bu, imkan vermişdir ki, Prezident İlham Əliyevin 25 avqust 2005-ci il tarixli Sərəncamına əsasən, ölkəmizin paytaxtı Bakı şəhərini içməli su ilə daha yaxşı təmin etmək üçün Oğuz-Qəbələ-Bakı su kəməri tikilsin.

Tarixi əhəmiyyəti olan bu su kəmərinin açılışı 28 dekabr 2010-cu ildə Prezidentin iştirakı ilə baş tutdu.

Qəbələnin əhalisi. 2017-ci ilin yanvar göstəricilərinə görə Qəbələ rayonunun əhalisinin ümumi sayı

104.366 nəfər təşkil edir. Əhalinin 78.66%-i azərbaycanlılar, 17.11%-i ləzgilər və avarlar, 3.95%-i udilər, 0.15%-i Ahıska türkləri, 0.13%-i rus, tatar, ukraynalılar, talışlar, eləcə də başqa xalqların nümayəndələrindən ibarətdir.

Burada vacib bir məsələdən – udi və udin terminlərindən söz açmaq istərdik. Alimlərimiz tədqiqat apararaq bu qənaətə gəlmişlər ki, udilər qədim Albaniyada yaşamış utilərin varisləridir. Aleksandr Düma da "Qafqaz səfəri" əsərində "udi" terminindən söz açır. Yazıçının səhər yeməyindən sonra nahara qədər udi əsilli məktəb müəllimi Georgi Bejanovla söhbətləri əsnasında məlum olub ki, tək halda onlara **udi**, cəm halda isə **udyox** deyirlər.

Lakin udi əsilli bəzi alimlər, ziyalılar və qələm sahibləri "udin" terminə üstünlük verirlər. Maraqlıdır ki, 1951-ci ildə Nic kəndində anadan olan istedadlı və tanınmış şair Yaşa Mandjerini "Udin" təxəllüsünü götürmüşdür.

Nicdə anadan olan alban və udi dilləri üzrə görkəmli mütəxəssis, filologiya elmləri doktoru Voroşil bütün əsərlərində "udin" terminindən istifadə etmişdir. Məsələn:

"Udin dilinin Nic dialekti", "Udin dilində qohumluq terminləri", "Alban tarixində udin sözləri", "Azərbaycan və udin dillərinin qarşılıqlı əlaqəsinə dair", "Udincə-azərbaycanca-rusca lüğət" (Bakı, 1974) və s.

Xalq arasında "udin" termininin işlənməsi də faktdır. Deyilənləri nəzərə alaraq, eyni hüquqa malik hər iki termini elmi dövriyyəyə daxil etmək olar.

Qafqaz dilləri ailəsinə daxil olan udi dilinin iki dialekti – Nic və Oğuz dialektləri mövcuddur. Udilərin ən iri yaşayış məntəqəsi Nic kəndidir. Onlar, eyni zamanda Oğuz rayonunda da yaşayırlar. Sovet sistemi çökənə qədər udilər Tovuz rayonunun Girzan kəndində də yaşayır və öz dillərini qoruyurdular.

Mütəxəssislərin qənaətinə görə, Qəbələ şəhərində qədim dövrlərdə və Orta əsrlərdə təxminən 20–40 min arası insan yaşaya bilərdi. Bu rəqəmi təsdiqləyə biləcək, Qafqaz Albaniyası dövlətinin əhalisinin sayı barədə daha dolğun təsəvvür yaradan fakt vardır. Bu fakt, eyni zamanda qədim Qafqaz Albaniyası dövlətinin təxmini əhalisinin sayını indiki Qəbələ rayonu əhalisinin sayı ilə müqayisə etmək şansı yaradır.

Məsələ burasındadır ki, yeni eradan əvvəl I əsrin 60-cı illərində Roma sərkərdəsi Qney Pompeyin albanlara hücumu zamanı Albaniya hökmdarı Oroys və qardaşı Kozis romalılara qarşı 60000 piyada və 22000 süvaridən ibarət böyük qoşun çıxarmışdı. Bu qədər qoşunu olan ölkənin əhalisi, hər halda, qoşunun sayından çox olmalı idi.

II fəsil **"Kənd təsərrüfatı"** adlanır. Kəndli balası olduğum, kənddə böyüdüyüm üçün bu fəsil mənə

daha doğma gəldi. Yaddaşımı təzələdi. Burada "Əkinçilik", "Çəltikçilik", "İpəkçilik", "Bağçılıq və bostançılıq", "Üzümçülük", "Tütünçülük", "Suvarma", "Heyvandarlıq", "Maldarlıq", "Atçılıq", "Quşçuluq", "Arıçılıq", "Ovçuluq, balıqçılıq" və s. tədqiqat obyektinə çevrilib. "Çəltikçilik", "Arıçılıq", "Tütünçülük" və "Balıqçılıq"dan başqa, yerdə qalan bütün fəaliyyət növlərini gözümlə görmüşəm. Yaxşı yadımdadır, 1947-ci ildə kəndimizdən iki ilxıçı "Sosialist Əməyi Qəhrəmanı" adına layiq görülmüşdü. "Qəbələ etnoqrafiyası"nın "Kənd təsərrüfatı" fəslinin hər səhifəsi məni ağuşuna alıb acılı-şirinli uşaqlıq illərimə apardı.

Qəbələnin təbii şəraiti, iqlimi, məhsuldar torpağı, gur çayları, geniş suvarma sistemləri qədim zamanlardan burada təsərrüfatın müxtəlif sahələrində, o cümlədən əkinçilik, taxılçılıq, bağçılıq, maldarlıq, üzümçülük, tütünçülüyün inkişafı üçün əlverişli zəmin yaratmışdır.

Arxeoloji qazıntılar nəticəsində aşkar olunmuşdur ki, yeni eradan əvvəl burada əkinçiliklə məşğul olmuşlar. Rayon ərazisində əkinçiliklə bağlı toponimlər "Kotan yeri", "Əyri zəmi", "Subasar", "Xırman yeri", "Məhər dəmyəsi" göstərir ki, sonrakı dövrlərdə də bu ərazilərdən əkinçilik sahələri kimi istifadə edilmişdir. Burada "sarı buğda", "qaraqılçıq", "xırda buğda", "ağ buğda", "qaragilə buğda" növləri

əkilir. Onların bəzisini akademik Cəlal Əliyevin rəhbərliyi ilə Azərbaycan alimləri yaratmışlar.

Əkinçilik alətləri olmadan əkinçilik inkişaf edə bilməzdi. Yeni eranın I əsrində yunan alimi Strabon "Coğrafiya" kitabında yazırdı ki, albanlar əkinçilikdə "xış" adlanan ağac alətdən istifadə edirdilər.

Azərbaycanın bəzi bölgələrində "xış"la bərabər, "cüt" kəlməsi də işlənir. Buna qədim bayatımızda da təsadüf edilir:

Dərdə kərəm;
Dərdim çox, dərdə kərəm.
Qoşmuşam qəm cütünü
Sürdükcə dərd əkərəm.

Əkinçilər arpa, buğda, qarğıdalı, darı, noxud və s.-ni təcrübədən keçmiş münbit torpaqlı yerə əkərdilər. Dağlıq ərazilərdə dəmyə əkinçilik üstünlük təşkil edirdi. Bu, toponimlərdə də öz əksini tapıb. Məsələn, "Məhər dəmyəsi". Məhsul verməyən yeri əkməzdilər. Əkilən bitkinin növündən asılı olaraq, torpağı bir, iki və ya üç ilə qədər dincə qoyardılar. Şübhəsiz, əsrdən-əsrə keçən bayatı da o dövrlərdə yaranmışdır:

Əkmə bitməyən yerə,
Can ver itməyən yerə.
Ayaqlar necə varsın
Könül getməyən yerə.

Qəbələdə münbit torpaqlarına və bolsulu gur çaylarına görə taxılçılıq əsas fəaliyyət növü olmuş və indi də belədir.

Çəltikçilik. Azərbaycanda çəltikçilik ən az inkişaf edən, ən ağır fəaliyyət sahəsidir. Çəltik həm şitil, həm də səpmə üsulları ilə əkilib-biçilərdi. Əkinçi ayaqyalın, dizinə qədər suyun içində onu şitil kimi əkir. Bununla belə, Qəbələ çəltikçiliyin geniş yayılan ərazilərindən biri olmuşdur. 1819-cu il sənədlərində Qəbələnin 21 kəndində çəltikçiliklə məşğul olunduğu göstərilir. Burada "ənbərbu", "xəzri", "ağçilə", "spidor", "Həsənli", "Şərur", "qılçıqlı (qırmızı)" çəltik növləri əkilib-becərilmişdir. 1939-cu ildə hər hektardan 29 sentner çəltik məhsulu əldə edilmişdir. 1948-ci ildə çəltik sahəsində əldə etdikləri nailiyyətlərə görə Zakir Əhmədov və Rəsul Qəhrəmanov 1949-cu ildə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşlər.

Qəbələdə çəltikçilik XX əsrin 70-ci illərinədək mövcud olmuşdur. Lakin yüksək gəlir gətirən tütünçülük təsərrüfatının inkişafı çəltikçiliyə marağın azalmasına və tədricən unudulmasına gətirib çıxarmışdır.

Qəbələdə taxılçılıq və çəltikçilik əsas fəaliyyət növlərindən olduğundan su dəyirmanları da çox olub. XX əsrin 60-cı illərinədək həm taxıl üyüdən, həm də çəltik döyən dingli su dəyirmanları olmuşdur.

İpəkçilik (Baramaçılıq). Azərbaycanın bu bölgəsi tarixən ipəkçilik diyarı kimi tanınmışdır. XIX əsrdə Şəkidə İpəkçilik fabrikinin olması çox mətləblərdən xəbər verir. Ümumiyyətlə, Bərdə ilə yanaşı, Şəki və Qəbələ qədim zamanlardan ipəkçiliyin mərkəzi kimi tanınıb. Tarixçi Musa Kalankatlı Qafqaz Albaniyasının geniş ərazilərində tut ağaclarının bitdiyini, onun ipək parça istehsalında başlıca xammal olduğunu yazmışdır. Bərdə, Qəbələ və Şəki şəhərləri ipəkçilik üzrə əsas ticarət mərkəzləri olmuşlar. IX–XIII əsrlərdə Qəbələdə ipək ticarəti geniş yayılmışdı. İtalyan tacirləri Azərbaycan ipəyini (baramanı) xammal kimi Avropanın iri manufaktura mərkəzlərinə aparırdılar. Sonralar Qəbələdə baramaçılıq daha da inkişaf etmiş, hər yanda tut bağları salınmışdır. Qəbələnin iqlim şəraiti və bolsulu çayları buna münbit şərait yaradırdı. Bircə faktla kifayətlənəcəyik: XIX əsrdə 13 kənd ərazisində 202 tut bağı salınmışdı. 1887-ci ildə Tiflisdə yaradılan Qafqaz İpəkçilik Stansiyasının Şəki filialı baramaçılığın inkişafına təkan verdi. Qəbələ mahalında istehsal olunan barama birbaşa Şəki filialına təhvil verilirdi. Kəndlərdə barama bəsləməyən ev çətin tapılardı.

Maraqlıdır ki, 1889-cu ildə Qutqaşen məktəbinin direktoru Rəşid bəy Əfəndiyev ipəkçilik üzrə peşə təhsili kursu yaratmışdı. Bu kurslar sonralar başqa

məktəblərdə də yaradılmışdı. Eyni zamanda ipək emalı müəssisələri də fəaliyyətə başlamışdı.

XX əsrdə ipəkçilikdə bir geriləmə baş verdi. XX əsrin 60-cı illərində Qəbələ rayonunda 21 kolxozdan 19-unun baramaçılıq üzrə ixtisaslaşdırıldığı və dövlətə 85 tondan çox barama satıldığı halda, 1980–1990-cı illərdə baş verən siyasi proseslər iqtisadiyyatın başqa sahələrində olduğu kimi, ipəkçiliyin də çökməsinə gətirib çıxarmışdı. Əminəm ki, kənd təsərrüfatının çox gəlirli sahəsi olan ipəkçilik Qəbələ kəndlərində yenidən dirçələcək. Çindən gətirilən və əsasən Qəbələdə basdırılan bir milyona yaxın tut ağacı (şitili) da Qəbələdə ipəkçiliyin inkişafına təkan verəcək.

Baramaqurdunu xalq arasında çox əzizləyirlər. Onu xüsusi bəsləyir və vaxtlı-vaxtında yemləyirlər. Barama qurdunun yemi tut yarpağıdır. Qurdun toxumunu soba olan yerə qoyurlar. İstilik 16–20 dərəcə temperaturda olanda barama qurdu dirilir.

Baramaqurdunun beş yuxusu olur: "qara yuxu", "cumsaz", "kiçik yuxu", "ulu yuxu", "şah yuxusu". Barama saxlanılan yerə "kümxana", barama saxlayana "kümsaz" və ya "kümçü" deyirlər. Barama saxlanan kümxanalar müqəddəs sayılırdı.

Geniş yayılan baramaçılıq folklorumuzda da öz əksini tapır. İnanca görə, baramaqurdu saxlanan komaya həmzadlı, çiləli arvad, bədnəzərli və silahlı adam buraxmazlar. Qorxarlar ki, qurd çiləyə düşsün

və ona göz dəysin. Hətta hər tərəcəyə bir yumurta qoyurlar ki, qurda göz dəyməsin.

"Qəbələ etnoqrafiyası"nda kümxanalarla bağlı maraqlı inancdan bəhs edilir. Kümçülər baramanın qaynadılması işini (barama 60–65 dərəcə isti suda qaynadılır – *Q.P.*) könülsüz görürlər.

Baramanın qaynadılması prosesində oxunan nəğmə mənası, məzmunu ilə seçilir. Baramaqurdlarının öləcəyinə görə Allahdan günahlarını bağışlamağını təmənna edirlər:

Hazırlayıb bütün qabı-qacağı,
Təşviş ilə yandırmışıq ocağı.
İlahi, gəl bizdə günah arama,
Qaynatmasaq, zay olacaq barama.
Qadir Allah, olmazları ol eylə,
Kümdarlara rəğbətini bol eylə.
Demirik ki, hər günahı alqışla,
Yalvarırıq, bircə bunu bağışla.
Allah...Allah...Allah.

İpəkçiliklə bağlı maraqlı tapmacalar, folklor nümunələri də "Qəbələ etnoqrafiyası"nda yer almaqdadır:

Bir quşum var alaca,
Getdi qondu ağaca.
Özünə bir ev tikdi,
Nə qapı qoydu, nə baca.

Həyat qəribədir. 1957-ci ildə Bakıda ali məktəbə daxil olandan sonra mağazadan aldığım ilk kitab Bəxtiyar Vahabzadənin "Ceyran" adlı kitabı oldu. Kitabda şairin "Bu dünyada" adlı fəlsəfi şeiri diqqətimi çəkdi. Yaşadığım mənzilə gələnə qədər şeiri əzbərlədim. Aradan 60 ildən çox vaxt keçib. Ağlıma belə gəlməzdi ki, vaxt gələcək, elmi işimdə həmin şeirdən istifadə edəcəyəm.

Tarixən Azərbaycanın baramaçılıq bölgəsi Şəkidə anadan olan şair uşaqlıqda baramaqurdlarının bəsləndiyi və yetişdirildiyi prosesi öz gözləri ilə gördüyündən baramaqurdlarının taleyi onu düşündürmüşdür:

Min əzab çəksə də əkinçi qarda,
Taxılına yorğan yenə qar olur.
Əliylə tikdiyi evi axırda
Baramaqurduna bir məzar olur.

Şair bal arılarını da müşahidə edib. Onların qeyri-adi əməksevərliyi onu valeh etsə də, həyatdakı qismətləri şairi düşüncələrə qərq edib və ürəkağrısı ilə yazıb:

Xəstə dərman içib özünə gələr,
Dərman həm xeyirdir ona, həm zərər.
Arı öz balında boğulub ölər,
Qardaşdır xeyirlə şər bu dünyada.

Göründüyü kimi, barama, baramaçılıq və arıçılıqla bağlı məsələlər bədii ədəbiyyatda da yer alır və etnoqrafiya elmi üçün qiymətli mənbəyə çevrilir.

Tütünçülük. Qəbələdə tütün XVII–XVIII əsrlərdən becərilməyə başlayıb və mühüm gəlir mənbəyinə çevrilib. XX əsrin əvvəllərində Qəbələdə yeni tütün növləri "Samsun", "Trabzon" və s. əkilib-becərilməyə başlayıb. Qəbələdə XX əsrin ortalarında tütünçülük inanılmaz dərəcədə inkişaf etməyə başlamış, "Trabzon", "Samsun" və "Sivri yarpaq" növü becərilmiş, hər hektarından 26–27 sentner tütün məhsulu götürülmüşdür. Maraqlıdır ki, Qəbələdə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş 13 əmək qəhrəmanının 10 nəfəri tütünçülük sahəsində çalışanlar olub.

Kişilərin çoxu müharibədə həlak olduğundan, müharibədən qayıdanların isə əksəriyyəti əmək qabiliyyətini itirmiş olduğundan işin ağırlığı qadınların boynuna düşürdü. Odur ki yüksək ada layiq görülənlərin hamısının qadın olması təəccüb doğurmur. Cahan Əzimova, Pakizə Məmmədova, Minarə Məmmədrəhimova, Pelageya Zubkova, Badam Muradxanova, Bənövşə Rəsulova, Təzəgül Çaldallari, Təzəgül Mobili, Siranuş Dallari və Töhfə Orucova bu yüksək adı alın təri ilə qazanmışdılar.

Bu fakt Qəbələdə tütünçülüyün təsərrüfat həyatında tutduğu mövqedən xəbər verir.

Tütünçülük Qəbələ əhalisinin əsas gəlir mənbələrindən biri olmuşdur. 1978-ci ildə Qəbələ Tütün Fermentləmə Zavodu tikilməyə başladı və tikinti bir ildə başa çatdı. İstehsal gücü 12000 ton fermentlənmiş tütün olan zavod keçmiş SSRİ-də ən böyük müəssisə idi.

Beləliklə, Qəbələdə tütünün sənaye üsulu ilə emalına başlanılıb.

Maldarlıq. Qədim dövr müəlliflərinin məlumatlarına və Qəbələdə aparılan arxeoloji qazıntılara əsasən, demək olar ki, burada həm oturaq, həm də köçmə maldarlıq formaları olmuşdur. Bu, Qəbələdə alp çəmənlərinin bolluğu, aranda otlaq sahələrinin çoxluğu sayəsində mümkün olmuşdur. Heyvandarlar sürülərini (xırdabuynuzlu heyvanlar), naxırlarını (iribuynuzlu heyvanlar), ilxılarını (atlar) yayda yaylaqlarda, qışda qışlaqlarda saxlamış, onların itkisinə yol verməmişlər.

Günümüzdə də qoyunçuluqla məşğul olan fermerlər mövsümündə yaylağa və qışlağa köçürlər. Keçmiş Sovet dönəmində kolxozlarda qoyunçuluq və mal-qara üzrə 125 ferma yaradılmışdı. 1966-cı ildə heyvandarlıq sahəsində yüksək əmək göstəricilərinə nail olan Əşrəf Əlimirzəyev Sosialist Əməyi Qəhrəmanı adına layiq görülüb.

O, Qəmərvan kəndinin mərkəzində ikimərtəbəli idarə binası, 300 nəfərlik Mədəniyyət evi, 400 nə-

fərlik kinoteatr, 280 nəfərlik ikimərtəbəli məktəb, hamam və s. inşa etdirmişdir.

Xalq şairi Bəxtiyar Vahabzadə bütün bunların şahidi olmuş, gördüklərini heyranlıqla tərənnüm etmişdir:

Gəzdim Qəmərvanı mən addım-addım,
Üstü kirəmitli evlərə baxdım.
Ucaldım, böyüdüm bu evlər kimi,
Başım göyə dəydi, könlümdə deyil,
Mən kənddə görürdüm diləklərimi.

"Qəbələ etnoqrafiyası" kitabında bu sətirləri oxuduqca göz önünə doğma Düzqırıxlı kəndində (Tovuz rayonu) 1951-ci ildən ömrünün sonuna qədər əvvəlcə kolxoz sədri, sonra sovxoz direktoru işləyən Firidun Bağırov gəldi. Onun tikdirdiyi Mədəniyyət sarayında Ulu Öndərimiz iki dəfə Respublika üzümçülərinin Zona müşavirəsini və Tovuz rayon Partiya fəallarının və zəhmətkeşlərin yığıncağını keçirmişdir.

1955-ci ildən cərgəli formalı (küçə sistemli) kəndə çevrilən Düzqırıxlıda Heydər Əliyevin hakimiyyəti dövründə inşa edilən qonaq evi, kino zalı, radio qovşağı, bütün evlərə çəkilən radio və telefon xətti, ikimərtəbəli univermaq, mağaza, ağ kubik daşdan tikilmiş bir-ikimərtəbəli evlər, yüzçarpayılıq ikimərtəbəli xəstəxana, musiqi, səkkizillik və üçmər-

təbəli şəhərtipli onillik məktəb, iki istirahət parkı, iki uşaq bağçası, hamam, yeməkxana, çörək zavodu, elektrik dəyirmanı, bərbərxana, şərab zavodu, maşın-traktor parkı və s. vardı. Hələ o vaxtdan evlər işıq və qazla təmin olunmuşdu. Düzqırıxlı kəndi şəhərə bənzəyirdi. Təəssüf ki, bütün bunlar nağıla dönüb, nağıl təsiri bağışlayır. İndi onların əksəriyyətindən əsər-əlamət yoxdur.

Firidun kişinin ən böyük xidmətlərindən biri də dağdan, 12 km məsafədən kəndə içməli su çəkdirməsi olmuşdur. Onun ədalətli və insaflı idarəçilik üsulu vardı. İllər sonra alman filosofu Hegelin **"Mən desəm ki, almanlar ağıllı millətdir, verin dünyanı almanlar idarə etsin, milliyyətcə alman olduğum üçün məni qınayarlar. Odur ki deyirəm: "Dünyanı verin türklər idarə etsin, çünki türklər ən ədalətli və insaflı millətdir"** kəlamını oxuyandan sonra Firidun kişinin necə müdrik adam olduğunu anladım.

Qəbələ rayonunun iqlim şəraiti, otlaqlar, biçənəklər heyvandarlığın inkişafına münbit şərait yaradır. 2015-ci ildə rayonda xırdabuynuzlu heyvanların sayı 218731 (keçi-qoyun) olmuşdur. Bu, böyük rəqəmdir. XX əsrin 70-ci illərində Respublikaya 34000 baş cins mal-qara gətirilmiş, onun bir hissəsi Qəbələ rayonuna verilmişdir. 2015-ci ildə iribuynuzlu mal-qaranın sayı 48201 baş olmuşdur. Hazırda Qəbələdə iki damazlıq təsərrüfatı vardır.

2013-cü ildə inşa edilən Qəbələ Heyvandarlıq-südçülük kompleksi rayonun iqtisadi həyatına güclü təsir göstərir. Bircə fakta nəzər salsaq, deyilənlərin həqiqətdən kənar olmadığını görmək olar. Niderlanddan gətirilən 500 baş inəyin hər biri gün ərzində 25 litrdən çox süd verir. Kompleksdə hər gün 13 tondan çox süd sağılır, Süd emalı zavoduna göndərilir və "Jalə" brendi adı altında ağartı məhsulları istehsal olunur. Artıq qalan süd Bakıya "Gilan Holdinq"in "Milla" zavoduna göndərilir və yağ, pendir, qatıq, ayran, dondurma və s. istehsalında istifadə edilir.

Qəbələdə heyvandarlığın vüsətli inkişafını təmin edən müəssisələrdən biri də "Gilan Holdinq"in "Aqro Kompleks Qəbələ" heyvandarlıq kompleksidir. 20 hektar ərazini tutan kompleks iki inək və iki buzov fermasından, eləcə də doğuş bölməsindən ibarətdir. Bu möhtəşəm kompleks Almaniyadan 650 baş "Simmental" cinsindən olan südlük-ətlik düyələr almış, yerli şəraitə uyğunlaşdırılan bu cins heyvanlar ildə orta hesabla 5–6 min litr süd verir. Kompleksi yemlə təmin etmək üçün böyük ərazisi olan yem təsərrüfatı yaradılmış, müxtəlif yem bitkiləri əkilmişdir. Kompleksin yem sexi, beş silos quyusu, 200 hektar ərazidə müasir suvarma sistemləri quraşdırılmışdır.

Bütün bunlar "Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramı"nın uğurla həyata keçirilməsi nəticəsində mümkün olmuşdur.

Atçılıq. Atçılıq təkcə Qəbələdə deyil, bütün Azərbaycan ərazilərində lap qədim dövrlərdən inkişaf etmişdir. Yunan coğrafiyaşünası Strabonun məlumatına görə, Qney Pompey Qafqaza hücum edən zaman Albaniya hökmdarı Oroys və qardaşı Kozis romalılara qarşı 60 min piyada və 22 min süvaridən ibarət qoşun çıxarmışdı.

Deməli, ordunu süvari qoşunla təmin etmək üçün at ilxıları tələb olunurdu. Qəbələdə atların saxlanılmasına qədim dövrlərdən xüsusi qayğı göstərilirdi. Keçmiş SSRİ dövründə at ilxıları yayda yaylaqlarda, qışda qışlaqlarda saxlanılırdı.

At xalqın məişətində əhəmiyyətli rol oynayıb. Atdan süvari orduda, eləcə də yük, nəqliyyat və minik vasitəsi kimi istifadə edilib. At həmişə toy və bayramların yaraşığı olub. Cıdır yarışları keçiriblər. Qəbələnin əksər kəndlərində at yarışlarına, atla bağlı oyunlara hər vaxt xüsusi diqqət yetirilmişdir. Hazırda Qəbələ Atçılıq Mərkəzi fəaliyyət göstərir.

At Azərbaycanda tarixən namus nişanəsi hesab olunub. Azərbaycanın ilk Xalq şairi Səməd Vurğun folklorumuzu mükəmməl bilib və yeri gəldikcə ondan məharətlə istifadə edib. Şair bu məsələyə xüsusi diqqət yetirmiş, namusdan sayılan başqa iki məqamı da gündəmə gətirmişdir:

Oxucum, bəlkə, sən
Özün bilirsən:

Ki, bizim yerlərdə bir papaq, bir at,
Bir də hər kişinin aldığı arvad
Namusdan sayılır.

Bunu İsmayıl Şıxlının tarixi faktlar əsasında yazılmış "Dəli Kür" romanında da açıq şəkildə görmək olur. Düşmənləri Cahandar ağadan intiqam almaq, onu xalq arasında rüsvay etmək, hörmətdən salmaq, ona açıq-aşkar sataşmaq üçün atının quyruğunu qırxırlar. Bu hadisə heç vaxt dəyanətini itirməyən bəyi sarsıdır. Odur ki, sirdaşı hesab etdiyi Qəməri qayanın başına çəkib güllə ilə vurur ki, camaatın bu biabırçılıqdan xəbəri olmasın, elə bilsinlər ki, at qayadan uçub Kürə düşüb.

Burada diqqəti cəlb edən bir məsələni – "Xalq yaradıcılığı nümunələrinin müasir ədəbi prosesdə çox fəal iştirak etdiyini" (Çərkəz Quliyev) göstərmək də yerində olardı.

Azərbaycanın başqa bölgələrində olduğu kimi, Qəbələ bölgəsində də at, arvad, papaq əhali arasında qeyrət, mərdlik, cəsarət, hünər rəmzi sayılmışdır.

Fəxr edirik ki, Azərbaycanda namusdan sayılan atla bağlı qədim "Çövkən" oyunu 2013-cü ildə Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın səyi nəticəsində UNESCO-nun qeyri-maddi mədəni irsi siyahısına salınmışdır.

Arıçılıq. Qəbələnin təbii şəraiti, dağları, çəmənləri, bağları, meşələri, xüsusən də cökə ağacları, müxtəlif

bitkilər arıçılığın inkişafına zəmin yaradan amillərdir. Qəbələnin Alp meşələrində 3–4 cins bal arısına təsadüf edilirdi.

XX əsrin 20–30-cu illərində Qəbələdə kolxozlarda xırda arıçılıq təsərrüfatı yaradılmışdı. Zaman keçdikcə bu təsərrüfatlar ixtisaslaşdırılmış iri arıçılıq təsərrüfatlarına çevrilmişdi. Hazırda rayon üzrə 278 arıçılıq fermer təsərrüfatı fəaliyyət göstərir.

Ovçuluq. "Qəbələ etnoqrafiyası"nda bu bölüm ilhamla yazılmışdır. Kitabda oxumaq olur: "Qəbələnin zəngin faunası onun Azərbaycanda əsas ovçuluq məkanlarından birinə çevrilməsinə səbəb olmuşdur. Bölgənin Pirəbulluq, Qurudərə, Ayılıq, Maralgəzi və s. meşələri ov heyvanları və quşları ilə zəngindir. Maral, dağkeçisi, dağkəli, ceyran, cüyür, ayı, canavar, vaşaq, meşə pişiyi, dələ, tülkü, dovşan, adi və oxlu kirpi və s. heyvanlar, soltantoyuğu, qırqovul, kəklik, turac, göyərçin, qartal, köçəri quşlardan durna, hacıleylək, qızılqaz, ördək və s. Qəbələ meşələrinin və çöllərinin bəzəyidir".

Deyilənlər ovçuluğun bir sənət kimi formalaşmasına zəmin yaradır. Arxeoloji qazıntılar da deyilənləri təsdiqləyir və ovçuluğun insanların həyatında mühüm rol oynadığını göstərir.

Qəbələdə ova fərdi və kollektiv şəkildə çıxardılar. Ayı, dağkəli, dağkeçisi, canavar və s. iri və yırtıcı

heyvanları kollektiv şəkildə pusqu qurmaqla ovlayardılar. Bu işin öhdəsindən peşəkar ovçular gəlirdi.

Ovçuluqla bağlı akademik Teymur Bünyadovun fikri ibrətamizdir: "Bu yerlər ov heyvanlarının məskənidir. Vaxtilə ürkək ceyranlar sürü halında yaşamışlar. Amansız ovçular, demək olar ki, bu səhra gözəlinin kökünü kəsmiş, qırıb qurtarmışdır. Buranın meşələrinin yar-yaraşığı – qaragözlü, şaxəbuynuz, xallı maralları azalıb, təkəmseyrək gözə dəyir. Yuxarılarda dağların sıldırımlıqlarında, dar keçidlərində sürü halında yaşayan dağkəlləri ovçuların şikarına çevrilib, azalıb" (bax: "Qəbələ etnoqrafiyası", səh.43).

Akademik Teymur Bünyadovun ürəkağrısı ilə bəhs etdiyi "ceyranları qırıb, axırına çıxan amansız ovçular"a Xalq şairi Səməd Vurğun, az qala, bir əsr bundan əvvəl müraciətlə yazırdı:

Ovçu, insaf elə, keçmə bu düzdən!
O çöllər qızını ayırma bizdən!
Qoyma ağrı keçə ürəyimizdən, –
Qoyma öz qanına boyana ceyran!
Nə gözəl yaraşır Muğana ceyran!

"Qəbələ etnoqrafiyası"nda ovçuluqla bağlı adət-ənənələrdən, inanclardan ətraflı söhbət açılır. Məlum olur ki, usta ovçu heç vaxt küləyin istiqamətində getməzmiş, ov onun iyini alıb uzaqlaşarmış. Ova başlayandan sonra ovçular bir-biri ilə danışmazmış.

Təsadüfən üz-üzə gəldikdə, bir-birlərini görməmiş kimi hərəsi bir tərəfə gedərmiş.

Ov əti tərəziyə qoyulmaz, satılmaz, gözəyarı kəsilib paylanarmış. Sayılan quşlara (qartal, şahin) güllə atılmazmış.

Ov zamanı dayanıb ovçuya baxan, qaçmayan ova güllə atmazdılar. Güman edərdilər ki, aman diləyir, kiçik balası var.

III fəsil **"Sənətkarlıq"** adlanır. Burada dulusçuluq, şirli və şirsiz saxsı məmulatları, bədii keramika, fayans qablar istehsalı, inşaat keramikası, toxuculuq, yun parçalar, kətan məmulatı, keçəçilik, xalçaçılıq, Qəbələ xalçası, namazlıq, palaz, kilim, Qəbələ xalçalarının texniki xüsusiyyətləri, tikmə sənəti, dərzilik, boyaçılıq, dabbağlıq, papaqçılıq, kürkçülük, başmaqçılıq, çəkməçilik, ağacişləmə, kömürçülük, daşişləmə, daş heykəllər, xəttatlıq, metalişləmə, dəmirçilik, misgərlik, qalayçılıq, silahsazlıq, döyüş silahları, zərgərlik, şüşə istehsalı, şüşə bəzək istehsalı və şüşə məmulatlarının hazırlanma üsulları kimi biri-birindən maraqlı yarımfəsillər vardır.

Maraqlıdır ki, sadaladığımız sənətlərin əksəriyyəti günümüzdə də öz əhəmiyyətini itirmir, əksinə, müasir texnologiyadan istifadə sayəsində daha da təkmilləşdirilir, sənətkarlar əhalinin zövqü və tələbinə cavab verə biləcək məhsul istehsal edirlər.

Bütün bu sənətlər barədə bədii ədəbiyyatda bolbol material vardır. Bu baxımdan, Hüseyn Kürdoğlunun "Kəlbəcərin muzeyi" əsəri tarixi keçmişimizə güzgü tutur. Bu əsərdə əkinçilik, maldarlıq, xalçaçılıq, suvarma ilə, gündəlik kəndli həyatı və diyarşünaslıqla bağlı o qədər terminlər var ki, nəinki etnoqraflarımız, dilimizin leksikası və dialektologiyası ilə məşğul olan tədqiqatçılar üçün də ən qiymətli material ola bilər. Odur ki, şeiri bütöv veririk:

Kəlbəcərin muzeyi bir nağıl muzey idi,
Zərrədən günəşəcən dünyada hər şey idi.
Bütün cah-calalıyla müsibətli yey idi,
Aylı, günlü, ulduzlu, kəhkəşanlı göy idi.
Bir nağıl muzey idi!
Miladdan o yana da, miladdan bu yana da.
Ən qədim köhnə idi, ən yeni təzə idi,
Bir nağıl muzey idi!
Daşları neçə rəngdə bir qövsi-quzeh idi,
Bir nağıl muzey idi!
Min illərin töhfəsi nə qədər yazı vardı,
Ələsgər sazı vardı,
Şəmşir avazı vardı.
Vurğunun xatirəsi onun yaraşığıydı,
Gözünün təbəssümü sanki ay işığıydı.
Qılınc, qələm, bir də saz,
Gərdəklər qotaz-qotaz,
Corablar qotaz-qotaz.

Xalçalar, nə xalçalar – Dəlidağ çəmənzarı,
Elin fəxri-vüqarı.
Neçə növ cəhrə-daraq,
Neçə növ dükçə-yumaq.
Babaların papağı, kotanı və çomağı,
Qayaların qoynunda gildən saxsı çırağı...
Ah nələr vardı, nələr!
Nə töhfələr vermişdi bu muzeyə nənələr?!
Günbatan və Gündoğan,
Güney və Quzey idi.
Bir nağıl muzey idi!
Qarlı zirvələr ilə o da üz-üzə idi.
Bir nağıl muzey idi.
Onu yaradan kişi çağdaş Prometey idi*,
Dağıtdı bu nağılı, qarət eylədi yağı.
Vətənin sinəsindən getməz bu namərd dağı.
Kəlbəcərin muzeyi bir nağıl muzey idi,
Dünyada hər şey idi.

Şairin "Qaraqoyunluda" adlı şeiri də etnoqrafiya baxımından maraq doğurur. Şeirdən iki bəndi təqdim edirəm:

Qaraqoyunluda qoyun görmədim,
Sanki heç tanımır qoyunu bu kənd.
Elə tarixə də bu adla düşüb,
Danırmı əslini-soyunu bu kənd?!

* Söhbət gözəl ziyalı və şair Şamil Əsgərovdan və onun yaratdığı "Diyarşünaslıq muzeyi"ndən gedir.

Təndirlər qalanıb, çörək yapılmır,
Qarmaqdan asılıb, cəmdək çapılmır.
İlan vuran olsa, qatıq tapılmır,
Özü yaxşı tutub toyunu bu kənd!

Hüseyn Kürdoğlunun milli yaddaşdan gələn, etnoqrafiya və folklorla bağlı dərin mənalı çoxsaylı şeirləri tədqiqatçılar üçün zəngin mənbədir. Akademik Tofiq Hacıyev təsadüfi demirdi: "Üç-beş əsr sonra Hüseynin şeirlərindən Azərbaycan etnoqrafiyasının XX əsrini öyrənəcəklər".

"Maddi mədəniyyət" adlanan dördüncü fəsildə yaşayış məskənləri, yaşayış məskənlərinin formaları, müasir Qəbələ şəhəri, yaşayış evləri, yaşayış evlərinin tikintisi ilə bağlı inanc və adətlər, bazarlar, qadın və kişi geyimləri, bəzəklər, yeməklər və içkilər, əsas ərzaq məhsulları, nəqliyyat vasitələri, yollar, rabitə və s. tədqiqat obyektinə çevrilir.

Yaşayış məskənləri müxtəlif formada olmuşdur. Bu, təbii-coğrafi şərait, təsərrüfat həyatı, ictimai-siyasi proseslərlə əlaqəli yaranmışdır. Qədim daş dövründə ilk məskən növləri açıq düşərgə, mağara (zağa), qayaaltı və qayaarası sığınacaqlar olmuşdur. İnsanlar sonralar süni mağaralar da düzəldiblər.

Vaxt keçdikcə maldarlıqla məşğul olan insanlar köçmə həyata keçmişlər.

Əsrlər keçəndən sonra isə insanlar oturaq həyata keçməyə, toplu halda yaşamağa meyil etmişlər.

Beləliklə, basalaqlar (məhəllələr), kəndlər meydana gəlmişdir. Bu, Qəbələdə də belə olmuşdur. Burada yaşayış məskənləri tarixi inkişaf baxımından daimi və müvəqqəti yaşayış məskənləri olmaqla iki mərhələdən ibarət olmuşdur. Maldarlıqla məşğul olan insanlar yayda yaylaqda, qışda qışlaqda köçəri həyat sürmüşlər. Lakin sonralar oturaq həyata keçmiş, yaylaqlar, xüsusən də qışlaqlar daimi yaşayış məskənlərinə çevrilmişdir. Onların da oturaq əhaliyə məxsus yaşayış evləri, həyətyanı sahələri, otlaqları, əkin sahələri, bulaqları, qəbiristanlığı olmuşdur.

Qəbələnin kənd yaşayış məskənləri dağlıq, dağətəyi, düzənlik olmaqla üç qrupa bölünür. Coğrafi baxımdan rayonun əksər kəndləri və Qəbələ vadi yaşayış məskəni sayılır. Çünki çayların vadilərində salınmışdır.

Azərbaycanın başqa bölgələrində olduğu kimi yaşayış məskənlərinin cərgəsiz (dağınıq, kom, talayığım) və keçən əsrin ortalarında cərgəli (küçə sistemli) formaları yaranmışdır.

Qəbələ rayonunda Vəndam, Bum, Zarağan, Həmzəli daxil olmaqla 10-dan artıq kənd indinin özündə belə cərgəsiz kəndlərdir. Cərgəsiz-dağınıq kəndlər isə düzənlik məskunlaşma tipini əks etdirir. Düzənlik ərazidə oturaq həyat tərzi üçün zəruri olan əkin sahələri, örüşlər, biçənəklər və s. bol olduğundan burada evlər bir-birindən pərakəndə halında salınır. Bu kəndlərin sayı 25-dən artıqdır.

Başqa bölgələrdə olduğu kimi, Qəbələ ərazisində də əsrlər boyu yaşayış məskənləri qohumluq və qonşuluq prinsipi əsasında formalaşmışdır. Məsələn, Rəşidli, Çayqıraqlı, Məhəmməduşağı, Eyyublular, Karaylar, Ebişlər, Qasımlı, Hacı Gülməmmədli, Candarlı, Şəfilər, Qarasu və s. məhəllələr mövcuddur.

XX əsrin 30-cu illərindən cərgəli formalı kəndlər salınmağa, XX əsrin ortalarından isə genişlənməyə başladı. Azərbaycanın digər bölgələrində olduğu kimi Qəbələdə də ictimai mülkiyyətə əsaslanan kolxoz və sovxoz kəndləri yarandı, əhali torpaq mülkiyyətindən məhrum oldu, şəxsi həyətyanı sahələr məhdudlaşdırıldı. Bununla belə, cərgəli formalı məskunlaşma formasına keçid tarixi hadisəyə çevrildi. Xüsusi vurğulamağa dəyər ki, bu, kəndlə şəhərin yaxınlaşması yolunda atılan inanılmaz addım idi. Kəndə işıq çəkildi. Kənddə "Radio uzel" yaradıldı. Evlərə radio xətti və telefon çəkildi. Kənddə kinofilmlər göstərməyə, konsertlər verməyə başladılar. Açığını deyək ki, bu, kənd həyatında görünməmiş hadisə idi.

Yaşayış evləri. İnsanların təsərrüfat, məişət və həyat tələblərini təmin edən yaşayış evləri maddi mədəniyyətimizin mühüm tərkib hissəsidir. Müxtəlif tipli yaşayış evlərinin inşasında həmişə təbii-coğrafi şərait, inşaat materialları, təsərrüfat məşğuliyyəti və s. nəzərə alınmışdır.

Qədim Qəbələ şəhər yerində aparılmış arxeoloji qazıntılar bir sıra yaşayış evlərinin qalıqlarını üzə çıxarmışdır.

Bu baxımdan görkəmli arxeoloq alimimiz Saleh Qazıyevin Qəbələ şəhərinin tikililəri haqqında fikirləri müəyyən qənaətə gəlməyə imkan verir: "Qəbələdə qazıntılar zamanı üzə çıxarılmış bina qalıqları, yonma və naxışlı daşlar, sadə naxışlı şirli bəzəklər, gildən və daşdan hazırlanmış həndəsi fiqurlar, sütun altlıqları, müxtəlif ölçülü bişmiş kərpiclər, suvaqlar, suvaqda qalmış boyaqlar, indiyə qədər qismən qalmaqda olan bürclər və divarlar Qəbələdə çox möhtəşəm binaların olmasını sübut edir".

Güllütala ərazisində üzə çıxarılan, ictimai bina sayılan üç oval tikilinin qalıqları Antik dövrdə mövcud olan tikililərin möhtəşəmliyindən söz açır.

Binaların bünövrəsinin çaydaşı, divarlarının çiy kərpiclə hörülməsi, hörgünün ortasına ağac millərin (kətillərin) qoyulması, damların pərdilərlə möhkəmləndirilməsi, kirəmitlə örtülməsi, küçə və meydanlara çınqıl döşənməsi təcrübəsi hazırda da tətbiq olunmaqdadır. Azərbaycanın başqa bölgələrində olduğu kimi, Qəbələ ərazisində də yaşayış evləri fərqlənir.

Qazma damlar. Bu evləri iqlim şəraiti çox sərt olan ərazilərdə tikməyə üstünlük verirdilər. Onlar qış vaxtı isti, yay vaxtı sərin olurdu. Qazma evlərin inşası üçün dərin xəndək qazılır, xəndəyin arxa və

iki yan divarları dik çapılmış torpaq divardan, açıq qalmış ön tərəfi isə daş hörgüdən ibarət olur. Qəbələ rayonunda qazma damların olması **"Qazmalar kəndi"** toponimində və XIX əsrin birinci yarısında Qəbələ rayonunun Yeliyənli kəndində anadan olan Aşıq Daşdının etnoqrafik baxımından çox maraqlı şeirində (Aşıq Daşdının yaradıcılığı və mühiti barədə "Aşıq sənəti" bölümündə ətraflı yazmışıq) özünü göstərir:

Mən qazmada yaşayan aşığa
Gələrmi mülkədar Tavadın qızı?!

Qara damlar. Bu tipli evlər süni mağaraların və qazmaların inkişaf etmiş forması hesab olunur.

Daxal evlər. Bu tipli evlərin divarları çaydaşı və qaya daşından tikilirdi. Bu evlərdə yay isti, qış isə çox soyuq olurdu. Çünki daş isti və soyuğu asanlıqla keçirir.

Çiy və bişmiş kərpic evlər. Çiy və bişmiş kərpicdən tikilən evlər ən münasib evlər hesab olunurdu. Ev yayda sərin, qışda isti, otaqlarda hava təmiz olurdu. Evlərin damı bişmiş kirəmitlə örtülürdü.

Kərtmə evlər. Qəbələ rayonu meşələrlə zəngin olduğuna görə kərtmə evlər də tikirdilər. Ağacdan tikilmiş bu evlər, adətən, birmərtəbəli, bir-ikiotaqlı olurdu.

Son vaxtlar iqtisadi və texniki imkanların artması Qəbələdə yeni tipli evlərin meydana gəlməsinə şərait yaratmışdır. Belə evlər "aynabəndli ev", "imarət", "malikanə", "mülk", "qəsr" kimi adlarla məlumdur.

Evlərin tikintisi ilə bağlı inanc və adətlər. Qəbələdə yaşayış evinin tikintisi üçün yer seçilərkən həmin yerin tarixi, əvvəlki taleyi ilə maraqlanardılar. Seçilmiş sahə əvvəllər döyüş yeri, qəbiristanlıq, pir, varisi olmayan adamın yeri olardısa, orada ev tikməzdilər. Elə indi də belədir. Əslən Qobustan rayonunun Nərimankənd kəndindən olan mərhum tələbəm Mürsəl Ağamirzəyevin həyat yoldaşı Həqiqət xanım Ağamirzəyevanın "Yarımçıq qalmış arzular" (çox maraqlı kitaba "Ön söz" yazaraq çap etdirmişəm – *Q.P.*) kitabındakı bir hissə deyilənlərə dayaq olur: "Mürsəl, bizim evimiz geniş və rahatdır, anan da kənddə o boyda evdə təkdir. Götür ananı da gətir Bakıya. Sən kəndə qayıtmayacaqsan, yollardan yığılarsan. Kənddəki evi də sat getsin.

Elə bilirdim, ağıllı məsləhət verirəm, ailəni bir yerə yığmaq istəyirdim.

Mürsəl dinmədi, mən də susdum. Sonralar bu söhbəti bir-iki dəfə təkrarladım. Axırıncı dəfə Mürsəl həyət qapısından geri qayıtdı, sırğamdan tutub qaldırmış, indi mənə diqqətlə qulaq as və sırğa elə as qulağından. Mən bildiyin kimi, kəndçi balasıyam, rayon adamıyam. Amma sən şəhərlisən, şəhərlilər üçün **yurd** söhbəti yoxdur. Bu evi xoşlamırlar, satıb gedib başqa ev alırlar, amma bizimçün **yurd** sözünün böyük mənası var. Əgər o yurda oğul qismətdirsə, o yurd yaşayır, içində oğul yaşasa da, yaşamasa

da. Ona deyirlər, bura filankəsin atasının yurdudur, yox, əgər o yurda oğul qismət deyilsə, o yurdun daşları bircə-bircə tökülər, o tökülmüş daşlara deyərlər bura filankəsin xarabasıdır, nə alınar, nə də satılar" (bax: Həqiqət Ağamirzəyeva. "Yarımçıq qalmış arzular". Bakı, "Elm və təhsil", 2018, s.115-116).

Tikinti yerinin halallığının alınması əsas şərt idi. Bu, ibrətamiz bir məsələni yada salır. Fransa kralı XIII Lüdovik səfalı yerdə olan kəndi alaraq, Versalı tikmək üçün kəndlilərdən halallığı qızıl pulla almışdır. Yəqin, buna görədir ki, Versal əsrlərdən bəri yaşayır və get-gedə bütün dünyada məşhurlaşır. Adətə görə, Qəbələdə evin bünövrəsi günəşli günlərdə, sübh çağı qoyulardı.

Evlər üzü cənuba – qibləyə tərəf tikilər, çox külək əsən tərəfə pəncərə qoyulmazmış. Qəbələdə evlərin üzü qibləyə tərəf tikilməsi ənənəsi indi də davam edir. Ev bərəkətli olsun deyə, bünövrəyə metal pul, buğda və s. qoyularmış. Bünövrə üstündə qurbanlıq heyvan kəsilərmiş. Bu, çox maraqlı adətdir. Ev tikdirmək istəyən şəxs niyyət tutur: "İşim avand olsun, filan vaxt ev tikməyə başlayım, o toğlunu qurban kəsəcəm" deyir. Ona görə də bünövrə üstündə kəsilən heyvana "qurbanlıq heyvan" deyərdilər.

Evin dam çardağı tikiləndə "boy tiri" qaldırılarkən ustaya nəmər verilər, köməyə gələnlərə şadyanalıq süfrəsi açılarmış.

Ən maraqlı adətlərdən biri də təzə evə köçəndən sonra baş verərmiş. Qohum və qonşular, kənd sakinləri "ev görməsi"nə hədiyyələrlə gələrdilər: xalça, palaz, pərdəlik parça, kətil, damazlıq heyvan gətirərdilər. Göründüyü kimi, hədiyyələr hamısı təzə evə lazım olan nəsnələr olarmış. Bütün bunlar rəngli illüstrasiyalarla əyaniləşdirilir. İllüstrasiyalara baxanda hər şey daha anlaşıqlı olur. Məsələn, çiy kərpic kəsmə və qurudulma prosesi, kirəmit damlı ev, kirəmitli damın daxili görünüşü, çaydaşından tikilmiş ev, hörgüdə ağac qurşaq, Qəbələ şəhərində İldırım Mirzəliyevə məxsus imarət, Dizaxlı kəndində bəy evi, Bum qəsəbəsində Şıxməmmədbəyovların evi, Laza kəndində Allahyar bəyin ikimərtəbəli mülkü və s. Qəbələ rayonunda tikilən evlərə dair əyani nümunələrdir.

"Qəbələ etnoqrafiyası"nda qalalar, həyətlər, təsərrüfatlar, tikililər, hasarlar və darvazalar da tədqiqat obyektinə çevrilib. Maraqlı cəhət odur ki, həyətlər, təsərrüfat tikililəri, hasarlar və darvazalar rəngli illüstrasiyalarla o qədər əyaniləşdirilib ki, onlar haqqında geniş danışmağa ehtiyac duyulmur. Məsələn, Duruca kəndində yaşayış evinin həyəti, Qəmərvan kəndində yaşayış evinin fasadı, həyətin bağ-dirrik hissəsi, Yenikənddə mal tövləsi, Həzrə kəndində təndirxana, Yengicə kəndində çubuqhörmə çəpər, Quşlar kəndində qaratikan

kolundan hasar, Duruca kəndində daşqura, Yengicə kəndində çax-çax, Quşlar kəndində çaydaşından qala barı, Qəmərvan kəndində daşqura hasar, Çuxur Qəbələ kəndində səbəthörmə çəpər, Həzrə kəndində və Böyük Əmili kəndində darvaza və s. hərtərəfli təəssürat yaradır.

Akademik Teymur Bünyadovun çoxcildlik bayatıları arasında yer alan bayatıları (xoyratları) çəpərlər və hasarlar haqqında təəssüratımı daha da artırdı:

Çəpər çək;
Tikan gətir, çəpər çək.
Bəd qonşunun əlindən
Aramızda çəpər çək.

Hasar çək;
Daş-qaya tök, hasar çək.
Görməyək bəd qonşunu,
Çin Sədditək hasar çək.

Bazarlar. Əhalinin rifahını, yaşayış səviyyəsini bilmək istəyirsənsə, bazara get – deyirlər. Məlumdur ki, Aleksandr Düma 1858-ci ildə Azərbaycanda olub. Mən Həmid Abbasovla dünyaşöhrətli yazıçının "Qafqaz səfəri" əsərini Azərbaycan dilinə tərcümə etmişəm. Sevinirəm ki, "Qəbələ etnoqrafiyası"nın yeməklər bölümündə həmin əsərdən söz açılır. Mənə belə gəlir ki, bazarlara ən dəqiq qiyməti Düma vermişdir: "Bazarda can dərmanı desən, onu da satırlar. Gördüyüm külli miqdarda bazarlar içərisində üçü mənim ən çox xoşuma gəlib. Mən Tiflis bazarını da istisna etmirəm. Bunlardan biri Dərbənd, biri Bakı, biri də Nuxa bazarıdır. Bu qənaətə gəldim

ki, bazar Şərq şəhərlərinin ürəyidir. Hərəkət də, həyat da ordadır".

Heç şübhəm yoxdur ki, Aleksandr Düma Qəbələnin həftə bazarlarında olsaydı, bura haqqında da eyni sözləri deyərdi.

A.Dümanın göstərdiyi kimi, ticarətin həyata keçirildiyi yerlər bazarlar olmuş, şəhərlər, ilk növbədə, bazarları ilə tanınmışlar. Çünki hər şey bazarlarda düzəldilir, orada da xirid edilirdi. Başqa bir tərəfdən də ticarət yolu üzərində bərqərar olan şəhərlər sürətlə inkişaf edirdi. Qəbələ də bu prosesdən kənarda qalmamışdır.

Bazarlar təkcə alış-veriş yeri olmamışdır. İnsanların çox toplaşdığı yer olduğundan bazarlardan dövlət, ictimai, dini və s. tədbirlərin keçirilməsi üçün də istifadə olunmuş, hökmdar və xanların fərmanları, müharibə, səfərbərlik və s. barədə burada car çəkərək əhalini xəbərdar edirdilər. Mollalar müəyyən məbləğ müqabilində məktublar, ərizələr, dualar yazır, tacirlər arasında bağlanan ticarət müqavilələrini hazırlayırdılar.

Abdulla Şaiqin "Məktub yetişmədi" hekayəsi deyilənləri təsdiqləyir.

XIX əsrdə Qəbələ ərazisində bir neçə böyük həftə bazarı olmuşdur. Həftənin çərşənbə axşamı günü Noxu bazarı (Soltannuxa kəndində), çərşənbə günü Vəndam bazarı, cümə axşamı günü Bum bazarı,

cümə günü Cümə bazarı (Qutqaşen kəndində), şənbə günü Nic bazarı, bazar günü isə Hacıalılı bazarı fəaliyyət göstərmişdir.

Şübhəsiz, həftə bazarının müxtəlif günlərə salınması daha çox müştəri cəlb etmək məqsədi güdmüşdür.

Hələ Orta əsrlərdə məşhur olan Hacıalılı bazarı 1980-ci ilə qədər fəaliyyət göstərmişdir. Bu məşhur bazara ətraf rayonlardan, hətta Bakı, Gəncə, Təbriz və Tiflisdən alış-verişə gəlirlərmiş. Bakıdan dəvə karvanları ilə kibrit, neft və duz, Təbrizdən kişmiş, qaysı, xurma və s. gətirilərmiş. Tiflis tacirləri isə buradan təsərrüfat və sənətkarlıq malları alıb aparırlarmış.

Maraqlıdır ki, Nic qəsəbəsindəki Həftə bazarı indi də köhnə şöhrətini saxlayır.

Yemək və içkilər. "Qəbələ etnoqrafiyası"nda yeməklərə əhəmiyyətli yer verilib. Etnoqraflar onlara xüsusi qayğı və məhəbbətlə yanaşaraq, hər şeyi yerli-yataqlı izah etməyə çalışırlar. Bu, təbiidir. İnsan həyatı üçün ən zəruri olan nəsnə ərzaq və ərzaqdan hazırlanan yeməklərdir. Əsas ərzaq məhsulları kimi ət və süd məmulatlarından geniş istifadə edilmişdir. Qəbələdə əkinçilik geniş yayıldığından qədim dövrlərdən dənli bitkilərdən buğda, arpa, düyü, qarğıdalı, çovdar, darı; paxlalı bitkilərdən lobya, noxud; tərəvəz məhsullarından kartof, soğan,

kələm, balqabaq, çuğundur, göy-göyərti və s. əkilib və təbii şərait imkan verdiyinə görə bol məhsul götürülüb. Burada şabalıd, qoz, alma, armud, fındıq, habelə yabanı bitkilərdən əvəlik, qırxburun, gəlinbarmağı, pərpətöyün, yarpız, qazayağı, əməköməci, pencər, unnuca, cincilim, suyarpızı; bostan məhsulları – razyana, kərəviz, turşəng, keşniş, şüyüd, cəfəri, nanə, reyhan, tərxun, turp və s. xüsusi yer tutur. Sadaladığımız təbii məhsullardan əhalinin qida rasionunda bol-bol istifadə edilir. Buna görə də Qəbələ mətbəxi çox zəngindir.

"Qəbələ etnoqrafiyası"nda göstərildiyi kimi, yabanı yeməli otlar və bostan bitkilərindən kükü, qovurma, qutab, dovğa və s. yeməklər hazırlanır. Buğdadan hədik, qovurğa, qovut, üyüdülmüş buğdadan isə çörək, əriştə, xəşil, xəngəl və qənnadı məmulatları hazırlanır. Qəbələ mətbəxində düyüdən də geniş istifadə olunur. Ondan plov, südlü sıyıq, şilə, yayma hazırlanır.

Üyüdülmüş düyü unundan isə düyü halvası və firni bişirilir. Düyü, həmçinin dolma, küftə, dovğa, şorbanın tərkibinə qatılır.

Bostan-tərəvəz məhsullarından qarpız, yemiş, xiyar, pomidor, badımcan, soğan, sarımsaq, lobya geniş istifadə edilir. Qəbələdə başqa bölgələrdə olmayan spesifik yeməyə – xörəyə təsadüf edilmədiyindən, onların üzərində xüsusi dayanmadıq.

Təkcə onu xüsusi vurğulamaq istəyirik ki, illüstrativ material mövzunu əyaniləşdirir və anlaşıqlı edir. Kitabda illüstrativ material olaraq göstərilən bəzi yeməklərin adını çəkməklə kifayətlənirik. Məsələn, mis qazanda dovğa, qutablar, pendir, yuxa, təndir və təndir çörəyi, üçqulaq, düşbərə, xəngəl, döşəməli plov, qovurulmuş şabalıd, tikə kabab, döymə kabab (lülə kabab), daşarası kabab, təndirdə quzu kababı, hinduşka kababı və s.

Qəbələdə içkilər çoxdur. Ənənəvi çay, səhləb çayı (səhləb bitkisinin kökündən dəmlənir), **daqqo** (Qəbələdə daqqo üzüm şirəsindən hazırlanır və bəzi xəstəliklərin müalicəsində istifadə edilir), gülsuyu, gülab içkisi, işkəncəbi içkisi (bu içkini əldə etmək üçün nanə təmizlənir, üzüm sirkəsində qaynadılır və şəkər əlavə olunur. Bu içki çətin həzm olunan yeməyin yanında qoyulardı), zirnic içkisi, əzgil suyu, zoğal suyu, alma sirkəsi, atlama, nanə gilabı və s. Qəbələ çoxçeşidli mürəbbələri ilə də məşhurdur. Alça, ağ gilas (bəhli), qızılgül, zoğal, balqabaq (boranı) mürəbbəsi, heyva, qoz, qarpız, cənnət alması mürəbbəsi, üzüm, zirnic, göyəm, şaftalı, badımcan, pomidor mürəbbəsi, böyürtkən, çiyələk, moruq və qarağat mürəbbələri süfrələrin bəzəyidir.

Təsadüfi deyil ki, hər il Qəbələdə Beynəlxalq Mürəbbə Festivalı keçirilir. Qəbələdə kənd təsərrüfatı

məhsullarının bolluğu Qəbələ Konserv zavodunun tikilməsinə şərait yaratdı. Cənubi Qafqazda istehsal gücünə görə ən iri meyvə emalı müəssisəsi olan Qəbələ Konserv zavodunda təbii meyvə şirələri, mürəbbələr, cemlər, turşular, bir sözlə 100-dən artıq məhsul istehsal olunur. Zavodun məhsulları indi dünyanın bir çox ölkələrinə ixrac olunur və ölkənin valyuta ehtiyatlarının artmasına xidmət edir.

Nəqliyyat vasitələri, yollar və rabitə. Qəbələnin göz işlədikcə uzanıb gedən düzənlikləri, dağ aşırımları, meşəlikləri insanların bir yerdən başqa yerə yük aparmasına qədimdən çətinlik törədirmiş. Onlar "xərək", "bağlama" və "şələ"nin köməyi ilə odun, ot, dərz, motal və s. daşımışlar. Lakin sonralar qoşqu nəqliyyatının sürütmə və təkərli olmaqla iki tipi mövcud olmuşdur. Heyvanlardan da istifadə edilmişdir. Buraya at, öküz, kəl, dəvə, qatır daxil idi. "Qəbələ etnoqrafiyası"nda yazıldığına görə, XIX əsrin ortalarında atdan həm də poçt xidmətində geniş istifadə edilmişdir.

Qəbələdə istehsal olunan taxıl, tütün, ipək və s. məhsullar daxili və xarici bazarlara dəvə karvanları ilə daşınırdı.

XIX əsrin sonlarına yaxın Azərbaycanda dəmir yollarının çəkilməsi, şose yollarının salınması dəvə karvanlarına ehtiyacın azalması və get-gedə əhəmiyyətini itirməsi ilə nəticələndi. Çarvadarlıq bir sənət

kimi sıradan çıxdı. O dövrdə ikitəkərli və dördtəkərli arabalar çox faydalı idi. Qoşqu heyvanlarından asılı olaraq arabalar, "kəl arabası", "öküz arabası", "at arabası" adlanırdı. Bu arabalar Qəbələnin kəndlərində düzəldilirdi.

XIX əsrin II yarısından başlayaraq Azərbaycanda "qazalaq", "fayton", "şərəban", "dilican" və s. kimi yaylı nəqliyyat vasitələri meydana gəldi. Həmin dövrdə "Gəncə faytonları" Qəbələdə geniş yayılıbmış. Uzaq məsafələrə sərnişin daşımaq üçün "şərəban" və "dilican" arabalarından istifadə edilib. Bu arabalar 8 nəfərə qədər sərnişin götürə bilirmiş.

Antik dövrdən bu yana ticarət yollarının Qəbələ ərazisindən keçməsi nəinki ticarətin inkişafına, eləcə də əhalinin məişətinin yaxşılaşmasına, inkişafa müsbət təsir etmişdir. Qəbələyə gələn və keçib gedən karvan yolları çox olmuşdur. Lakin Böyük İpək Yolu adlanan beynəlxalq tranzit-ticarət yolu həddən artıq böyük əhəmiyyətə malik idi. Qara dəniz sahillərindən gələn bu karvan yolu Gürcüstan ərazisindən keçərək Balakən–Şəki–Qəbələ–Şamaxı–Bakı və ya Gəncə–Şuşa–Lənkəran-Ərdəbil yolu ilə İrana gedirdi.

Təbii ki, qədim Albaniya ərazisindən – Qəbələdən keçən magistral yollardan əlavə ayrı-ayrı şəhərləri birləşdirən yollar da olmuşdur. Şəhərlərarası yollardan danışarkən Bərdə–Qəbələ, Qəbələ–Dərbənd

yollarını xüsusi qeyd etmək gərəkdir. Qəbələdə daxili və poçt yolları da olmuşdur. Əhali arasında "araba yolu", "qara yol", "el yolu" və s. adlandırılan torpaq yollar kəndlərarası əlaqə vasitəsi idi.

"Poçt yolları" ayrı-ayrı yaşayış məntəqələrini birləşdirməklə bərabər, başqa ölkələrlə əlaqələrin yaranmasında və inkişafında müstəsna rol oynamışdır. Lakin "Qəbələ etnoqrafiyası"nda xüsusi vurğulandığı kimi, ənənəvi karvan və poçt yolları ilə müqayisədə dəmir yolları daha əhəmiyyətli yer tuturdu. XIX əsrin sonu, XX əsrin əvvəllərində Qəbələ əhalisinin ən çox istifadə etdiyi dəmiryol stansiyası Ləki stansiyası olmuşdur.

Nəqliyyat vasitələrinin sürətli inkişafı öz sözünü dedi. Ulu Öndərimizin ideyası və təşəbbüsü ilə Qəbələ–İsmayıllı–Şamaxı magistral yolu çəkildi. Qəbələ–Bakı yolu inanılmaz dərəcədə qısaldı.

Rayonun infrastruktur obyektlərindən biri – avtovağzal nəqliyyat sahəsi yükdaşıma və sərnişindaşıma işinə ciddi təsir göstərmişdir.

Son illər ərzində rayonda yol çəkilişi sayəsində xeyli işlər görülmüşdür. Prezident İlham Əliyevin imzaladığı 1 mart 2013-cü il tarixli sərəncamına əsasən Mirzəbəyli–Çuxur Qəbələ–Dizaxlı–Çarxana avtomobil yolu tikilərək əhalinin istifadəsinə verilmişdir. Nəqliyyatın vüsətli inkişafında ən böyük hadisə 2011-ci ilin noyabr ayında Qəbələ Beynəlxalq Hava Limanı-

nın fəaliyyətə başlaması olmuşdur. Bunun sayəsində Qəbələ turizm və mədəniyyət mərkəzinə çevrilmişdir. İndi Qəbələ dövlət başçılarının rəsmi görüş yerinə çevrilib. 2013-cü ilin 16 avqustunda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplantısı Qəbələdə keçirilmişdir. 2016-cı ilin 29 noyabr tarixində Azərbaycan Prezidenti İlham Əliyev və Belarus Prezidenti Aleksandr Lukaşenkonun iştirakı ilə Qəbələ rayonu ilə Qrodno şəhəri arasında regionlararası əlaqələrin qurulması haqqında saziş Qəbələdə imzalanmışdır. 10 sentyabr 2012-ci ildə Prezident İlham Əliyevin ATƏT-ə üzv ölkələrin səfirləri ilə görüşü Qəbələdə olmuşdur.

11 sentyabr 2012-ci ildə Prezident İlham Əliyev və o vaxt Türkiyənin Baş Naziri olan Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan və Türkiyənin Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının ikinci iclası Qəbələdə keçirilmişdir.

Hər il Qəbələdə Beynəlxalq Mürəbbə Festivalı keçirilir. Qəbələ Beynəlxalq Aeroportu Qəbələdə Beynəlxalq Musiqi Festivalı və Beynəlxalq İncəsənət Sərgisinin keçirilməsinə münbit şərait yaratmışdır.

Göründüyü kimi, nəqliyyat infrastrukturunun inkişafı mədəniyyətin hərtərəfli və vüsətli inkişafına təkan verir.

Etnoqraflarımız **"Ailə və ailə-məişət"** adlanan fəsli xüsusi rəğbət və məhəbbətlə işləmişlər. Burada ailənin formaları, ailədaxili münasibətlər, nikah qay-

daları, toy adətləri, uşaqların təlim-tərbiyəsi, dəfn mərasimi kimi həyati məsələlər tədqiqat süzgəcindən keçirilib. Ailənin iki forması – böyük və kiçik ailə ön plana çəkilib və tədqiqata cəlb olunub. Böyük ailə "ailə icması", "patriarxal ailə" terminləri ilə ifadə olunur. Belə ailələri ata-ana, qardaşlar, qardaşların uşaqları, nəvə-nəticələr birləşdirirmiş. Azərbaycanın bir sıra tarixi-etnoqrafik bölgələrində "külfət", "ağır külfət", "bir çətən külfət", "böyük ailə", "güclü ailə" və s. kimi tanınan böyük ailələrə Qəbələ bölgəsində "çoxkülfətli ailə" və ya "ağır ailə" deyilirdi. Azərbaycanın müxtəlif bölgələrində ailə başçısı "qoca dədə", "evin qocası", "evin başbiləni", "evin böyüyü", "böyük ata", "dədə", "qağa" adlandırıldığı halda, Qəbələ bölgəsində "evin ağsaqqalı", "ağsaqqal", "dadaş", "lələ", "əmi" adlandırılırdı. Bu bölgədə ailə icmasının başbiləni, yol göstərəni onun ağsaqqalı olub. İcma daxilində böyük hörmət və nüfuz sahibi ağsaqqal icma ilə bağlı bütün işlərə cavabdeh olub.

Onun həyat yoldaşı isə ailədə ev işlərinə nəzarət edərdi. Ailənin digər qadınları onun göstərişlərinə əməl edər, hörmətini saxlayar, etik normaya uyğun olaraq "ana", "cici" və ya "nənə" deyə müraciət edərdilər.

Bir sıra iqtisadi və siyasi dəyişikliklər, qardaşların müstəqil ailə kimi yaşamağa can atması böyük ailələrin parçalanmasına səbəb olmuş, qohum qrupların – patronimiyanın yaranmasına zəmin yaratmışdır.

Patronimiyaya daxil olan ailələrin məcmusu xalq arasında "nəsil", "tayfa", "tirə" adlandırılırdı. Patronimik ailələrin öz ağsaqqalı və ağbirçəyi olmuşdur. Patronimiyaya aid məsələləri onlar həll edərdilər. Toy-yas mərasimləri, kirvəlik onların məsləhəti ilə həyata keçirilirmiş. Lakin yavaş-yavaş patronimik qruplar arasında dəyişikliklər baş vermiş, bu birlik tədricən əvvəlki funksiyasını itirmiş, zəmanəmizə qədər gəlib çıxmamışdır. Böyük ailələr öz mahiyyətini itirdikdən sonra Qəbələ bölgəsində ailənin əsas formasını kiçik ailələr təşkil edirdi. Kiçik ailələr sadə və mürəkkəb olmaqla iki yerə bölünürdü. Ər-arvad və uşaqlardan ibarət ailə sadə, baba-nənə, ata-ana, uşaqlar və nəvələr olan ailə mürəkkəb ailə hesab olunurdu. Etnoqraflar göstərirlər ki, Qəbələdə mürəkkəb ailələr üstünlük təşkil edib. Evlənən oğulu ata ocağından tez ayırmaq yaxşı qarşılanmırdı. Atanın razılığı olmadan evli oğulun ata ocağından ayrılması və ailə əmlakından pay götürməsi mümkün deyildi. Ata vəfat etdikdə əmlak ana daxil, övladlar arasında bölünərdi. Dul qalan uşaqsız qadına isə cehizindən başqa pay düşməzdi.

Nikah qaydaları. Bəşər övladının həyatında ən əlamətdar hadisə nikahdır. Nikah olmasaydı, bəşəriyyətin taleyinin necə ola biləcəyini təsəvvür etmək çətindir. Ailə məişətinin tərkib hissəsi insanların ictimai birliyinin nikahla tənzimlənməsidir. Heç

şübhəsiz, buna görədir ki, "Qəbələ etnoqrafiyası" kitabında etnoqraf alimlərimiz nikah qaydalarına, onun tənzimlənməsinə geniş yer veriblər. Nikah bəşəriyyət yaranandan mövcud olub və bu gün də az dəyişikliklərlə davam edir. Tarix boyu nikahın müxtəlif formaları olmuşdur. Yadla evlənmə, qohumla evlənmə, təkkəbinlilik, ikiarvadlılıq, nikaha girmədə qızqaçırma lap son zamanlara qədər davam etmişdir.

Qəbələ bölgəsində təkkəbinlilik (təkarvadlılıq) nikahın əsas forması olmuşdur. Lakin az da olsa, ikiarvadlılığa da təsadüf edilmişdir. Buna kişinin birinci arvaddan uşağı olmayanda yol verilirdi. Belə olan halda birinci arvad çıxıb atası evinə gedirdi. Əgər ərinə çox bağlı olsa, ailədə qalıb ikinci arvadla bir yerdə yaşayırdı. Xalq arasında ikinci qadın birinci qadının "günü"sü adlanırdı.

Bəzən belə də olurdu. Uşağı olmayan qadın əhd edərdi, uşağım olsun, qapı-qapı gəzib dilənəcəm. O, uşaq olanda əhdini yerinə yetirərdi. Paltarını dəyişər, özünü tanınmaz hala salar, ən azı 7 qapı olmaqla dilənərdi. Hətta övladının adını **Diləngi** qoyardı.

Görünür, **"dilənçi"** sözünün etimologiyası **diləklə** bağlıdır.

Uşağı olmayan qadınlar ərinin razılığı ilə qardaş və bacılarından övladlığa uşaq götürürdülər. Bu, bir çox bölgələrdə indi də belədir. Hətta qohumluğu çatmayan, lakin dost olan ailədən də uşaq götürür-

dülər. Məsələn, Xalq şairi Qabil dostunun oğlu Mahiri oğulluğa götürüb. Mahir Qabilə əsl oğul kimi qulluq etdi. Gözəl qələmi olan Mahir tez-tez maraqlı yazılarla çıxış edir, Qabili yaşadır, onun ruhunu şad edir.

Qəbələdə udilər istisna olmaqla, qohumla evlənmək də dəbdə olmuşdur. Dayıoğlu ilə bibiqızı, bibioğlu ilə dayıqızı, əmioğlu ilə əmiqızı, xalaoğlu ilə xalaqızının evlənməsinə indinin özündə belə rast gəlinir.

Belə nikahlarla bağlı xeyli sayda deyimlər vardır: "Əmiqızına əmioğlunun dirəyi deyərlər", "And yerim dayım, güvənc yerim oğludur", "Day dursam dayım gələr, oğlundan payım gələr", "Xalam qızı xalım olar, söz qaytarmaz, lalım olar", "Xalaoğlu xallı olar, sevgisi ballı olar", "Xalaqızı xalaoğlunun xoş avazıdır" və s. deyimlər qohumla evlənmə nikahına aydınlıq gətirir.

Azərbaycanın bir çox bölgələrində olduğu kimi, Qəbələdə də "beşikkərtmə" və ya "beşikkəsmə" adəti olub. Bununla da qızla oğlanın kəbini kəsilmiş hesab olunurdu. Bu qız böyüyəndə heç kim ona elçi düşməzdi. Çünki körpəlikdən onun kimə "deyikli" olduğunu bilirdilər.

Qəbələ bölgəsində əhali arasında nikahın elçilik və qızqaçırma forması olmuşdur. Elçilik yolu ilə olan nikah valideynlərin razılığı, xeyir-duası ilə baş verirdi.

Burada bir məsələni xüsusi vurğulamağı münasib bildik. Elçilik vaxtı hər iki tərəf diqqətli olur. Hətta istəkləri baş tutmasa belə, münaqişəyə, ədavətə yol açan ifadələrdən çəkinir, maksimum dözüm göstərirlər. Elçiliyə yalnız ağsaqqalların göndərilməsi, bəlkə də, bununla bağlıdır.

İstəkləri baş tutsa, "ana yolu", "başlıq" məsələsi həll olunur.

Qonşumuz Dürrü xalanın qızı Minirə Gəncədə İbtidai məktəb müəllimi fakültəsini bitirib kənddə müəllimliyə başlamışdı. Dürrü xala Minirəyə görə elçilərdən böyük məbləğ "başlıq" istəmişdi. Elçilər deyəndə ki, kənddə nirx qoymaq olmaz, camaat bizi qınayar, Dürrü xala gözlənilmədən demişdi: "Mən sizə qız deyil, pulkəsən maşın verirəm".

Dürrü xala da, bir neçə övlad anası Minirə də artıq dünyalarını dəyişiblər. Lakin Dürrü xalanın XX əsrin 40–60-cı illər kənd həyatının reallıqlarını tam əks etdirən kəlamı (o vaxt maaş aldıqlarına görə kənddə müəllim və həkim ailələri nisbətən yaxşı dolanırdı) xalq arasında indi də yaşayır. Elçiliyə gedənlər "Pulkəsən maşındırmı?" – deyə Dürrü xalanı yad edirlər...

Qızqaçırma və ya qoşulubqaçma adətinə az təsadüf edilir. Qaçırılma yolu ilə evlənmək qız və oğlanın razılığı ilə olur. Bu cür nikahın bağlanmasına səbəb, əsasən, qızın valideynlərinin iki gəncin evlənməsinə etiraz etmələri olurdu.

Bu adətlə bağlı "Bəyin oğurlanması" filmində gözəl süjet var. Əslində görkəmli aktyorlarımızın iştirak etdiyi maraqlı film bu epizodla bağlı yaranmışdır.

Qızqaçırma adəti Üzeyir bəy Hacıbəylinin dünyaşöhrətli "Arşın mal alan" filmində də özünü göstərir. Qurban Səidin "Əli və Nino" əsəri də qızqaçırma (qoşulubqaçma) adəti üzərində inkişaf edir. Bununla belə, deməliyik ki, qızqaçırma adətini bədii ədəbiyyatımıza əslən qəbələli olan İsmayıl bəy Qutqaşınlı gətirmişdir. Yazıçının çox məşhur "Rəşid bəy və Səadət xanım" hekayəsi 1835-ci ildə Varşavada fransızca çapdan çıxanda hadisəyə çevrildi. Etnoqrafiyaya geniş yer verilən hekayə Avropada yüksək qiymətləndirildi. Nə yaxşı ki, etnoqraf alimlərimiz qızqaçırma adətindən söhbət açanda İsmayıl bəy Qutqaşınlının bu qızıl qiymətli hekayəsinə müraciət ediblər. Hekayədə oxuyuruq: "Ey mənim ruhum! Ey mənim Səadətim... Artıq vaxt yetişdi, bu saat ya verdiyin vədə əməl etməlisən, ya mənimlə əbədilik ayrılığı qəbul etməlisən. Aman, yalvarıram sənə, gün doğmamış gedək. Əgər mənim bu təklifimi rədd etsən, həyatın mənim gözümdə bir qiyməti qalmaz, mən sənin gözünün qabağında bu xəncəri ürəyimə sancaram və sənin ayaqlarını öz qanımla boyayaram. Səadət bu sözləri eşitdikdə və sevgilisinin sinəsinə dirənmiş xəncəri gördükdə "Gedək" – deyə bağıraraq huşsuz düşdü. Bir dəqiqə itirmədən

Rəşid atının üstünə sıçrayaraq sevgilisini də qucağına basıb ata bir mahmız vurdu".

Nikah qaydaları bölümünü oxuyanda gənclik illərim kino lenti kimi gözümün qabağından keçdi. Qəbələ ilə Tovuz rayonunun Düzqırıxlı kəndi arasında çox böyük məsafə olmağına baxmayaraq, adət-ənənələr necə də yaxın və doğmadır. Keçən əsrin 40–50-ci illərində oğlanın öz nişanlısını götürüb qaçması bizdə də baş verirdi. Bu hal oğlan evinin qızın ailəsinə tələb olunan toy və başlıq xərcini ödəməyə gücü çatmayanda baş verirdi. Belə hərəkət bizdə də qınağa çevrilirdi.

Maraqlı cəhət o idi ki, mütləq qaçırılan qızın ailəsi şikayət verirdi. Qız tərəfin nümayəndəsi mütləq qızla görüşürdü. Məlum olanda ki, oğlan onu razılığı ilə qaçırıb, buna **"qoşulubqaçma"** deyirdilər. Qız tərəfin adamları "diligödək" olurdu. Bir müddətdən sonra ağsaqqallar, kəndin nüfuzlu adamları işə qarışır, barışıq əldə edilirdi. Elə hallar da olurdu ki, qız zorla qaçırıldığını, oğlanı istəmədiyini bildirirdi. Belə halda qız tərəfin təkidi ilə qızı ata evinə qaytarırdılar.

Qəbələ bölgəsində, bizdə olduğu kimi, bir-biri ilə barışmaz düşmən olan iki nəslin gənclərindən evlənənlər də olurdu. Aralarında düşmənçiliyə baxmayaraq, hər iki nəslin gənclərinin qarşılıqlı sevgisi onların böyük risk edərək qoşulub qaçmalarına səbəb olurdu.

Namus məsələsinə çox ciddi fikir verilirdi. İbrətamiz bir hadisə heç vaxt yaddaşımdan silinmir. Söhbət əsnasında bir gün atamdan soruşdum ki, dəyirman yolundakı qarağac ağacına niyə **"Qanlı qarağac"** deyirlər.

Məlum oldu ki, kəndxuda Məhəmməd adlı bir gəncin arvadına toxunub. Bir neçə il Məhəmməd namusu ləkələndiyinə görə başına papaq qoymayıb, qadın yaylığı bağlayıb və kənddə "qız Məhəmməd" kimi tanınmağa başlayıb. Bir gün eşidirlər ki, kəndxudanı öldürüb dəyirman yolundakı yaşı bilinməyən qarağacdan asıblar. Ondan sonra Məhəmməd başına papaq qoyub və xalqın gözündə qəhrəmana çevrilib. Həmin ağac isə "Qanlı qarağac" adı ilə tarixə keçib. Dəfələrlə öz gözlərimlə gördüyüm "Qanlı qarağac" keçən əsrin 60-cı illərinə qədər həmin ibrətamiz hadisəni yaşadırdı.

Toyla-namusla bağlı bir məsələdən də söz açmaq istərdim. Nadir olsa da, toy gecəsi bakirə çıxmayan gəlinin başını qırxıb atası evinə göndərmək kimi müdhiş hadisə də olub.

Dilimizdəki qarğış mahiyyətli "Saçı kəsilmiş" və ya "Saçın kəsilsin" ifadələri bu hadisə ilə bağlı yaranmışdır.

Toy adətləri Azərbaycanın bütün bölgələrində, eləcə də müəyyən tarixi-siyasi hadisələr nəticəsində İraqda yaşayan soydaşlarımızda olduğu kimi, Qəbələdə də "qızbəyənmə"dən başlayır və bir neçə

mərhələdən keçir. Toy mərhələləri "qızbəyənmə", "elçilik", "nişan", "paltarbiçdi", "xınayaxdı", "kəbinkəsmə", "toy" və "gəlingörmə"dən ibarət olmuşdur.

Toyun "qızbəyənmə" mərhələsindən başqa, yerdə qalanları keçmişdə olduğu kimi indi də həyata keçirilir.

Çox vacib mərhələ olan "qızbəyənmə" "araçı" qadınlar vasitəsi ilə nizamlanırdı. İsmayıl bəy Qutqaşınlının "Rəşid bəy və Səadət xanım" hekayəsində XIX əsrin birinci yarısında "qızbəyənmə" mərhələsi gözəl təsvir edilmişdir.

Toyun bütün mərhələlərini "Qəbələ etnoqrafiyası"ndan göründüyü kimi, etnoqraflarımız kiçik detalına qədər tədqiq etmiş, gələcək nəsillərə ərməğan etmişlər. Toy günü xonça düzəldib bəylə gəlinin otağına qoymaq adəti də olub. Xonçada şirniyyat və quru çərəz olardı.

Burada çox maraqlı **"bəy şaxı", "oğlan şaxı"** və **"bəzədilmiş fərə"** adətindən söz açmaq yerinə düşər. Bu adət çox az bölgələrdə mövcuddur. "Bəy şaxı" və təzəcə yumurtlamağa başlayan "bəzədilmiş fərə" adəti toyun tərkib hissəsi kimi Azərbaycanın Naxçıvan bölgəsində indinin özündə də dəbdədir.

Bu adətlə 2019-cu ildə nəvəm Nərminənin toyunda üzləşdik. Naxçıvanda ziyalılığı ilə seçilən oğlan tərəf xəbər göndərdi ki, "oğlan şaxı" və "bəzədilmiş qızılı rəngli fərə" hazırlamağı unutmayaq.

"Bəy şaxı"nı "Bəyin oğurlanması" filmində görmüşdük. Artıq təsəvvürümüz vardı. **"Bəzədilmiş qızılı rəngli fərə"** adəti barədə ilk dəfə idi eşidirdik.

Budaqları qırmızı, ağ, sarı almalarla, başqa meyvələrlə, şirniyyatla bəzədilmiş "bəy şaxı"nı gəlini toy məclisinə aparanda bəyin sağdışı, "bəzədilmiş qızılı rəngli fərə"ni isə bəyin soldışı götürdü.

Arzu, istək, dilək və inamla bağlı bu adət yaranışla bağlıdır. "Bəy şaxı" və "bəzədilmiş fərə" yaranışın rəmzidir.

Bilmirəm bu adətin, inamın xeyri nə qədər oldu?! Bir onu bilirəm ki, doqquz aydan sonra nəvəm hamımızın hədsiz sevincinə səbəb olan bir oğlan bəxş etdi bizlərə. Körpəyə ata babasının adını qoyduq – Rövnəq.

Təəssüflə qeyd etmək istərdim ki, şəhər toylarında ənənəvi toylarımızda icra olunan adətlər unudulub.

Bölgələrdə indi də dəbdə olan toyun sonuna yaxın bəyin tərifləmə şəhər toylarında aradan çıxıb. Şəhər toyları diskotekaya dönüb. Hər şey bayağılaşıb. Hətta müğənnilər fonoqram oxuyurlar. Kəndlərdə hər şey nisbətən canlı və maraqlı olur.

Toylarda aşıqlar və ya xanəndələr tərəfindən bəyin tərifi, toyun yaddaqalan mərhələlərindəndir. Etnoqraflarımız bunu "Qəbələ etnoqrafiyası"nda yüksək qiymətləndirmişlər. Toyun məğzini ifadə edən poeziya nümunəsi deyilənləri təsdiqləyir:

Gəldin çıxdın sən də bəylik taxtına,
Gözəl bəyim, toyun mübarək olsun.
Bu gün sən də məqsədinə yetişdin,
Görüm, ay bəy, toyun mübarək olsun!

Xonçana düzülüb noğulnan badam,
Çalınan toyuna ürəkdən şadam.
Başından tökülsün var-dövlət müdam,
Görüm, ay bəy, toyun mübarək olsun!

Mütləq gəlini də tərif edərdilər. Qız tərifi ilə bağlı bir bəndi verməyi münasib bildik:

Üzüklü barmağın, hənalı əlin,
Qızım, ilk bəzəyin, zinətin olsun.
Bu gün nişanlısan, sabah bir gəlin,
Bir gün də analıq qismətin olsun!

Bir qayda olaraq, oğlan toyu ayrı, qız toyu ayrı olardı. Aşıqlar toyun axırına yaxın bəyi, dostlarını, yaxın qohumlarını tərif edib nəmər alardılar. Qız toyunda isə qızı, valideynlərini, əmilərini, dayılarını, bibilərini, xalalarını tərif edib, hər birindən ayrılıqda nəmər diləyərdilər. 1926-cı ildə Xurşid xalamın toyunda Aşıq Hüseyn Bozalqanlı "Xurşid" adlı qoşma ilə xalamı tərif edib nəmər almışdı:

Camalın şöləsi nuri-münəvvər,
Çıraqban eyləyib mahalı, Xurşid!

Açıldı niqabın ay qabağından,
Aldı başdan ağlı, kamalı Xurşid!

Sərv kimi sığal verib anası,
Guşunda guşvarə, qızıl tanası.
Bağçalar bülbülü, göllər sonası,
Dağların ceyranı, maralı Xurşid!

Əzəldən alimlər, arif olanlar,
Müşküldü görməyə göydə mələklər.
Qaməti sərvdi, sinəsi mərmər,
Qaşları qüdrətin hilalı, Xurşid.

Sağdışı Mələkdi, var toy-büsatı,
Anası Nazanı, Həmzədir zatı.
Hüseyn deyər, budur qızın qiyməti,
Min tümən başlıqdı, bahalı Xurşid!

Babam Həmzə və nənəm Nazanını qoşmaya salmaqla Aşıq Hüseyn kökə bağlılığı ön plana çəkmişdi. Bu, təsadüfi deyildi. Həqiqətən də, Azərbaycanda ailəyə, kökə bağlılıq son dərəcə güclüdür. Nəvələrə baba və nənələrin adını vermək buradan qaynaqlanır. Başqa bir misal.

Xalq şairləri Osman Sarıvəlli, Nigar Rəfibəyli, Hüseyn Arif, Xalq yazıçısı Əzizə Cəfərzadə və akademik Bəhram Əsgərovun Fəxri Xiyabanda qanunla təsbit edilmiş halalca yeri olduğu halda, Osman Sarıvəlli Qazaxda öz doğma kəndində, ata-anasının

yanında, Nigar Rəfibəyli ümumi qəbiristanlıqda anası Cəvahir xanımın yanında (Nigar xanımın II Fəxri Xiyabanda dəfn olunması barədə qərar da çıxmışdı), Hüseyn Arif Ağstafada oğlu Arifin yanında, Əzizə Cəfərzadə Qazıməmməd rayonunun Tağılar kəndində ata-anasının ayağının ucunda (o vaxt Hacıqabulun İcra Başçısı kürəkənimin əmisi Firidun Babayev idi. Xahiş etdim ki, Tağılar məktəbinə Əzizə xanımın adını versinlər. İndi məktəb Əzizə xanımın adını daşıyır), akademik Bəhram Əsgərov ümumi qəbiristanlıqda həyat yoldaşı Almaz xanımın yanında basdırılmağı vəsiyyət etmişdilər.

Onların son arzuları yerinə yetirildi.

Bu böyük insanlar könüllü olaraq ümumxalq ziyarətindən məhrum oldular.

Lakin nə qəm. Xalq qarşısında xidmətləri olan ləyaqətli insanlar harada dəfn olunsa, o torpağı şərəfləndirirlər.

İsmayıl bəy Qutqaşınlı Qəbələdə Sultan baba qəbiristanlığında torpağa tapşırılıb. Azərbaycan ədəbiyyatında hekayə janrının əsasını qoyan, general İsmayıl bəy Qutqaşınlı bu qəbiristanlığı şərəfləndirib. Odur ki bu məzarlıq Azərbaycanda elm və ədəbiyyat aləmində yaxşı tanınır.

Yas mərasimi. Yas mərasimi və dəfn adəti ailə məişətinin tərkib hissəsi kimi qədim tarixə malikdir. Arxeoloji qazıntılar göstərir ki, tarixin

müxtəlif dövrlərində dəfn fərqlənmişdir. Burada üzə çıxarılan sadə torpaq, gil təknə, daş qutu, katakomba və küp qəbirləri deyilənlərə əyani sübutdur. "Qəbələ etnoqrafiyası"ndan məlum olur ki, sadə torpaq qəbirləri xam torpaqda dördkünc formada qazılmış, döşəmə və yan divarları gil məhlul ilə suvanmışdır. Torpaq qəbirlərdə ölülər bəzən böyrü üstə və ya bükülü, nadir hallarda isə uzadılmış halda dəfn edilmişdir. Bu, eramızdan əvvəl III–I əsrlərə aiddir.

Gil təknə qəbirlər bişirilmiş gildən hazırlanar, dördkünc və ya oval olardı. Bu qəbirlərdə ölülər böyrü üstə müxtəlif səmtlərdə dəfn edilmişdir.

Qəbələ ərazisində katakomba qəbirləri də üzə çıxarılmışdır. Bu qəbirlərdə ölüləri taxta qutu və ya küplərdə dəfn edirlərmiş. Qəbirlərə əmək alətləri, silahlar, bəzək əşyaları, şüşə məmulatları qoyulduqdan sonra ölünü məzara qoyur, kameranın ağzını daşla və ya kərpiclə örtürdülər.

IX əsrdən etibarən Qəbələnin ictimai həyatında islam dini bərqərar oldu və ölüləri sadə torpaq qəbirlərdə üzü gündoğana – qibləyə tərəf qoyaraq dəfn etməyə başladılar. Mərhumun üçü, yeddisi, adnaları (cümə axşamları), qırxı və ilində evdə ehsan verilərdi. Həmin günlər (adnalardan başqa) yas mərasimləri keçirilərdi. Qadınlar yığışıb ağı deyər və ağlaşardılar.

Ağı lap qədim zamanlardan mövcud olan, ölümlə, yasla, matəmlə bağlı yaranan dərd, ələm, qəm, qüssə, kədər ifadə edən mərasim mənşəli janrdır.

Əvvəllər məşhur şəxslərin, dövlət adamlarının, elm və sənət xadimlərinin ölümü münasibəti ilə yazılırdı. Albaniya hökmdarı Cavanşir qətlə yetirilləndə (yeni eranın 681-ci ili) şair Dəvdək qəlblərə od salan ağı yazmışdı. Əsərin I fəslində həmin ağının müəyyən hissəsini vermişik. Burada müqayisə üçün sonuncu bəndi veririk:

Mənim ağım nə qu quşu, nə də pəri nəğməsidir,
Qatarından ayrı düşən bir durnanın naləsidir.
Yetim qalıb bizim şəhər, kövrəkləşib qədim Qala,
Uzun illər görməmişdik bu cür kədər, bu cür bəla.

Elə indi də görkəmli şəxsiyyətlər vəfat edəndə onlara ağı-mərsiyə həsr edirlər. Yaradıcılığı sahilsiz ümmana bənzər dahi Üzeyir bəyin vəfatı münasibəti ilə Səməd Vurğunun yazdığı və dəfn mərasimində oxuduğu şeir bu baxımdan səciyyəvidir:

Ölüm sevinməsin qoy, ömrünü vermir bada
El qədrini canından daha əziz bilənlər.
Şirin bir xatirətək qalacaqdır dünyada
Sevərək yaşayanlar, sevilərək ölənlər...
Mən bu kiçik şerimi yazıram göz yaşımla,
Çünki vidalaşıram bir könül sirdaşımla.

Az şair tapılar ki, böyük şəxsiyyətlərin, dostların, xüsusən də həyatdan kam almayan gənclərin qəfil ölümünün yanğısından kədərlənib mərsiyə-ağı yazmasın.

Dünya bina olandan qəm yükünü daşımaq şairlərin alın yazısı, qismət payı olmuşdur. Şair Hüseyn Kürdoğlunun üzüntü və göz yaşları ilə yazdığı "Hər şəhid bir nəğmədir" adlı ağılar kitabı ürək ağrısı ilə oxunur: "Yadigarım, a laylay" ağısından bir bəndi veririk:

Sızıldaram beşiyinin başında,
Eşqimizdən ilk nübarım, a laylay.
Yetim qaldın, təzə gəlin yaşımda
Təkcə balam, təkcə barım, a laylay,
Yadigarım, a laylay.

Yas mərasim və nəğmələri sayca çox, məzmunca rəngarəng olmuşdur. Bu, yas mərasimlərinin bütün ölülər üçün keçirildiyi ilə əlaqədardır. Onlar həm nəsr, həm də nəzm formasında mövcuddur.

Ağılar ailənin məruz qaldığı fəlakəti, az öncə sönən həyatı, ailənin çəkdiyi ələm və acıları canlandırır.

Qadınlar ailəyə üz vermiş kədərlə bağlı "Vay, atam, vay", "Vay, anam, vay, vay", "Vay, balam, vay" və s. ölənə uyğun gələnini deyərək ağıya başlayırlar.

Bölgələrdə yas mərasimlərinə "ağıçı" adlanan qadınlar dəvət olunurdular (elə indi də belədir). Ağıçı qadın mərhuma münasib ağılar deyir, qadınlar acı-acı ağlayırlar.

Ağı deməzdən əvvəl rəhmətə gedənin yasına, peşəsinə, həyatda tutduğu mövqeyinə, mənsəbinə, ölən cavandırsa, gözəlliyinə, boy-buxununa, səxavətinə, qəhrəmanlığına, şan-şöhrətinə uyğun sözlər sadalanır, sonra ağılara keçilir.

Məhz buna görədir ki, bütün bölgələrdə, o cümlədən də Qəbələ kəndlərində ağılar həm nəzm, həm də nəsr formasında olur. Alimlərimiz "Qəbələ etnoqrafiyası" əsərində nəsr şəklində olan ağılara nümunələr vermişlər. Məsələn: "Ölümüylə belimizi qıran, gözümüzü kor edən ata, laylay. Bizi yetim qoyub gül yanağımızı solduran ata, layla" və s.

Mirzə Abbaszadənin "Arvad ağısı...laylay..." kitabından götürdüyümüz nümunəni burada verməyi münasib bildik: "Açılmayan tüfəngin, siyrilməyən xəncərin öz canına qurban. Ay kimi doğdun, gün kimi batdın, minəndə at bağrı yardın, düşəndə yer bağrı yardın, saydığına salam verdin, saymadığına yan verdin, düşməninə dirsək göstərdin, qəniminə qan uddurdun. Altının bədöv atına, çiyninin süzən tüfənginə, tərkinin dolu xurcununa, ağzının kəsərli sözünə anan qurban, ay bala".

Bununla belə, deməliyik ki, nəzm şəklində olan ağılar daha təsirli olub əksəriyyət təşkil edir:

Qazan ağlar;
Od yanar, qazan ağlar.
Burda bir qərib ölüb,
Qəbrini qazan ağlar.

Zəmanədən, gərdişdən, fələkdən, ayrılıqdan bəhs edən, qəm üstə qəm gətirən, yasa yığılan qadınları haldan-hala salan, ürəklərinə od salıb dil-dil ağladan ağıları peşəkar "ağıçı" qadın avazla oxuyur:

Verən sən; *Bala, vay;*
Alan sənsən, verən sən. *Bal yemədim, bala, vay.*
Gah evlər bəzədirsən, *Çöp yığdım, yuva qurdum,*
Gah edirsən viran sən. *Uçurtmadım, bala, vay.*

Bəzən yas mərasimlərində bayatı layla və oxşamalardan da istifadə edilir.

Ağılar İraqda yaşayan soydaşlarımız arasında xoyratlar qədər geniş yayılmışdır. Onlarda da qəm, qüssə, kədər, göz yaşı, dərin həsrət motivləri, bədbinlik əhvali-ruhiyyəsi məqamına görə çox təsirli olur.

Dünyasını dəyişmiş gənc oğlanın anasının dediyi iki ağını verməklə kifayətlənirik:

Bağça-bağda gül ağlar, *Qənşərdə bütxana var,*
Bülbül ağlar, gül ağlar. *Ləli, yaqutxana var.*
Oğlu ölən analar *Gedirsən, işıq apar,*
Başa tökər kül, ağlar. *Orda zülmətxana var.*

Son olaraq atalardan qalma, nəsildən-nəslə keçən, "Qəbələ etnoqrafiyası"ndan götürdüyüm ibrətamiz bir məqamı da məmnunluqla qeyd etməyi borc bildim: "Qəbələdə təsərrüfat işlərində, məhsul yığımında, xalça toxunmasında, ev tikintisində, toy-nişan mərasimlərində və s. olduğu kimi, yas mərasimində də əhali heç bir təmənna gözləmədən mərhumun ailəsinə köməklik göstərərdi".

İndi də əsrlər öncə olduğu kimidir. Xüsusən də şəhərlərdə az təsadüf edilən mehribanlıq, diqqət və canyanğısı kəndlərdə təmənnasızdır. Sidqi-qəlbdən adamın dərdinə şərik olmağı borc hesab edirlər.

"Mənəvi mədəniyyət" adlanan VI fəsildə "Xalq bayramları", "Xıdır Nəbi" xalq bayramı, "Novruz bayramı", "Qurban bayramı", "Ramazan bayramı", "Təhsil", "Qutqaşen məktəbi", "Nic məktəbi", "Bum məktəbi", "Vəndam məktəbi", "Qəbələdə təhsil müasir dövrdə", "Elm", "Xalq təbabəti və səhiyyənin inkişafı", "Qəbələ səhiyyəsi XXI əsrdə" və s. kimi məsələlər tədqiqat obyektinə çevrilir. Burada qədimliklə müasirlik çulğalaşır. "Təhsil", "Məktəblər", "Səhiyyə", "Elm" bölmələri "Qəbələ tarixi" əsərində tədqiq edildiyindən burada təkrar təsiri bağışlayır...

"Qəbələ etnoqrafiyası"nda xalq bayramlarına xüsusi həssaslıqla yanaşılmışdır. Çünki dünyəvi bayramlarla (Xıdır Nəbi və Novruz bayramı) dini

bayramlar (Ramazan (orucluq) və Qurban bayramları) bir yerdə araşdırılır. Bundan əlavə uzun bir zaman kəsiyində Novruz mövsüm bayramına dini bayram damğası vurulmuşdu.

Xıdır Nəbi və ya "Xıdır İlyas" adlandırılan bayram Qəbələdə 20 gün ömrü olan kiçik çillənin birinci ongünlüyündə – fevral ayının əvvəllərində qeyd edilirdi. Xıdır Nəbi mərasim süfrəsinin atributları səməni, qovurğa, qovut, boyanmış yumurta, xəşil və s. idi.

Novruz bayramı Azərbaycanın bütün bölgələrində səbirsizliklə gözlənilən milli bayram olmuşdur. Orta əsrlərdə çox yüksək səviyyədə keçirilərmiş. Bayram vaxtı insanlar məmur və əyanlara hədiyyələr verərdilər. Hər yanda şənliklər keçirilərdi. Kəndirbazlar, pəhləvanlar öz bacarığını göstərərdilər. Xanəndələr, aşıqlar oxuyar, oyun havaları çalınar, rəqs edərdilər. Akademik Teymur Bünyadovun göstərdiyi kimi, "Novruzu" oyun havası o vaxtdan qalmadır.

Qəbələdə Novruz ən arzuolunan bayramdır. Novruz bayramına kimi dörd çərşənbə qeyd edilərdi. Birinci çərşənbəni "Muştuluqçu", "Toz", "Yel"; ikinci çərşənbəni "Su çərşənbəsi" və ya "Sular çərşənbəsi"; üçüncü çərşənbəni "Torpaq çərşənbəsi" və ya "Güc çərşənbəsi", "Ata-baba günü"; dördüncü çərşənbəni isə "İlaxır çərşənbə" adlandırardılar.

Hər çərşənbədə özünəməxsus şənliklər olardı. "Qəbələ etnoqrafiyası"nda Novruz bayramı, çərşənbələr gözəl təsvir edilib. Qurban bayramı və Ramazan bayramı da araşdırılıb. Bu bayramların keçmişindən və indisindən söz açılıb. Hər bir bayram münasibəti ilə poeziya nümunələri verilib.

Bu fəsildə təhsilə də geniş yer verilib. "Qəbələ tarixi" əsərində təhsildən bu və ya başqa məqamda ətraflı danışıldığına görə burada XIX əsrin sonlarına yaxın fəaliyyətə başlayan "Qutqaşen məktəbi" (1882-ci il), "Nic məktəbi" (1854-cü il), "Bum məktəbi" (1879-cu il), "Vəndam məktəbi" (1883-cü il) kimi ibtidai məktəblərin, təhsil ocaqlarının əhalinin savadının artırılmasında, təhsilin inkişafında böyük xidmətlərini qeyd etmək istərdim. Qəbələlilərin qürur mənbəyinə çevrilən bu məktəblər o zaman üçün inanılmaz fəaliyyət göstəriblər. "Qəbələ etnoqrafiyası"nda bu məktəblərdə dərs deyən müəllimlər və direktorlardan söz açılır, onların əməyi yüksək qiymətləndirilir.

Kitabın **"Elm" bölümü** yığcam şəkildə Qəbələdən çıxmış görkəmli alimlərin həyat və yaradıcılıqlarına həsr olunub. Kitabda professor Muxtar Abduyev, Bayram Ağayev, Qara Əhmədov, Vaqif Əhmədov, Xalid Əlimirzəyev, Xəlil Əlimirzəyev, Əbdülsəid Əzizov, Müxlis Hacıyev, Firudin Haşımzadə, Dursun Hüseynov, Elxan Kərimov, Ələkbər Kərimov, Minirə

Qarayeva, Saleh Qazıyev, Firudin Qədirov, Cahangir Qəhrəmanov, Vahid Qəhrəmanov, Voroşil Qoasari, Fərman Mahmudov, Məcid Mərdanov, Ümnisə Musabəyova, Yusif Musabəyov, Musavər Musayev, Qaryağdı Səfərəliyev, Əddin Şakirzadə, Baloğlan Şərifzadə, Abid Tahirli, Ədalət Tahirzadə, Yadigar Yunusov kimi görkəmli şəxsiyyətlərin Azərbaycan elminə gətirdiyi yeniliklərdən bəhs edilir.

"Qəbələ tarixi" kitabına həsr etdiyim "Qəbələ keçmişdə və günümüzdə" adlı I fəsildə bu görkəmli alimlərin arasından çıxan iki nəfər alim-şair – professor Muxtar Abduyev və professor Qara Əhmədovun elmi və poeziya yaradıcılıqlarından geniş danışmışıq.

"Qəbələ etnoqrafiyası"nda nəinki Qəbələnin, eləcə də ölkəmizin inkişafında xidmətləri olan Ulu Öndərimizin silahdaşları Kamil Məmmədov, Musa Məmmədov, Respublika Ağsaqqallar Şurasının sədri, Qəbələdən deputat olmuş rəhmətlik Fəttah Heydərov kimi görkəmli şəxsiyyətlərə yer verilməsi təqdirəlayiqdir. Təkcə Qəbələyə deyil, bütün ölkəyə şan-şöhrət gətirən belə insanları unutsaq, unudularıq.

Onların üçü də vətənə və xalqa sədaqətlə xidmət etmiş insanlar kimi tarixə düşüblər. Niyyəti, əməli xalqa xidmət olan belə insanlar heç vaxt unudulmur, həmişə ehtiramla yad edilir.

Ədəbi yaradıcılıq. XIV–XV əsrlər Azərbaycan ədəbiyyatı tarixində bir mərhələdir. Bu zaman kəsi-

yində heyrətamiz poeziyası ilə dövründən çox yüksəkdə duran, dili, ifadə tərzi, fəlsəfi fikirləri ilə şöhrət qazanan İmadəddin Nəsimi Azərbaycan türkcəsini hakim ərəb-fars dilləri səviyyəsinə qaldıra bilmişdi. Bu, böyük xidmət idi.

Həmin dövrdə yazıb-yaradan şairlərdən biri də Bədr Şirvani olmuşdur. Şairin haqqında ən dəqiq məlumatı onun öz "Divan"ından almaq olur. "Divan"dakı məlumata əsasən onun 1387-ci ildə Şamaxıda anadan olduğu məlum olur. Bədr Şirvani Nəsiminin müasiri olduğu halda, Nəsiminin adını çəkmir. O, Şirvanşah Şeyx İbrahimə ünvanladığı mədhiyyədə özünü belə təqdim edir: "Xaqani getdi, indi xaqanın məddahı mənəm. Bu gün söz elmində mənə tay yoxdur. Mən nə Məlhəmdənəm, nə də o kənd təbiətli adamlardanam. Şamaxı torpağında doğulmuşam. Şirvan taxtı mənim yerimdir".

Yaradıcılıq böyük aldanışdır. Xəyalpərəst şairin özü haqqında böyük fikirdə olması bununla bağlıdır.

Burada bizi maraqlandıran əhəmiyyətli məsələ şairin Nəsimini Şamaxılı hesab etmək istəməməsidir. Nə isə... Bu, başqa bir mövzunun söhbətidir.

Şair Bədr Şirvani sonralar taleyini Qəbələ şəhəri ilə bağlayır. O, Qəbələ hakimi Əmir Şücaəddin Ərdəşirə yazdığı 268 beytdən ibarət mədhiyyəsinin

22 beytini Qəbələ şəhərinin tərifinə həsr etmişdir. Bu beytlər qədim Qəbələ şəhərinin XV əsrin 1-ci yarısındakı vəziyyətini öyrənmək baxımından böyük əhəmiyyət kəsb edir.

Bədr Şirvaninin "Divan"ının 50 beyti Azərbaycan dilindədir.

Burada diqqətimi çəkən, ədəbiyyat aləmi üçün əhəmiyyətli olan bir məsələdən söz açmaq istərdim. AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Azərbaycan ədəbiyyatı tarixi"nin III cildinin "Xülasə"sini ingilis dilinə tərcümə edəndə, tərcümə etibarlı alınsın deyə kitabı başdan-başa diqqətlə oxudum. Təvazökarlıqdan kənar olmasın, tərcümə pis alınmadı (bax: "Azərbaycan ədəbiyyatı tarixi", III cild. Bakı, "Elm", 2009, s.720–733). Əsəri oxuyarkən şair Bədr Şirvaninin (1387–1450) taleyi məni düşündürdü.

Kitabda yazılmışdır: "Şairin harada dəfn olunduğunu qəti şəkildə demək çətindir. Güman ki, o öz doğma yurdu Şamaxıda, yaxud Şirvanşahların o zamankı paytaxtı olan Bakıda vəfat etmiş və elə həmin şəhərdə də dəfn olunmuşdur".

"Qəbələ keçmişdə və günümüzdə" kitabımın üzərində işləyərkən öyrəndim ki, şair Qəbələdə Həzrə qəbiristanlığında dəfn edilmişdir. O da məlum oldu ki, Bədr Şirvaninin elm aləminə məlum olan yeganə "Divan"ı Özbəkistan EA-nın Əbu Reyhan

Biruni adına Şərqşünaslıq İnstitutunda mühafizə olunur.

Bu məqamda milli-mənəvi dəyərlərimizə laqeyd münasibət göz önünə gəlir. Belə olmasaydı, dahi Nəsirəddin Tusinin qəbrini ölümündən 750 il sonra XX əsrin sonunda aşkarlamazdıq. Azərbaycan poeziya dilini ərəb, fars dilləri səviyyəsinə qaldıran bənzərsiz şairimiz Nəsiminin qəbrini isə ölümündən 550 il sonra, 1968-ci ildə milli düşüncəli, vətənpərvər şairimiz Rəsul Rza aşkar etdi.

"Qəbələ etnoqrafiyası"nın xidmətləri ölçüyəgəlməzdir. Onun böyük xidmətlərindən biri də oxuculara, hətta klassik ədəbiyyatla məşğul olan tədqiqatçılara məlum olmayan qəbələli şairləri təqdim etməsidir.

Bir daha təsdiq olunur ki, XIX əsrdə Qəbələ Azərbaycan ədəbiyyatına İsmayıl bəy Qutqaşınlı, Molla Güli Zalami, Abdulla Qutqaşınlı, Yusif Vəndami, Molla Əyyub, Molla Bədrəddin, Aşıq Daşdı kimi görkəmli şəxsiyyətlər bəxş etmişdir. Biz onlardan ədəbiyyata yeniliklər gətirən İsmayıl bəy Qutqaşınlıdan söhbət açmaq istərdik.

Azərbaycan ədəbiyyatı tarixində "Rəşid bəy və Səadət xanım" hekayəsi ilə realist nəsrin, "Səfərnamə" əsəri ilə publisistikamızda səyahət oçerkinin əsasını qoyan İsmayıl bəy Qutqaşınlının (1806–1861) həyat yolu çox maraqlı olmuşdur. Gənc yaşlarında

Peterburq kadet məktəbini bitirmiş, Rusiyada qısa müddət ərzində hərbi sirləri öyrənmiş, Qafqazda və Polşada xidmət etmiş, az vaxtda general rütbəsinə layiq görülmüşdür.

Maraqlıdır ki, 1835-ci ildə Varşavada fransızca nəşr olunan "Rəşid bəy və Səadət xanım" hekayəsi yoxa çıxmışdı. İsmayıl bəyin öz dəst-xətti ilə Xan qızı Natəvanın həyat yoldaşı Xasay xan Usmiyevə bağışladığı "Rəşid bəy və Səadət xanım" 1932-ci ildə Salman Mümtaz tərəfindən Bakıda tapılmış, Azərbaycan dilinə tərcümə edilmiş və çap olunmuşdur. İsmayıl bəy Qutqaşınlının "Səfərnamə" əsərinin əlyazması isə 1978-ci ildə Qəbələnin Həmzəli kəndindəki qədim Şıxbaba pirindən tapılmışdır.

İsmayıl bəy Qutqaşınlı Qasım bəy Zakirlə, M.Nadimlə dostluq etmiş, Xasay xan Usmiyev, Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundovla yaxın münasibətdə olmuşdur. M.F.Axundov yazıçının "Rəşid bəy və Səadət xanım" hekayəsini yüksək qiymətləndirmişdir.

İsmayıl bəy Qutqaşınlı iki dəfə Həcc ziyarətində olmuşdur. Birinci ziyarəti 1852–1854, ikinci ziyarəti isə 1859–1860-cı illərdə baş tutmuşdur. İsmayıl bəy Qutqaşınlı 1861-ci ildə Ağdaşda karvansarayda dəm qazından zəhərlənərək dünyasını dəyişmiş, Qutqaşenə gətirilərək Sultan baba qəbiristanlığında dəfn edilmişdir.

XX əsr şair, yazıçı və tərcüməçilərindən İbrahim bəy Musabəyov, Hayk Qoasarı, Muxtar Abduyev, Tacəddin Şahdağlı, Qara Əhmədov, Əşrəf Hacıyev, Şərif Tahirli, Georgi Keçari, İlham Abduyev, Yaşa Udin, Aygün Həsənoğlu, Ramin Məmmədov, İttifaq Mirzəbəyli, Malik Rəcəb, Tofiq Vəndamlı, Rüstəm Rüstəmov, Xanlar Qutqaşınlı, Emin Baratoğlu və başqaları Qəbələnin şöhrətinin artmasında kimi az, kimi çox xidməti olan qələm sahibləridir.

Qəbələnin görkəmli alimlərindən yalnız ikisi anadan həm də şair doğulub. Onları fərqləndirmək hamının vicdan borcudur. Yaradan özü onları seçilmişlərdən edib. Anadan şair doğulan bu iki fitri istedad sahibi Muxtar Abduyev və Qara Əhmədovdur. Bu iki istedadlı şairin həyatı, elmi və poeziyası haqqında əlinizdəki əsərin "Qəbələ keçmişdə və günümüzdə" adlı fəslində geniş danışdığımızdan, şeirlərindən seçmə nümunələr verdiyimizdən burada təkrara ehtiyac duymadıq.

Qəbələ səhiyyəsi XXI əsrdə. XXI əsrin ilk qərinəsində (rübü) Azərbaycanın bütün bölgələrində olduğu kimi, Qəbələdə də səhiyyənin inkişafı və əhalinin sağlamlığının qorunması sahəsində ciddi addımlar atılmışdır. Yeni səhiyyə obyektləri tikilmiş, müasir tibbi avadanlıqlarla, yüksəkixtisaslı kadrlarla təmin edilmişdir. Təsadüfi deyil ki, 2008-ci ilin sentyabrında Qəbələ Müalicə Diaqnostika Mərkə-

zinin açılışında Prezident İlham Əliyev demişdir: **"Artıq 10 rayonda bu cür səhiyyə ocaqları yaradılıb və Qəbələdə belə bir mərkəzin istifadəyə verilməsi əhaliyə səhiyyə xidmətinin səviyyəsini yüksəldəcək, xəstələrin Bakıya getməsinə ehtiyac qalmayacaq, burada mürəkkəb cərrahiyyə əməliyyatlarının keçirilməsi mümkün olacaqdır"**.

Hazırda Qəbələdə Rayon Mərkəzi xəstəxanası, poliklinika və uşaq poliklinikası, qadın məsləhətxanası fəaliyyət göstərir. Mərkəzi Rayon xəstəxanasında 730-dan artıq işçi çalışır. Onlardan 138-i həkim, 364-ü orta tibb işçisi, 230 nəfəri isə kiçik tibb işçisidir. Həkimlər arasında tibb üzrə fəlsəfə doktorları və Azərbaycan Respublikasının Əməkdar həkimləri vardır.

Rayonun Nic, Vəndam qəsəbələrində və Hacıalılı kəndində hər birində 25 çarpayılı kənd sahə xəstəxanaları, Mirzəbəyli, Zalam, Bum, Tüntül, Mıxlıqovaq və Tikanlı kəndlərinin hərəsində 5 doğum çarpayılıq kənd həkim ambulatoriyası və 36 feldşer-mama məntəqəsi əhaliyə xidmət göstərir. Bu tibb məntəqələrində 178 həkim, 460 orta tibb bacısı çalışır. 2014-cü ildə açılan Yengicə İstisu Müalicə Sağlamlıq Kompleksi fəaliyyət göstərir.

Deyirlər, sağlam bədəndə sağlam ruh olar. Gənclərin idmanla məşğul olması və bədənlərini möhkəmləndirmək, sağlamlıqlarını qorumaq üçün

2011-ci ildən fəaliyyət göstərən Qəbələ Olimpiya İdman Kompleksinin, "Qəbələ Futbol Akademiyası"nın işi də təqdirəlayiqdir.

Əhalinin sağlamlığı naminə dövlətin qayğısı nəticəsində görülən möhtəşəm işlər göz qabağındadır. Bir daha bu möhtəşəm işlərin həyata keçməsində Qəbələ rayonunun İcra Hakimi hörmətli Səbuhi Abdullayevin gərgin əməyini xüsusi qeyd etmək istərdik.

Respublikanın başlıca sərvətlərindən biri, bəlkə də, ən başlıca sərvəti qədimlərdən bu torpaqlarda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan müxtəlif dinlərə etiqad edən insanlardır.

HEYDƏR ƏLİYEV



III FƏSİL
BİTİB-TÜKƏNMƏYƏN İNCİLƏR XƏZİNƏSİ

Folklorşünaslıq bir elm sahəsi kimi xalqın mənəvi dünyasını öyrənir.

Folklor ingilis sözü olub, "folk" – xalq, "lore" – şifahi ədəbiyyat mənasında işlənir və hər ikisi eyni hüquqa malik "şifahi xalq ədəbiyyatı" və "folklor" terminləri elmi dövriyyəyə daxil olmuş və sabitləşmişdir.

Folklor xalqın ən böyük milli sərvətlərindəndir. O, sözün həqiqi mənasında, xalqın ruhu, psixologiyası, tarixidir. Onun istək və arzularının, təsəvvür və təfəkküründün, mənəvi aləminin güzgüsü, bitib-tükənməyən incilər xəzinəsidir. Hələ bu az imiş kimi, folklor Şərq müdriklərinə öz sərrastlığı və dəqiqliyi ilə seçilən elə bir hikmət bəxş etmişdir ki, eşidənlər bir yandan mat qalır, digər tərəfdən də ona pərəstiş edirlər.

Folkloru bilmədən xalqın psixologiyasını, onun əsl tarixini, bəşər tarixində məxsusi yerini, inkişaf mərhələlərini, həyat tərzini, dünyabaxışını, inam və etiqadını, adət-ənənəsini və s. dərk etmək, anlamaq çətin olur.

Professor Yaşar Qarayevin haqlı olaraq qeyd etdiyi kimi, əsatir və bayatıda, nağıl və dastanda əbədiləşən, canlı yaddaşa çevrilən, heç kəsin soyunu, əslini, zatını unutmağa qoymayan, onu parçalanmaqdan xilas edən, şüurda, düşüncədə, mənəviyyatda xalqın bütövlüyünü təmin edən də folklordur.

Biz "Qəbələ folkloru"na bu müstəvidən baxır və yüksək qiymətləndiririk. Layihənin ideya müəllifi və təşkilatçısı biologiya üzrə fəlsəfə doktoru, SEBA (Seul–Bakı) Azərbaycan–Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının sədri Ruhəngiz xanım Heydərova, müəllifləri AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Qəbələ Etnoqrafik Ekspedisiyasının üzvləri, akademik Teymur Bünyadov, tarix elmləri doktoru Solmaz Məhərrəmova, tarix üzrə fəlsəfə doktorları Bəhmən Əliyev və Əsəd Əliyevdir.

Rəyçi filologiya üzrə elmlər doktoru, professor Mahmud Allahmanlıdır.

Çox maraqlı "Qəbələ folkloru"nda "Aşıq sənəti", "El şairləri", "Dastanlar", "Nağıllar", "Rəvayətlər", "Əfsanələr", "Lətifələr", "Atalar sözləri və məsəllər", "Deyimlər", "Bayatılar", "Xalq mahnıları", "Laylalar və oxşamalar", "Tapmacalar", "Arxaik janrlar"dan "İnanclar", "Alqışlar və qarğışlar" və s. kimi maraqlı fəsillər tədqiqata cəlb olunmuşdur.

Qəbələ bölgəsinin şifahi xalq ədəbiyyatı örnəkləri ilk dəfədir, kompleks şəkildə araşdırılır, bu zəngin

söz xəzinəsi yaddaşlardan yazıya köçürülür, ümumxalq mülkiyyətinə çevrilir. Qəbələ folkloruna ilk dəfə əhatəli şəkildə həsr edilən bu monoqrafiyadan folklorşünaslarla yanaşı, etnoqraflar, tarixçilər, ədəbiyyatşünaslar, dilçilər, musiqiçilər, xüsusən də dialektoloqlar istifadə edə bilərlər.

Qəbələ ilə bağlı olduğuna görə burada bir məsələdən danışmağı münasib bildim. Bu yaxınlarda televiziyada çıxışında bir ağsaqqal dedi ki, bu yaşa gəlmişəm, vicdan nə olduğunu bilmirəm.

Professor Əbdüləzəl Dəmirçizadənin 1969-cu ildə mənim namizədlik dissertasiyamın müzakirəsində çıxışı göz önünə gəldi. Alim dedi ki, Qəbələ rayonuna dialekt materialı yığmağa getmişdik. Kənd soveti sədrinin evində qalırdıq. Yazın oğlan çağı idi. Səhər yuxudan ayılanda gördük ki, ev sahibi görünməmiş süfrə açıb. Yağ, bal, qaymaq, pendir, qatıq, şor, qızardılmış beçə, isti təndir çörəyi süfrəni bəzəyirdi. Acgözlüklə yeməyə başladıq. Gözləmədiyimiz halda ev sahibi dedi: "Müəllim, o şordan da yeyin". Onun sözünü eşitməzliyə vurduq. Bir azdan sonra o, yenidən təkrar etdi: "Müəllim, o şordan da yeyin, vicdanlı şordur".

Dəftərlərimizi götürüb sevinclə yazdıq: "Vicdanlı şor – yəni təmiz, saf, xalis şor".

Nə gizlədim, "vicdanlı şor" məsələsinə qədər bir neçə il xaricdə tərcüməçi işləsəm də, dünyanın

gedişatından az-çox başım çıxsa da, yeri gələndə "vicdan haqqı" deyə and içsəm də, o vaxta qədər vicdan sözünün mənasını dərk etməmişdim.

Qəbələdə işlənən dialekt sözü "vicdanlı şor" köməyimə gəldi.

Vicdan sözünü daha yaxşı anlamaqda Kabardin-Balkar şairi Qaysin Quliyevin misraları da Tofiq Bayramın tərcüməsində köməyimə çatdı:

Qoy şirin yuxuna girsin gecələr,
Ürəyincə olan gözəl bir həyat.
Ləkəli deyilsə vicdanın əgər,
Sən rahat yat.

"Qəbələ folkloru" "Aşıq sənəti" ilə başlayır. Təəssüf ki, bu fəsildə yalnız XIX əsrin birinci yarısında yaşayıb-yaradan, aşıq sənətini təbliğ edən yeganə aşıq Daşdıdan söhbət açılır. Onun Təbrizdə, Sıqnaxda (Gürcüstan), Şamaxıda, Şəkidə, Dağıstanda toy aparmağından və təəssüratından bəhs edən, 1916-cı ildə yazıya alınan, aşıq şeir şəkli "sicilləmə"yə bənzər, çox uzun və yeganə şeiri verilmişdir. Bu şeirdə etnoqrafiyaya dair qiymətli məlumatlar vardır:

*Mən **qazmada** yaşayan aşığa,*
Gələrmi mülkədar Tavadın qızı?

Burada müdrik kəlamlar, həyat həqiqətləri çoxdur:

Aşıq, bu sevginin axırı yoxdur,
Axırsız sevginin peşmanı çoxdur.

Bu şeirdə yayın bürküsündə insana məlhəm olan, bulaq suyu kimi rahatlıq gətirən misralara da rast gəlmək olar:

Mənim gülüm, gülşənim,
Cənnətim də burdadır.
Sevincim də, qəmim də,
Möhnətim də burdadır.

Aşıq Daşdının şeirindən çıxış edərək demək olar ki, bu qocaman aşıq bütün Qafqazda tanınmış, sayılıb-seçilmişdir.

Təəssüflə etiraf etməliyik ki, Aşıq Daşdı şəyirdlər yetirə və məktəb yarada bilməmişdir. "Aşıq məktəbi" yaranmayan bir diyarda "Aşıq mühiti"ndən də danışmaq olmur. "Qəbələ folkloru"nun müəlliflərinin gəldiyi qənaətlər də inandırıcı görünmür: "Gümanımızca, Qəbələ aşıqlarının yaratdıqları qıfılbənd, təcnis, təxmis, qoşma, gəraylı və s. şeir nümunələri çox olmuşdur. Təəssüf ki, vaxtında yazıya alınmayan bu könül nəğmələri günümüzədək gəlib çatmamışdır".

Alim-şair Muxtar Abduyevin şeirindən də görünür ki, Qəbələdə saz sənəti inkişaf etməmişdir:

Mahnıyla bəzənir yol, bağça, tarla,
Bahar şeir yazır üfüqə nurla.

Neçə ailənin kamanla, tarla
Təməli qoyulur bahar gələndə.

El şairləri. Adətən, aşıq mühitləri fəal olan bölgələrdə el şairləri aşıq sənətinin və poeziyasının inkişafına təkan verən gəraylı, təsnif, qoşma, təcnis, müxəmməs, ustadnamə, qıfılbənd bağlamalar, divanilər, deyişmələr, cahannamələr kimi aşıq şeiri şəkillərində gözəl poeziya örnəkləri yaradaraq aşıq havalarının, aşıq sənətinin zənginləşməsinə xidmət edirlər.

El şairləri xalqın içindən çıxır, xalqın içində qalır, xalqın dərd-ələmini, kədərini, sevincini ifadə edən, xalq ruhunda poeziya nümunələri yaradırlar.

Qəbələnin el şairləri, digər bölgələrlə müqayisədə yalnız gəraylı və qoşma yazmışlar.

Qaçaq Seyid. XIX əsrin sonlarında cəmi 18 yaşı olanda qaçaq düşüb. Taleyə baxın ki, 18 il qaçaqlıq edib. Bunu onun "Bağlamışam xançalı" şeirindən açıqca görmək olur:

Gündüzlə gecənin yox mənə fərqi,
Yastığım daş olub, 18 ildi.
Məkansız dovşanam, yoxdu dincliyim,
Seyidəm, öz arxam dağları bildim.

Qaçaq Seyid şeirlərində acı taleyindən şikayətlənir:

Mənim taleyimə yazılan budur,
Dərədə, təpədə ömür sürürəm.

Seyidin qaçaq düşməsinin səbəbini də onun şeirlərindən görmək olur:

Onda ləşkər, qoşun, yasovullar başçısı,
Sərdar, sərkar, sultan və minbaşıydı.
Seyidin dövrünün hökmranları
General, pristav, kazaklarıydı.

Seyid öz-özünə deyir nə fərqi,
İstər o dövr olsun, istərsə indi...
Günümüz zülmətdi, yoxdu aydınlıq,
Bu yerlər zalımın, başkəsənindi.

Molla Əyyub. XIX əsrin I yarısında dünyaya göz açan Molla Əyyub mükəmməl savadlı xəttat və şair olub. Bizə gəlib çatan şairin 1851-ci ildə yazdığı, dövrünün ictimai-siyasi hadisələrindən bəhs edən "Qərinə tufanı" şeiridir. Bu şeirdə müəllif xalq arasında qəhrəman kimi tanınan Şıxməmməd ağa və Qaçaq Seyiddən də söhbət açır:

Bu yaxında zəhər verilib öldürüldü
Mahalımızın aslanı Şıxməmməd ağa.
Layiq deyil Seyid kimi igid
Düşmənlər əlində zəlil olmağa.

Cahangir Şıxməmmədbəyov (1901–1969). Qəbələnin ilk alitəhsilli ziyalılarındandır. Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirib. Sovet siyasi repressiyasının qurbanı olan Cahangir Şıxməm-

mədbəyov 25 il Özbəkistan və Türkmənistanda sürgün həyatı keçirmiş, doğma Bum kəndinə dönərkən xatirələrini qələmə almış, Bum kəndinin tarixini ümumi şəkildə təsvir edən "Çaldaş" adlı uzun bir şeir-xatirə yazmışdır.

Sədiyar Səfərəliyev. 1947-ci ildə Qəbələnin Həmzəli kəndində anadan olan Sədiyar xalq ruhunda yazan əsl el şairidir. Onun xalq şeiri ruhunda yazılan, yaddaqalan poeziya nümunələri vardır. Şairin "Evimizdə gəlin var" və "Qalan oldu" şeirləri bu baxımdan maraq doğurur:

"Evimizdə gəlin var" şeirindən:

Evdə salma qalmaqal,
Bezdirdi məni bu hal.
Sakit ol, bir nəfəs al,
Evimizdə gəlin var.

Səhər tez qalx yerindən,
El desin hünərindən.
Az danış dərd-sərindən,
Evimizdə gəlin var.

"Qalan oldu" şeirindən:

Sözlərimdə yoxdu yalan,
Dözməz eşqdən yetim qalan.
Bir vaxt qəlbimə nur salan
Məhəbbət sozalan oldu.

Həsrət məni çəkir dara,
Təbib, loğman bulmur çara.
Əlim yetmir o dildara,
Vurğun könlüm talan oldu.

Mirhəsən Ağayev və **Samir Nəbiyev** də el şairləri sırasındadır. Onların xalq həyatına bələdliyi, xalq ruhunda yazdığı şeirlər şifahi söz sənətindən bəhrələndiyini göstərir ki, bu da el şairlərinə xas olan xüsusiyyətdir.

Nüsrət Həsənov da bu şairlər sırasında yer tutmağa layiqdir. 1935-ci il təvəllüdlü Nüsrət Həsənov alisavadlı alim-şairdir. Onun "Payız" və "Sevgi sədası" şeirləri kənd həyatını real boyalarla təsvir edən əsl poeziya nümunələridir.

Bu bölümdə görkəmli torpaqşünas alim, pedaqoq və şair **Muxtar Abduyevə** də yer verilmişdir. Təkcə keçmiş SSRİ miqyasında deyil, dünyanın bir çox ölkələrində elmi əsərləri əcnəbi dillərdə çıxan və tanınan alim-şairi el şairi kimi təqdim etmək ən azı insafdan kənardır. Onun poeziyası el şairlərinin poeziya kriteriyasından çox-çox yüksəkdir.

Bu məqamda Hikmət Ziyanın Bəxtiyar Vahabzadəyə həsr etdiyi dostluq şarjı göz önünə gəlir:

Bəxtiyaram, iki fəxri adım var,
Alim Bəxtiyaram, şair Bəxtiyar.
Qatlayıb dizinin altına qoyar,
Alim Bəxtiyarı şair Bəxtiyar.

Muxtar Abduyevin də iki fəxri adı var. Alim və şair. Doğrudur, alim Abduyev daha üstündür. Lakin onun şairliyi də yüksəkdir. Mənə görə, Muxtar Abduyev Qəbələdən çıxan, barmaqla sayıla biləcək azsaylı fitri istedadlı, ilhamlı şairlərdən biridir.

Bu görkəmli alim-şair haqqında əsərin birinci fəslində ətraflı danışmışıq. Şairin şeirlərini oxuyanda bir daha şahidi olursan ki, alim-şairin xalqın ruhuna köklənən könül nəğmələri əsl poeziya nümunələridir. Örnək olaraq onun "Bahar gələndə" şeirini verməklə kifayətlənirik:

Könlümün ümidi, eşqi, diləyi,
Bəxtimin ulduzu, ömür bəzəyi,
Hər yeni ilimin qönçə çiçəyi,
Müqəddəs sayılır bahar gələndə.

Aşığın sazında dil açır tellər,
Necə gözəl olur mehriban ellər.
Yaxası al-əlvan çiçəkli çöllər
Yuxudan ayılır bahar gələndə.

Çayın şırıltısı, kəkliyin səsi,
Çölün pıçıltısı, turac nəğməsi,
Gülün vüsalında bülbül naləsi
Hər yana yayılır bahar gələndə.

Hər yeni hünərin cəngi vurulur,
Hər məclis başında büsat qurulur,

Şairin qəlbində sözlər durulur,
Min ilham duyulur bahar gələndə.

Mahnıyla bəzənir yol, bağça, tarla,
Bahar şeir yazır üfüqə nurla.
Neçə ailənin kamanla, tarla
Təməli qoyulur bahar gələndə.

Dastanlar. Azərbaycanın folklor xəzinəsində dastanlar mühüm yer tutur. Onlar birbaşa aşıq yaradıcılığı və bu sənəti yaradan və yaşadan aşıqlarla bağlıdır.

Dastanlar, əsasən, iki hissədən – nəsr və nəzm hissəsindən ibarət olur. Nəsr hissəsini aşıqlar nağıl, hekayə, əhvalat kimi danışır, nəzm hissəsini müxtəlif saz havaları üstündə oxuyurlar. Azərbaycan dastanları iki yerə bölünür: qəhrəmanlıq dastanları və məhəbbət dastanları.

Qəhrəmanlıq dastanları arasında "Kitabi-Dədə Qorqud" eposu, "Koroğlu", "Qaçaq Nəbi", "Qaçaq Kərəm", "Qaçaq Alı", "Qaçaq Tanrıverdi" xüsusi fərqlənir.

Şifahi xalq ədəbiyyatının, xüsusən də dastançılıq janrının inkişafında əhəmiyyətli yeri məhəbbət dastanları tutur. "Aşıq Qərib", "Əsli və Kərəm", "Qurbani", "Abbas və Gülgəz", "Şah İsmayıl" Azərbaycan söz sənətinin inkişafına töhfə verən dastanlardır.

"Qəbələ folkloru" əsərinin müəllifləri maraqlı bir məsələdən söhbət açırlar: "Dastanların nəsr və nəzm formaları vardır. Nəsr formalı dastanlar aşıqlar tərəfindən nağıl, hekayə, əhvalat kimi danışılır, nəzm formalı dastanlar isə müxtəlif saz havaları üstündə oxunur". Nəsr və nəzm qarışıq dastanlar da vardır. O ki qaldı nəsr formalı dastanlara, onlar nağıllardan yaranmış dastanlardır. "Məhəmməd və Güləndam", "Arzu-Qəmbər", "Alıxan və Pəri", "Novruz və Qəndab", "Xançoban", "Əmrah", "Məsum və Diləfruz" bu qəbildən olan dastanlardır. Azərbaycanın başqa bölgələrində olduğu kimi, Qəbələ bölgəsində də bu dastanları aşıqlar və ya peşəkar nağılçılar nağıl, hekayə, əhvalat kimi nəql etmiş və xalq tərəfindən sevilmişdir.

Maraqlıdır ki, "Arzu-Qəmbər" nağıl-dastanının izinə "Əsli-Kərəm" dastanında düşürük:

Xurşid öz Mahının dizinə yatdı,
Qəmbər Arzusunun tozuna batdı.
Dünyada Şahsənəm murada çatdı,
Aşıq Qərib kimi gülən olmadı.

Bu o deməkdir ki, "Arzu-Qəmbər" çox qədim dastanlarımızdandır.

"Arzu-Qəmbər" və "Əsli-Kərəm" dastanlarında saf, ülvi məhəbbət daşa dəyir. Gənclər sevgililərinə qovuşa bilmir, vüsala yetmir, məhv olurlar. "Qara

sevgi dastanı" kimi tanınan hər iki dastanda gənclərin qəbirləri arasından qaratikan çıxır, axirətdə də onları qovuşmağa qoymur. Hər iki dastanda qaratikanı kəsirlər, yenidən göyərir.

Göründüyü kimi, gənclərin qəbirləri arasında qaratikanın çıxması süjeti "Əsli-Kərəm" dastanına "Arzu-Qəmbər"dən keçmədir.

Onu da bilmək maraqlıdır ki, "Arzu-Qəmbər" nağıl-dastanı İraqda yaşayan soydaşlarımızın qadın məclislərində bu gün belə nəql edilir. "Əsli-Kərəm" dastanı isə zəmanəmizdə soydaşlarımızın yaşadığı Teləfər bölgəsində sazla çalınıb-oxunan yeganə dastandır.

Dastanlarla bağlı onu da bilmək maraqlıdır ki, Xalq şairi Zəlimxan Yaqub "Hüseyn Saraçlı" dastanı ilə yazılı ədəbiyyatımıza yeni bir janr – dastan janrını gətirdi.

Nağıllar. Nağıllar epik növün ən geniş yayılan janrlarındandır. Evdən-evə, eldən-elə, dildən-dilə gəzən, xalqın həyata münasibətini, istək və arzularını, bəxt, tale, xoşbəxt həyat barədə dünyagörüşünü əks etdirən, xeyir, şər, haqqın haqsızlıq üzərində qələbəsini, ədalətin təntənəsini göstərən bu əvəzsiz incilər, təəssüf ki, elm və texnikanın sürətlə inkişaf etdiyi, xalq təxəyyülünün məhsulu olan "uçan xalçalar"ı təyyarələrin, kosmik gəmilərin əvəz etdiyi zəmanəmizdə öz mövqeyini əldən verməyə, unu-

dulmağa yan almışlar. Nağılçılığın, nağıl söyləməyin bir çox xalqlarda söyləniş tərzini dəyişərək səhnə, radio və televiziyaya ayaq açdığı, maraqlı nağıl-filmlərin çəkildiyi göz qabağındadır. Azərbaycan istisna təşkil etmir. "Qərib cinlər diyarında", "Məlikməmməd", "Sehrli xalat", "Bir qalanın sirri", "Bir ovuc torpaq" və s. xalqın sevimli filmləri sırasındadır. Azərbaycanın görkəmli qələm sahiblərinin, musiqişünaslarının nağıl motivlərinə müraciət etməsi də bu janrın əhali arasında tutduğu mövqeyindən söz açır, xalqın bu janra dərin məhəbbətinin göstəricisinə çevrilir. Yazıçı və şairlərimizin yaradıcılıqlarında nağıl və nağıl motivlərindən istifadə etmələri də nağıllara ümumxalq məhəbbətinin təzahürüdür.

Nağıllar bütün bölgələrimizdə, o cümlədən də Qəbələdə tərbiyəvi əhəmiyyətini, ibrətamizliyini itirməmişdir. İnanmıram ki, yuxarıda adını çəkdiyimiz nağıl-filmlərə baxan qəbələli ondan nəticə çıxarmasın. Şairlərimizin gözəl bədii əsərləri qəbələlilərin zövqünün formalaşmasına, düşüncə tərzinin dəyişməsinə təsir etməsin?!

Şəxsən mən vətənpərvərliyi, xeyirin şər üzərində qələbəsini nağıllardan öyrənmişəm. Keçmiş SSRİ dönəmində hər həftə SSRİ Xalq artisti Leontiyevanın "Nağıl axşamı" verilişini səbirsizliklə gözləyirdim. İndi nağıl arxa plana keçsə də, nağıllarda qoyulan məsələlər həmişəyaşardır.

"Qəbələ folkloru"nun müəllifləri bu gün də Qəbələdə hər hansı bir formada ev-ev gəzən nağılları folklorşünaslıq elmimizdə qəbul edilən kimi qruplaşdırmışlar: Heyvan və quşlar haqqında nağıllar, sehrli-əsatir nağılları, tarixi nağıllar, məişət nağılları.

Heyvan və quşlar haqqında nağıllar. Əsasən, uşaqlarla bağlı olan bu nağıllar çox geniş yayılmışdır. Onların arasında uşaqların yaş xüsusiyyətinə, psixologiyasına uyğun nağıllar daha çoxdur. Süjeti çox sadə, yığcam, dili anlaşıqlı olan bu nağıllarda insana məxsus cəhətlər heyvanların üzərinə köçürülür. Bu nağılların əksəriyyətində heyvanlar insan kimi danışır.

Başqa növ nağıllarda olduğu kimi, alleqorik nağıllarda da əsas məqsəd uşaqlarda və gənclərdə qorxaqlıq, paxıllıq, xəyanət, hiylə, kələk, tənbəllik, acgözlük, xəsislik və s. kimi mənfi keyfiyyətlərə qarşı ikrah hissi oyatmaq, onlarda dostluq, mərdlik, qorxmazlıq, dəyanət, səxavət, əməyə məhəbbət, böyüklərə hörmət, danışanı dinləmək qabiliyyəti, danışanın sözünü kəsməmək, rəvan və şirin danışmağı bacarmaq və s. kimi müsbət keyfiyyətlər aşılamaqdır.

Sehrli-əsatir nağılları. Qəbələ əhalisinin yaddaşında insanların təbii qüvvələrə və vəhşi heyvanlara qarşı ölüm-dirim mübarizəsini əks etdirən sehrli nağıllar qədərincədir.

Sehrli nağıllar xalq arasında **"qorxulu nağıllar"** kimi də tanınır. Rasim Babayevin kətan üzərində işlənmiş əksər əsərləri "qorxulu nağıllar"a həsr olunub. Yuxarıda göstərdiklərimizdən başqa, "Tapdıq", "Çıraxlı İsa", "Quş dili bilən İsgəndər", "Məhəmmədin nağılı" və s. də daxildir.

Xalqın bədii-fəlsəfi təfəkküründün məhsulu olan bu nağıllarda fitnə-fəsad, xəyanətkarlıq, paxıllıq, yalan, kələk, pislik və s.-dən ilham alan qara qüvvələr, əsas qayəsi xeyirxahlıq, yaxşılıq, doğruluq olan qüvvələrə qarşı durur. Əsasını xariqüladə qüvvələr təşkil edən bu nağıllarda çox uzaq keçmişlərlə bağlı olan adət və ənənələrin izlərinə rast gəlmək olur. Qədim təsəvvürlərə görə sehrli nağıllarda heyvanlar istədiyi vaxt dönüb insan ola bilirdilər. Hətta insanlar da quş və ya heyvan cildinə girə bilirdilər.

Adətən, sehrli-əsatir nağıllarında div, əjdaha nə qədər güclü olsa da, haqq-ədalət qələbə çalır, şər qüvvələr məğlub edilir. Sehrli nağılları fərqləndirən bir cəhəti xüsusi vurğulamaq lazımdır. Bu nağıllarda sonbeşik oğlan və qızın daha ağıllı, daha dərrakəli olması göstərilir. Məsələn, "Məlikməmməd", "Palançı qızı", "Bir ovuc torpaq", Qəbələdə üzə çıxarılan çox maraqlı "Məhəmmədin nağılı" və s. nağıllarda sonuncu qardaş və bacı daha fəndgir, daha tədbirlidir. Bu, bir daha göstərir ki, nağıllar real həyatla

bağlıdır. Məlumdur ki, bəzi xalqların folklorunda da son övlad böyük bacı və qardaşlarına nisbətən daha ağıllı olurlar. Buna yalnız təxəyyül məhsulu kimi baxmaq doğru olmazdı. Məsələ burasındadır ki, altı ilə qədər Qafqaz xalqlarının həyat tərzini, adət-ənənələrini, yaşayışını öyrənən, **uzunömürlülər** üzərində müşahidə və tədqiqat aparan amerikalı professor Sula Benet "Necə yaşayasan, yüzü haqlayasan" kitabında (əsər mənim ingiliscədən tərcüməmdə 1989-cu ildə "Yazıçı" nəşriyyatı tərəfindən çap olunub. O vaxt akademik Teymur Bünyadov həmin əsər barədə mətbuatda müsbət rəylə çıxış etmişdi) o qənaətə gəlmişdir ki, insanın nisbətən yaşlı vaxtında ondan dünyaya gələn övlad daha ağıllı, daha bacarıqlı olur.

Deməli, hələ qədim zamanlardan insanlar öz həyat təcrübəsində bu həqiqətdən xəbərdar olmuş və insan təxəyyülünün məhsulu olan nağıllarda bu real həyat həqiqəti öz əksini tapmışdır.

Tarixi nağıllar. Tarixi nağıllar o qədər də geniş yayılmamışdır. Bu nağılların qəhrəmanları görkəmli şəxsiyyətlər, hökmdarlar və kütlə içindən çıxan, zəhmətlə dolanan adamlar olur.

Tarixi nağılların ən yaxşı nümunəsi "Şah Abbas" nağılıdır. "Şah Abbas" nağılının iki variantı var. Bir variantda Şah Abbas zülmkar kimi təqdim edilir. İkinci variantda Şah Abbas qurub-yaradan,

mədrəsələr açan, elmə, təhsilə qayğı göstərən, körpülər, məscidlər tikdirən, yollar çəkdirən müsbət şah kimi xalqın hüsn-rəğbətini qazanır. Şah Abbas sadə xalq içərisindən çıxmış Allahverdinin ağlını, dərrakəsini yüksək qiymətləndirərək özünə vəzir götürmüş, onun ağıllı məsləhətləri ilə oturub-durmuşdu. Şah Abbasın vaxtında güclü ordu yaradılmış, itirilmiş torpaqlar, o cümlədən də İraqda yaşayan soydaşlarımızın torpaqları geri qaytarılmışdı.

Ailə-məişət nağılları. Ailə-məişət nağılları başqa qrup nağıllara nisbətən daha çoxdur. Həcm etibarilə nisbətən kiçik olsa da, bu nağıllar xalqın həyat tərzini, yaşayışını, güzəranını, adət-ənənəsini, mübarizəsini, arzu-istək və ümidlərini yığcam bədii boyalarla əks etdirir. Bu nağıllarda hökmdar, vəzir, tacir və başqaları ilə zəhmətkeş xalq nümayəndələrinin qarşılaşmasından, ictimai haqsızlıq, ədalətsizlik, özbaşınalıq, dərəbəylik, yoxsulluq, ehtiyac və s.-dən danışılır, həyat realist boyalarla verilir. Buna görədir ki, rus alimi V.Propp yazırdı: "Məhz nağıllar, xüsusən də məişət nağılları yazılı realist nəsr ədəbiyyatının soykökü, təkanverici mənbəyi olmuşdur".

Ailə-məişət nağıllarında qadın sədaqəti, təmkini, tədbiri ilə seçilən vəfalı yoldaş, insanı valeh edən gözəl bir varlıq kimi tərənnüm edilir.

Ailə-məişət nağılları da başqa qrup nağıllar kimi pişrovlarla başlayır:

Pişrovda sözlərin axıcılığı, ahəngdarlığı əsas cəhətdir. Pişrovların nağılın məzmunu ilə heç bir əlaqəsi yoxdur. Onlar oxucunun diqqətini nağıllar aləminə yönəltmək üçün istifadə edilən maraqlı yaradıcılıq örnəyidir. Məsələn:

"Biri var idi, biri yox idi, yalan gerçəkdən çox idi. Yalanı doldurdular çuvala, dayadılar divara. Gerçəyi qoydular meydan başına. Nağıl gəldi qapıya. Aman-zaman içində, xəlbir saman içində, dəvə bərbərlik edir əski hamam içində. Hamamçının tası yox, peştəmalın (hamam dəsmalı) ortası yox. Kəndimizə tazı gəlib, onun da xaltası yox".

Və ya:

"Yalan bir yalanıydı, sərçə pəhləvanıydı. Sərçəyə yüklədilər palanı, dedi: Eşq olsun! Necə uydurdun bu yalanı".

Və ya:

"Matal, matal mat atar, bir kişi xurma satar. Xurmanı gəti mən yeyim, görək kim borca batar. Hartdan-hurtdan, sıxması qarpız qabığı, düyməsi turpdan" və s. davam edir:

"Biri var idi, biri yox idi", "Əhməd adında bir tacir vardı", "Var idi, yox idi, yalan gerçəkdən çox idi", "Biri var idi, biri yox idi, bir zalım padşah var idi" və s.

Qəbələdə müəllifi bəlli olan nağıllar da geniş yayılmışdır. Bu baxımdan əslən Qəbələdən olan tanınmış jurnalist və yazıçı Əşrəf Hacıyevin "Bir qız, bir oğlan, bir də ovçu Qurban" adlı nağıl kitabı maraq doğurur. "Qəbələ folkloru" kitabının müəllifləri həmin nağılların məziyyətindən söz açıb və çox maraqlı "Həmzənin nağılı"nı kitabda veriblər. Bu nağıl qədim "Ovçu Məmməd" nağılı ilə səsləşir, daha doğrusu, eynidir (bax: Azərbaycan-türk nağılları. Bakı, 2009, s.22–26).

Qəbələ bölgəsində dildən-dilə keçərək günümüzə gəlib çatmış nağıllar da vardır. Mifik təsəvvürləri özündə ehtiva edən bu nağıllarda uşaqlara gözüaçıq olmaq, sayıqlığı itirməmək, istəyinə çatmaq üçün bütün çətinliklərə sinə gərmək, hər şeyə aldanmamaq və s. kimi fikirlər təlqin edilir.

"Qəbələ folkloru"nda belə nağıllardan üçü – "Məhəmmədin nağılı", "Axtaran tapar" və "Vaxtsız açan çiçək" bütövlükdə çap olunmuşdur.

Rəvayətlər. Şifahi xalq yaradıcılığının epik növünün nağıllar qrupuna daxil edilən rəvayətlər baş vermiş hadisələrlə bağlı yaranır. Həcmcə kiçik və yığcam olan rəvayətlərin əsas qayəsi ibrətamiz, əxlaqi fikirlərdir.

Qəbələ bölgəsi özünəməxsus rəvayətlərlə zəngindir. "Qəbələ folkloru"nda "Atı sənə verirəm, amma bu əhvalatı heç yerdə danışma", "Şeytan

xislətli adam", "Ağ tük-hal anası", "Adam olmayan yerdə xoruz banlamaz", "Məmmədaman dağı" rəvayətləri verilib və təhlil edilib. Kitabda o da göstərilir ki, Qəbələdə günün reallıqlarını əks etdirən və müəllifi bəlli olan rəvayətlər də geniş yayılmışdır. Bu baxımdan qəbələli şair Ş.Talıblının nəzmə çəkdiyi "Dişsiz mühasib" adlı rəvayəti maraq doğurur.

Əfsanələr. Qəbələ bölgəsində əfsanələr daha çoxdur, nəinki rəvayətlər. Maraqlıdır ki, bədii ədəbiyyatda da əfsanələrə rəvayətlərdən daha çox təsadüf edilir. Cəfər Cabbarlının "Qız qalası" və "Ana", Səməd Vurğunun "Ayın əfsanəsi", "Aslan qayası" və "Bulaq əfsanəsi", İsi Məlikzadənin "Gümüşgöl əfsanəsi", Hüseyn Kürdoğlunun "Məcnun bulağı" və s. deyilənlərə dayaq olur. Dahi Üzeyir Hacıbəylinin "Leyli və Məcnun", "Koroğlu", Fikrət Əmirovun "Min bir gecə", Qara Qarayevin "Yeddi gözəl", Arif Məlikovun "Məhəbbət əfsanəsi" kimi bədii və musiqi əsərlərinin mövzuları da əfsanələrdən götürülmüşdür.

Burada çox qısaca "Məcnun bulağı" haqqında Hüseyn Kürdoğlunun yazdıqlarını verməyi münasib bildik: "Nənəm çoxlu nağıllar, bayatılar, rəvayətlər, əfsanələr bilirdi. Bu əfsanələrdən biri də kəndimizlə (Mollaəhmədli kəndi, Laçın rayonu) yaylaq arasındakı "Məcnun bulağı" haqqında idi. Bu əfsanəyə görə on dörd yaşına çatmış oğlanlar yazla yayın qovuşub ayrıldığı günün gecəsi, dan ulduzu doğan

kimi "Məcnun bulağı"nın suyundan içsə, şair və ya aşıq olar.

Nənəmin dedikərinə bütün qəlbimlə inanırdım. İntizarla gözləyirdim ki, yaşım on dördə çatsın. Həmin gecə gəlib çatdı, mən sonsuz həyəcanla gizlicə gedib o sudan içdim və doğrudan da, bundan sonra şeir yazmağa başladım".

Bütün bölgələrdə çox maraqlı əfsanələr vardır. Qəbələ bölgəsi istisna təşkil etmir. Bu bölgə əfsanələrlə zəngindir. "Qəbələ folkloru" monoqrafiyasında qeyd edilir ki, vaxt gəlir, rəvayətlər əfsanəyə çevrilir. Burada əfsanələrin çoxluğu alimlərimizin fikrini təsdiqləyən sübutdur. "Qəbələ folkloru"nda "Hüsnü nənə ziyarətgahı" və ya "Ceyran bulağı", "Şonqar əfsanəsi", "Daş çoban", "Daşa dönmüş mələklər", "Qəmli tütək" əfsanələri təhlil süzgəcindən keçirilib. Məlum olub ki, əfsanələrin süjetləri əksər hallarda sevgi motivləri üzərində qurulub. Nağıllardan fərqli olaraq, əfsanələrdə sosial mövqeyi bərabər olmayanlar evlənə bilmir. Əks təqdirdə, bu sevginin sonu ölümlə nəticələnir. Bu xüsusiyyətinə görə əfsanələr nağıllardan daha obyektiv sayılır. Qəbələ bölgəsində geniş yayılan əfsanələr xalqın həyatını hərtərəfli əks etdirmək baxımından böyük maraq doğurur.

Bölgədə məşhur olan gursulu Dəmiraparan çayla bağlı "Şonqar" əfsanəsini oxuculara təqdim edirik:

"Şonqar görənlərin ağlını başından alan qənirsiz bir qız imiş. Dəmir adlı cəsur sevgilisi varmış. Necə olursa, Şah Şonqarı görür və ona vurulur. Onu almaq istəyir. Dəmir sevgilisi uğrunda mübarizə aparır. Şah görəndə ki, xoşluqla Şonqarı ala bilməyəcək, məyus olur. Ordudan inanılmış adamlarını göndərir ki, onu oğurlasınlar. Şahın adamları Şonqarı sevgilisi Dəmirlə bağda görürlər. Qərara gəlirlər ki, onu oxla vursunlar. Dəmiri vuranda Şonqarı da yaralayırlar. Düşmənlər yaralı Şonqarı aparmaq istəyəndə o, Dəmiri qucaqlayıb gözündən qan-yaş tökür və Göy Tanrıdan onu bolsulu çaya çevirməsini diləyir. Şonqar bolsulu çaya dönür. Dəmiri də özü ilə aparır. O gündən bu çay "Dəmiraparan çay" adlanır.

Burada xüsusi vurğulamaq istərdim ki, şair Hüseyn Kürdoğlu əfsanəni real həyatla qovuşdurur. O, buna "Şairlər" adlı şeirində nail olmuşdur.

Məhəbbətdir bu dünyanın çırağı,
Məhəbbətə pərvanədir şairlər.
Məcnun ərəb səhrasında tək deyil,
Leyli deyə, divanədir şairlər.

Lətifələr. Lətifələr şifahi xalq ədəbiyyatının ən geniş yayılan janrlarındandır. Lətifələr duzlu, məzəli, ibrətamiz, yığcam, tez mənimsənilən, ürəyəyatan olduğundan geniş yayılmış, xalqın məişətinə daxil

olmuşdur. Lətifədə fikir çox vaxt tək bircə cümlə ilə ifadə olunur. Əslində lətifə elə bu müdrik ifadəyə görə yadda qalır, çünki lətifənin canını elə bu müdrik ifadə təşkil edir.

Bunu "Qəbələ folkloru"nun "Lətifələr" bölümündə yer alan çoxsaylı lətifələrdən də görmək olur.

Qədim tarixə malik lətifələr müxtəlif dövrlərdə bu və ya digər şəxsin adı ilə əlaqələndirilmişdir. Onların arasında "Molla Nəsrəddin lətifələri" xüsusilə fərqlənir.

Mövzu və ideya cəhətdən rəngarəng olan, heç vaxt köhnəlməyən, əbədi təzə-tər olan lətifələrdə xalqın həyat tərzi, dünyagörüşü, ailə, əxlaq və s. haqqında fikirləri qabarıq şəkildə özünü göstərir. Lətifələrin ifşa və tənqid hədəfi haqsızlıq, ədalətsizlik, zülm, əsarət, zorakılıq, tamahkarlıq, rüşvətxorluq, yaltaqlıq, xəsislik, qəddarlıq, paxıllıq, hərislik, acgözlük, avamlıq, tənbəllik, qorxaqlıq, boşboğazlıq, yalançılıq, lovğalıq və s. məqamlardır.

Qəbələdə bu gün dəbdə olan, müasirlərimizin yaratdığı çoxsaylı lətifələrdə yuxarıda sadaladıqlarımızın bir çoxuna rast gəlmək olur və bu barədə "Qəbələ folkloru" kitabında müəyyən məlumatlar öz əksini tapıb. Yaxşı olardı ki, Nohurqışlaq kənd sakini – "Qəbələnin Molla Nəsrəddini" – "Meşəbəyi Süleyman" kimi tanınan söz xiridarının dillər əzbəri olan çoxsaylı lətifələri barədə ayrıca bəhs ediləydi.

Atalar sözləri və məsəllər. Atalar sözləri və məsəllər başqa janrlarla bərabər xalqımızın tarixini, inkişaf mərhələlərini, həyat tərzini, düngörüşünü, inam və etiqadını, adət və ənənəsini və s. əks etdirən müstəsna dəyərə malik bir xəzinədir. Bu xəzinədə uzaq keçmişlərlə bağlı hadisələrə, adət-ənənələrə, hətta unudulub getmiş, az qala hafizələrdən silinmiş tarixi həqiqətlərin güclə sezilə bilən izlərinə belə təsadüf edilir. Odur ki, tədqiqatçılar bu mənəvi incilərə istinad edir, onların vasitəsilə müəyyən hadisələrin izlərini və köklərini axtarırlar. Tarixçi atalar sözü və məsəlləri qədim tarixə, tarixi hadisələrə dair məlumat baxımından, hüquqşünas onları xalq həyatının yazılmamış qanunları baxımından, etnoqraf atalar sözləri və məsəlləri unudulub getmiş adət-ənənələrin hifz olunub saxlandığı mənəvi dəyərlər mənbəyi baxımından qiymətləndirir. Filosof atalar sözləri və məsəllər vasitəsilə xalqın düşüncə tərzini öyrənməyə, məntiq aləmində yerini dürüstləşdirməyə can atır. Dilçi isə atalar sözü və məsəllərə insan nitqinin inkişaf pillələrini, dilin leksik-qrammatik qayda-qanunlarını tədqiq etmək işində əvəzsiz mənbə nöqteyi-nəzərindən yanaşır.

Deməli, atalar sözləri və məsəllər yalnız xalqın dünyagörüşünü, təfəkkürünü ifadə edən nümunələr olmayıb, həm də bir növ tarixi sənədlərdir

(bax: Paşa Əfəndiyev. "Azərbaycan şifahi xalq ədəbiyyatı", 1981, s.98).

Atalar sözü və məsəllərdə hikmətli öyüdlər, nəsihətlər geniş yer tutur. Ən yaxşı insani keyfiyyətlər aşılamaq üçün böyüklərin öyüdləri, nəsihətləri xalq ədəbiyyatı və xalqın müdrikləri qarşısında duran ən gərəkli iş olmuşdur. Şübhəsiz, digər regionlarda, o cümlədən də Qəbələdə insanların nitqini bəzəyən spesifik atalar sözləri və məsəllərin əksəriyyəti elə bu məqsədlə yaranmışdır. Qəbələdə mövcud olan atalar sözləri və məsəllərdə maldarlıq, əkinçilik, ailə-məişət məsələləri, qohumluq, qonşuluq, qonaqpərvərliklə bağlı fikirlər öz əksini tapmışdır.

Qəbələ bölgəsi üçün səciyyəvi olan atalar sözləri və məsəllərdən nümunələr verməyi münasib bildik. Maldarlıqla bağlı: "Malı qırov öldürər, qışın adı bədnamdır", "İnəyini iki balalı istəyən yemini əsirgəməz", "Qoyunun oldu yüz, süd gölündə üz"; əkinçiliklə bağlı: "Əkənin yox, yeyənin qoçağı ac qalar"; bağçılıqla bağlı: "Fındığını ye, bağını soruşma"; Ailə-məişət məsələləri, qohumluq, qonşuluq və qonaqpərvərliklə bağlı: "Yaz ayının yağışı, ərarvadın savaşı", "Ərin tumarı qadın, qadının bəzəyi övladlarıdır", "Qız ananın, oğul atanın əksidir", "Duzsuz qohumun qohumluğu cibi pul tanıyanacandır", "Yaxşı qonşunun kor qızı ərə gedər" və s.

Aşağıdakı atalar sözləri və məsəllər də Qəbələ bölgəsi üçün səciyyəvidir: "Təndirə Pasdara, küpə Küsnətə get", "Ayazda yatmayan uzunqulaq tövlənin qədrini bilməz", "Oynaya bilməyən yer dardı – deyər", "Analı qızın özü, anasız qızın sözü böyüyər" və s.

Qəbələ bölgəsinin əhalisi gündəlik həyatında atalar sözləri və məsəllərdən indinin özündə də bol-bol istifadə etdiyindən burada ümumazərbaycan atalar sözləri geniş yayılmışdır.

Atalar sözləri folklorumuzun bütün janrları ilə işlənir, onları daha da zənginləşdirir və hikmətli edir. Nümunə üçün atalar sözləri ilə işlənmiş bir neçə bayatı veririk:

Necə dağlar;
Qarşıda necə dağlar.
Yetim yanağı bilir
Göz yaşı necə dağlar.

Bir daş atar;
Bir kirəc, bir daş atar.
Tərəzin əyiləndə
Hər gələn bir daş atar.

* * *

Arzular gedər;
Qəmbər-Arzular gedər.
Bəsləmə yad ördəyin,
Vətən arzular gedər.

* * *

Ocağın;
Daim yansın ocağın.
Övladın qeydinə qal,
Kor olmasın ocağın.

Atalar sözlərinin xalq arasında geniş yayılmasında yazıçı və şairlərimizin xidmətləri böyükdür.

Deyimlər. Qəbələdə atalar sözləri və məsəlləri xatırladan deyimlər çox məşhurdur. "Qəbələ folkloru" kitabında sırf bu bölgəyə xas olan deyimlərdən söz açılmış və çoxsaylı nümunələr verilmişdir. Burada bir neçə nümunə verməklə kifayətlənirik.

Qəddar adam haqqında "bədrəngdir", boş və çox danışan adama "enli ağız", başqasının köməyi ilə mövqe tutan layiqsiz adama "araba kölgəsi", tez inciyən adama "nəm çəkəndir", özünü yüngül aparan adam üçün "xəmiri sıyıqdır", pis adam üçün "itin qudası çaqqal olur", yağış yağacağını bildirmək üçün "Kümə dağ açmasını çəkib" deyirlər.

Bum kəndindən olan, "Payız" və "Sevgi sədası" kimi gözəl poeziya nümunələrinin müəllifi, tanınmış şair **Nüsrət Həsənovun** nəzm formasında yazdığı, atalar sözləri və məsəllərdən yoğrulan "deyimləri" qəlbi oxşayır:

Atalardan qalıb belə məsəllər,
Gözəl olar örpək altda gözəllər.
Yaman olar yaşmaq altdan çıxan dil,
Kim bilmir ki, tikanlıdır qızılgül.

Asta gedən, yavaş gedən yorulmaz,
Yalan ayaq açar, ancaq doğrulmaz.
Ağır otur, batman gətir deyərlər,
Duz-çörəyi düz çörək tək yeyərlər.

Sirri saxla, sirri vermə qardaşa,
Sus, az danış, bu dünyada dinc yaşa.

Bayatılar. Heyrətamiz poetik gücü və zənginliyi ilə seçilən bayatılar folklorun lirik növünün bədii cəhətdən ən kamil növüdür. İnsana beşikdən qəbrədək yol yoldaşı olan, Azərbaycanın bütün bölgələrində sevilən, geniş yayılan bayatılar Qəbələ bölgəsində də istənilən qədərdir. Sarı Aşıqdan başlamış şairlər Qəbələyə çox sayda bayatı həsr etmiş, bu qədim şəhəri tərənnüm etmişlər:

Mən aşiqəm Qəbələ,
Qəbələnin;
Əski şəhər Qəbələ.
Baş şəhər Qəbələnin.
Ölkəmin ilk paytaxtı
İki min beş yüz ildi
Qəbələdi, Qəbələ.
Tarixi Qəbələnin.

Burada bir məsələ barədə danışmağa ehtiyac duyulur. Məlumdur ki, əvvəllər ədəbiyyat nəzəriyyəçiləri bayatılara tərif verəndə göstərirdilər ki, hər misrası yeddi hecadan ibarət dördmisralıq ədəbi janra bayatı deyilir.

Lakin sonralar məlum oldu ki, 1-ci misrası üç, dörd, beş hecadan ibarət bayatılar qədərincədir. Bu cür bayatılara daha çox xoyrat adı ilə İraqda yaşayan soydaşlarımızın şifahi ədəbiyyatında – Kərkük folklorunda rast gəlinir (bax: Azərbaycan Milli Ensiklopediyası. Bakı, 2007, s.733).

Belə xoyratvari bayatılar Qəbələ bölgəsində də çoxdur:

Qar qamışa;
Qar yayıb, qar, qamışa.
Yüz min bəndə neyləsin
Bir fələk qarğamışa.

Daşa çıxdı;
Naxışım daşa çıxdı.
Sirr vermədi, mənimlə
Dünya savaşa çıxdı.

Çağdaş yazarlarımızın yaradıcılığında da 1-ci misrası kəmhecalı bayatılara çox təsadüf edilir:

Bir də gəlməz;
Gəlmişdi, bir də gəlməz.
Heydər kimi bir oğul
Dünyaya bir də gəlməz.

(Teymur Bünyadov)

Barı var;
Qəm daşından barı var.
Əkmişəm dərd ağacı,
Hər fəsildə barı var.

(Hüseyn Kürdoğlu)

Qəbələyə şan-şöhrət gətirən Vahid Qəhrəmanov, Muxtar Abduyev və başqa görkəmli şəxsiyyətlərə burada bayatılar həsr olunub. Bayatılar vasitəsilə insanların ləyaqətli adamlara məhəbbətlərini izhar etməsi çox mətləblərdən xəbər verir.

Ölkəmizdə, eləcə də onun dilbər guşəsi Qəbələdə bayatının geniş yayılmasına səbəb onun musiqi ilə daha çox bağlılığındadır. Musiqi ahənginə uyğun gəldiyindən və yığcamlığı musiqiyə daha münasib olduğundan, xalq mahnılarındakı mətnin əksəriyyəti bayatılardan alınmışdır.

Adından göründüyü kimi, "Çoban bayatı", "Bayatı- Şiraz", "Bayatı-Kürd" və s. də bayatılardan yaranmışdır.

Keçmişdə olduğu kimi, bayatılar bu gün də öz mövqeyini möhkəm saxlamışdır. Bunun səbəbini hər şeydən əvvəl onların xəlqiliyində, xalq dilindən cövhərlənərək ürəklərə asanlıqla yol tapmasında, fikir zənginliyində, yığcamlığında, təbiiliyində, mövzu rəngarəngliyində və s.-də axtarmaq lazımdır.

Ölməz sənət əsərləri bayatılar xalqın dünənini, bu gününü, adət-ənənəsini, həyat tərzini öyrənmək yolunda əvəzsiz xəzinədir.

Bayatılar möcüzəli bir aləmdir. Bu aləmə şairlərimiz də baş vurur və sübut edirlər ki, bayatını vaxtı keçmiş janr hesab edən bəzi ədəbiyyatşünaslar yanlış fikirdədirlər. Şairlər yazdıqları bayatılarla göstərirlər ki, qədim janrda da yeni fikir demək olur.

Azərbaycanda sərbəst şeir məktəbinin banisi Rəsul Rza 1964-cü ildə Cənubi Azərbaycanla bağlı "Aşıq Yanıqlı bayatıları" silsiləsini çap etdirdi. Şair ölümünə bir il qalmış 1980-ci ildə isə iraqlı soydaşlarımızla bağlı "Yaralı Kərkükün bugünlü xoyrat və maniləri" əsərini yayımladı. Deyirlər, şairlər hissiyyatla, duyumla gələcəkdə baş verəcək hadisələri görə bilirlər.

Rəsul Rza sanki İraqın, xüsusən də Kərkükün bu gününü görüb. "Yaralı Kərkükün bugünlü xoyrat və maniləri" deyilənlərə dayaq olur:

Bağdaddan karvan gəlir,
Dərdli, pərişan gəlir.
Kimlər qurban kəsilib,
Sularım al-qan gəlir.

Kərkükün baş qalası,
Divarı daş qalası.
Ölü ana yanında
Tökür qan-yaş balası.

Rəsul Rzadan az sonra Hüseyn Kürdoğlu "Min bir bayatı" kitabını çap etdirdi.

Akademik Teymur Bünyadovun dörd cildlik "Bayatılar" kitabı işıq üzü gördü.

Xalqın ictimai həyatının bütün sahələrinə sirayət edən, onun mənəviyyatını, dünyagörüşünü, bəşəri duyğularını göstərən, hiss və həyəcanını, sevinc və möhnətini, gərdişə münasibətini, sevgi, məhəbbət və nifrətini, arzu və istəyini, həyat eşqi, yaşamaq həvəsini, intizar və həsrətini, daxili aləmini, mübarizə və dözümünü, xoşbəxtlik və ləyaqətini, inam və etiqadını, ar, namus və qeyrətini, hünər və şücaətini, təmiz adını, haqsızlığa qarşı mübarizəsini, ah-nalə, vəfa, sədaqət və etibarını, əzab-əziyyətini, vətənə, xalqa bağlılığını, ayrılıq-hicran və fəraqını, yad el-qürbət hisslərini, mərdlik və igidliyini, qəzəb və hiddətini, ümid

və arzularını, məğrurluq və iftixar, dostluq, nikbinlik hisslərini, ağrı-acılarını, öyüd-nəsihət və hikmətini, həyat təcrübəsini, ailə-məişət münasibətlərini və s.-i poeziyanın sehrkar dili ilə ifadə edən ölümsüz sənət inciləri bayatılar folklorumuzun çələngidir. Bu çələngin daha möhtəşəm olmasında spesifik Qəbələ bayatılarının da payı vardır.

Əmək nəğmələri. "Qəbələ folkloru"nda əmək nəğmələri ilə xalq mahnıları qarışdırılmışdır. Bu ona görə baş vermişdir ki, xalq mahnıları uzun illər nədənsə musiqi folklorunun sahəsi hesab edilmiş, etnoqraflarımız bir yana, heç folklorşünaslarımız tərəfindən belə gərəyincə tədqiq olunmamışdır. Xalq mahnıları qadınlara xitabən yaradılır: Məsələn: "Ay qara xal qız", "Evləri var xana-xana", "Bir busə ver", "İrəvanda xal qalmadı", "Ay qız, heyranın ollam", "Samovar almışam, silənim yoxdur", "O xal nə xaldı", "Getdim, gördüm bulaqdadır", "Yar bizə qonaq gələcək" və s.

Adlarından da göründüyü kimi, xalq mahnılarında sevgi, məhəbbət tərənnüm edilir. Məsələn:

Getdim, gördüm bağda yatıb,
Ceyran, mənə bax, bax!
Qara tellər gülə batıb,
Gözəl, mənə bax, bax!

Döndərmə:

Yar bizə qonaq gələcək,
Bilmirəm, nə vaxt gələcək.
Söz verib, sabah gələcək.

Əmək nəğmələrinə isə holavarlar, sayaçı nəğmələri və s. daxildir. Holavarlar – əkin və biçində heyvanları işə həvəsləndirmək məqsədilə kişilər tərəfindən ifa olunur. Məsələn:

Qara kəlim naz eylər,
Quyruq bular, toz eylər.
Ay qaranlıq gecədə
Kotanı pərvaz eylər.

Sayaçı nəğmələri qoyunların sağını zamanı qadınlar tərəfindən ifa olunan nəğmələrdir.

Nənəm, a narış qoyun,
Yunu bir qarış qoyun.
Çoban səndən küsübdür,
Südün ver, barış, qoyun.

İnəkləri sağanda da nəğmələr qadınlar tərəfindən ifa olunur.

Anam, a gəlin inək,
Sonam, a gəlin inək.
Mənim qaragöz anam,
O gözlərə qurbanam.
Balam ay laylay, ay laylay.
Körpəm ay laylay, ay laylay.

Göründüyü kimi, əmək nəğmələri, əsasən, qadınlar tərəfindən yaradılır və iş başında ifa olunur.

Qəbələdə maldarlıq və əkinçiliklə yanaşı, bağçılıq təsərrüfatı da geniş yayılmışdır. Qız-gəlinlər qoz, fındıq, şabalıd, alma və s. yığımı zamanı işə həvəslə girişər, yorğunluqlarını unutmaq üçün mahnı oxuyardılar. Bunu əmək nəğməsi adlandırmaq daha doğru olardı:

Almanı atdım yara,
Yar, yar, yar!
Son qoydum intizara,
Yar, yar, yar!
Yarım məndən küsmüşdü,
Yar, yar, yar!
Əlaqəni kəsmişdi,
Yar, yar, yar!
Yarım mənlə barışdı,
Yar, yar, yar!
Dəmlər dəmə qarışdı,
Yar, yar, yar!
Yar qadasın yar alsın,
Yar, yar, yar!
Düşmən gözü kor olsun,
Yar, yar, yar!

"Qəbələ folkloru"nda qoz ağacı, qozun yığılması və qabıqdan təmizlənməsi zamanı oxunan, hər bəndi altı misradan ibarət 4 bəndlik nəğmə də verilmişdir.

Burada baramanın bəslənməsi və yemlənməsi prosesində oxunan gözəl nəğmə də diqqəti çəkir:

Tələs, ay qız, Nərgizə,
Çox verməyin səs-səsə.
Hər baramam beçəli,
Arı kimi veçəli.

Tut yarpağım bağdadır,
Arandadır, dağdadır.
İşlərim avaz olur,
Qurdlarım "cumsaz" olur.

Göründüyü kimi əmək nəğmələri iş prosesində icra olunur, musiqisiz oxunduğuna görə xalq mahnılarından köklü şəkildə fərqlənir.

Laylalar və oxşamalar. Elmi ədəbiyyatda layla və oxşamalar **"Beşik nəğmələri"** termini kimi sabitləşmişdir. Lirik növün geniş yayılan janrı "beşik nəğmələri" zərifliklə, istəklə, məhəbbətlə əlaqədar yaranır, beşik başında oxunur. Layla və oxşamaların sözlərinin müəllifi də, musiqisinin bəstəçisi də analar özləridir. Xalq şairi Hüseyn Arif təsadüfi yazmamışdır:

Elə ki balalar gəlir dünyaya,
O gündən hey ölçüb-biçir analar.
Nəğmə də oxuyur, şeir də qoşur,
Bəstəkar analar, şair analar.

Demək olar ki, ana ilə körpə arasında əbədi məhəbbətin təməli layla və oxşamalarla qoyulur. Bizə qalırsa, uşaq ən incə, ən saf, ən ülvi duyğular aşılayan ana laylalarını eşitməzsə, onun qəlbində mərhəmət, şəfqət, məhəbbət, xeyirxahlıq hissləri zəif olar.

"Qəbələ folkloru" kitabında bununla bağlı çox doğru yazılıb: "Bəlkə də, uşağın tərbiyəsində sirri açılmamış uğursuzluqlar onun körpəlikdə layla sədasında uyumaması ilə əlaqədardır".

Təəssüf ki, layla deyə bilən, körpəyə ana südü verən anaları indi barmaqla saymaq olar.

Oxşamalar. Oxşamalar yalnız analar tərəfindən deyil, nənələr, bibilər, xalalar tərəfindən də deyilir. Oxşamalar laylalardan fərqlənir. Beşik başında oxunan laylalarda başlıca məqsəd körpəni sakitləşdirmək, uyutmaq, yatırtmaq olduğu halda, oxşamalarda məqsəd körpəni əyləndirmək, əzizləmək, oxşamaqdır. Məsələn:

Ataram, tutaram səni,
Şəkərə qataram səni.
Atan evə gələndə
Qucuna ataram səni.

Qurbanam özüm sənə
Həkətim, sözüm sənə.
İşıqlı ulduz kimi
Dikmişəm gözüm sənə.

"Qəbələ folkloru"nda layla və oxşamaların başqa bölgələrlə müqayisədə oxşar və fərqli cəhətləri və məqamları əyani misallarla göstərilib.

Tapmacalar. Epik və lirik növün qovşağında yer alan, şifahi xalq ədəbiyyatının aparıcı janrlarından biri də tapmacalardır. Həyatın kitabsız, radiosuz, kino və teatrsız keçən dövründə xalq boş vaxtını mənalı keçirmək amacı ilə müxtəlif vasitələr düşünmüşdür ki, tapmacalar da bu qüvvətli arzunun nəticəsi kimi meydana gəlmişdir. Xalq onlara əyləncə vasitəsi kimi baxsa da, zaman keçdikcə tapmacalar ağılı, zəkanı inkişaf etdirmək, düşüncə və mühakiməni gücləndirmək kimi böyük bir amala xidmət etmişdir.

Onların arasında fəlsəfi fikirləri əks etdirənlər də az deyildir. Məsələn:

Gələr bir-bir,
Gedər bir-bir.
Gələn gedər,
Gedən gəlməz.
Gəl, bunu bil,
Gəl, bunu bil.

və ya:

Gələn birdi,
Gedən birdi,
Qalan bir.
Gedən gəlməz,
Gələn qalmaz,
Əcəb sirr.

(Doğum, ölüm)

Tapmacalar iki və daha artıq şəxs arasında mükalimə şəklində meydana gəlir. Tapmacanın açmasını aça bilməyəndə, dinləyənlər düşünərək onun

açmasına, yozulmasına kömək edə biləcək suallar verir, fikirlərindən keçəni dəqiqləşdirirlər:

Gözlə görülər, yoxsa görülməz?
Yeyilər, yoxsa yeyilməz?
Diridi, yoxsa ölüdü?
Suda yaşar, yoxsa havada?
Əllə tutular, yoxsa tutulmaz?
Havada uçar, yoxsa sürünər və s.

Bu, uşaqlar arasında böyük səs-küylə keçərdi. Beləliklə, tapmacalar uşaqların ağıl, zəka, düşüncə yarışına çevrilər, uşaq folklorunun mühüm hissəsini təşkil edərdi.

Gənclərin ailə qurmasında bir çox gənc oğlan və qızın özünə ömür-gün yoldaşı seçərkən, varapula, camala yox, ağıla, dərrakəyə üstünlük verməsi, bir-birini tapmacalarla imtahana çəkməsi, xüsusən nağıllarda məharətlə istifadə edilərdi. Tapmacaların nağıllarla qaynayıb-qarışması, şifahi xalq ədəbiyyatının bu janrının dəyər-qiymətini daha da artırır. Tapmacalar aşıq yaradıcılığının zirvəsi olan "bağlama" və "qıfılbənd bağlama"nın tərkib hissəsi kimi onun inkişafına güclü təsir göstərmişdir. Əyanilik üçün Ləzgi Əhmədlə Xəstə Qasım arasında baş verən deyişmədən iki bənd veririk:

Ləzgi Əhməd:

O nədir ki, dayanıbdır dayaqsız?
O nədir ki, boyanıbdır boyaqsız?
O nədir ki, doğar əlsiz-ayaqsız?
Üç ay keçər, ayağı var, əli var.

Xəstə Qasım:

Göy bir çadır, dayanıbdır dayaqsız,
Aydır, Gündür, boyanıbdır boyaqsız.
Qurbağadır, doğar əlsiz-ayaqsız,
Üç ay keçər, ayağı var, əli var.

"Qəbələ folkloru" kitabının müəllifləri Qəbələdə aşağıdakı "Qıfılbənd bağlama"nı aşkarlayıblar:

O nədir ki, göydən yerə sallanır?
O nədir ki, hər nə versən aldanır?
O nədir ki, dırnağından nallanır?
Cənnətin açarın kim verib getdi?

O yağışdır, göydən yerə sallanır,
O uşaqdır, hər nə versən aldanır.
O Düldüldür, dırnağından nallanır
Cəbrayıldır, cənnətin açarın verib də getdi.

Tapmacaların bir tipi də elmi dövriyyəyə bizim gətirdiyimiz bayatı-tapmacalardır. Təbiət və cəmiyyət hadisələrinin, real varlıqların və s. təsvirini əks etdirən, forma və biçiminə görə bayatı və qıfılbənd-

lərə oxşayan, lakin icra yeri və icra tərzinə görə onlardan fərqlənən bayatı-tapmacalar Azərbaycan folklorunda bizə qədər lirik növün ayrıca janrı kimi tədqiq olunmamışdı.

1992-ci ildə BDU-da folklora həsr olunmuş konfransda "Folklorumuzda yeni janr" mövzusunda məruzə bayatı-tapmacalardan geniş söhbət açdım.

Bayatı-tapmacaları fərqləndirən cəhət odur ki, bayatı-tapmacanın cavabı yalnız bir sözlə ifadə edilir, bağlama və qıfılbəndlərdə isə hər misra ayrıca cavab tələb edir.

Məsələn:

Buz bağlar;
Qışda çaylar buz bağlar.
Aşıq bir hikmət görüb,
Od içində buz bağlar.

(Bişmiş südün qaymağı)

Bayatı-tapmacalar Kərkük ellərində də geniş yayılmışdır:

Ya qanı;
Ver muradım, ya qanı.
Dəryadan bir quş uçdu,
Nə əti var, nə qanı.

(Gəmi)

Lələm elin aşına,
El toplaşar başına.
Əli yox, ayağı yox,
Gedər əkin başına.

(Su)

Mövzuya görə tapmacaları musiqi alətləri ilə, bəzək-düzəklə, oxumaq-yazmaqla, insan və onun bədən əzaları, geyim-keçimlə, maldarlıqla, yemək-içməklə, heyvanlar və bitkilər aləmi ilə, kainatla, ev-eşik və yaşayışla, meyvəylə, əkin-biçin, bağ-bostanla bağlı başlıqlar altında qruplaşdırmaq olar. Maraqlıdır ki, Qəbələdə bunların, demək olar ki, hamısı ilə bağlı tapmacalar və cavabları vardır.

Göründüyü kimi, tapmacalar xalqın mənəvi dünyasında əhəmiyyətli yer tutur.

Arxaik janrlar. Folklorşünaslıqda sabitləşmiş kiçik janrlara **ilkin** və ya **arxaik** janrlar deyilir. **İlkin janrlara**, əsasən, **inanclar, andlar, alqışlar, qarğışlar, fallar** daxildir. İnsanın real həyat hadisələrinə inam və etiqadının bir növ bədii əksi bu janrların əsas səciyyəvi xüsusiyyətlərini təşkil edir. Bunlar müşahidə, inam nəticəsində sınaq və təcrübədən keçirilərək qətiləşmiş, xalq yaradıcılığının ilkin janrlarına çevrilmişlər. Nəticədə, həyata ömürlük vəsiqə qazanmış, xalqın hafizəsində, gündəlik məişətində, dilində əbədiləşmiş, zəmanəmizə qədər gəlib çıxmışlar (bax: Azad Nəbiyev. Azərbaycan folklorunun janrları, I hissə. BDU nəşriyyatı, 1983).

Xalq arasında sınama, yozum, yozma, inanc və inam adları ilə tanınan inancları aşağıdakı kimi qruplaşdırmaq olar:

Məişət və mərasimlərlə, təbiət hadisələri, bitki və heyvanat aləmi ilə bağlı inanclar, astral təsəvvürlər və əsatiri görüşlərlə bağlı inanclar.

Sadaladığımız inanc qruplarının hamısı barədə "Qəbələ folkloru" kitabında ətraflı danışılır və misallar verilir. Bədnəzər və pis nəfsə inamla bağlı yığcam hekayələr də verilib.

Arxaik janrlar üzərində tədqiqatlar göstərir ki, onlar arasında ən çox yayılan, zənginliyi ilə seçilən, insanların gündəlik həyatda müraciət etdiyi janr inanclar, alqış və qarğışlardır.

Alqışlar və qarğışlar. Qəbələ bölgəsində arxaik janrlardan alqışlar və qarğışlar geniş yayılmışdır. İndinin özündə belə onları hər an xalq arasında, danışıq əsnasında eşitmək olur. Ta qədim zamanlardan alqış və qarğışlar xalqın həyatında mühüm rol oynamış, onların mənası böyük olmuşdur. Buna görədir ki, alqışlar və qarğışlar folklorun bayatı, nağıl, dastan, oxşama, ağı və s. kimi janrlarında geniş yer almışlar.

İnsanlar alqış və qarğışlarda sözün əfsunkar təsir qüvvəsinə inanmışlar. İnsanlarda belə bir inam yaranmışdır ki, qarğış adamı tutur, onun başına pis iş gəlməsinə səbəb olur. "Kitabi-Dədə Qorqud"dan məlum olur ki, **alqış** və **qarğışlar**, **dua** və **bəddualar** adı altında lap qədimdən mövcud imiş və onlara inam da möhkəm olmuş-

dur. Bunu "Basatın Təpəgözü öldürdüyü boy"dan açıq-aşkar görmək olar.

Qarğışın gücünə inanmamaq olmur. Alqışlarda isə başlıca cəhət yaxşılıq və uğur diləməkdir. İnsanlara yaxşı keyfiyyətlər aşılamaq, onu xeyirxah işlərə sövq etmək, pis əməllərdən çəkindirməkdə alqış və qarğışların əhəmiyyəti böyükdür. İndinin özündə belə insan ağır bir işdən, bəladan, faciədən qurtaranda inanır ki, hər hansı bir xeyirxah əməlinə görə bu bəladan qurtardı. Odur ki, kiminsə duasının müstəcəb olduğunu göz önünə gətirir.

Xeyir-dua yaşlı adamların, xüsusən də qadınların danışıqlarının bəzəyidir. Məsələn:

Qurbanın olum, başına dolanım,
Gözünə heyran, boyuna qurban.
Qadanı alım, önündə ölüm,
Qan etdim, qapına gəldim.
Böyüyümsən, ağamsan.
Ayağının altında ölüm və s.

Burada hər ifadənin keçmiş adət-ənənələrlə bağlı mənası var. İlk baxışda adi görünən "Qurbanın olum", "Başına dolanım", "Önündə ölüm", "Böyüyümsən, ağamsan", "Ayağının altında ölüm" ifadələrinin arxasında bir dünya məna durur.

Xalqın keçmişinin çox dərin qatları ilə sıxı bağlı olan bu ifadələrin məna tutumu adamı heyrətə

gətirir. "Qurbanın olum, başına dolanım" ifadəsi xəstələnən adamın, xüsusən də uşağın başına qurbanlıq heyvan dolandırıb kəsməklə, bununla da şər qüvvəyə əvəz verdiklərinə, uşağın sağalacağına, qada-bəlanın, ağrı-acının qurban deyilən heyvana keçməsinə inamla əlaqədar yaranmışdır.

O ki qaldı "Ayağının altında ölüm, ağamsan", "Önündə ölüm, böyüyümsən, ağamsan" xeyirduasına, onlar daha qədim zamanlarda özünü göstərən mərasimlə bağlıdır.

Şifahi və yazılı ədəbiyyatdan görünür ki, qədimlərdə əşirət başçısı və ya mötəbər bir şəxs vəfat etdikdə qul və xidmətçilərdən öldürüb onun ayağı ucunda basdırarmışlar. Bu, ölən adamın yenidən dirilməsi etiqadına inamın nəticəsidir və bu səbəbdən öldürülüb basdırılanlar guya dirilib öz ağalarının qulluğunda duracaq, ona xidmət göstərəcəklər. Bu, təbii ki, "o dünya" etiqadı ilə bağlı inancdan yaranmışdır.

Azərbaycan yazıçısı Yusif Vəzir Çəmənzəminlinin "Qızlar bulağı" romanında buna bənzər mənzərənin şahidi oluruq: "O biri gün şahzadənin dəfn mərasimini keçirdik. Qullar iyirmi addım uzunu və iyirmi addım enliyində iki adam boyu bir yer qazdılar. Dibinə söyüd yarpaqları döşəndi. Şahzadənin çadırı bütün müxəlləfatı ilə buraya yerləşdirildi. Meyidi geyindirib, silahla bərabər yatağına uzatdılar, çadıra gətirdilər. İrəliki gün diz çökən on səkkiz

qız Aliatay adlı çopur bir cəllad tərəfindən bir-bir boğulub öldürülmüşdü. Bunları da şahzadənin ətrafına düzdülər" (bax: Qızlar bulağı. Qan içində. Bakı, 1987, s.90).

Mingəçevir ərazisində arxeoloji qazıntılar zamanı kurqanda insan nəşi ilə bərabər at skeleti, silah, bəzək əşyaları, gil qabın içində qida qalıqlarının tapılması qədim zamanlardan "o dünya" etiqadının olduğunu təsdiqləyir.

Bunlar göstərir ki, hələ Tunc dövründə (e.ə. IV–II minilliyin ortaları) bu etiqad olmuşdur (bax: Qəbələ tarixi, s.22).

Yuxarıda deyilənlərin hamısının müəyyən inanc və etiqadlarla əlaqədar yarandığı güman edilir.

Fallar. "Qəbələ folkloru"nda nədənsə, yer verilməsə də arxaik janrlar arasında "Fallar" və "Andlar" da geniş yayılmışdır. Fallar birbaşa adət-ənənələrlə bağlı inancları əks etdirir.

Fallar iki şəkildə özünü göstərir: göz falı, qulaq falı.

Göz falının əsas məğzi gözlə görülənə inamla bağlıdır. Göz falından fərqli olaraq qulaq falında tutulmuş niyyətin yerinə yetirilib-yetirilməyəcəyi eşidilən sözlə, onun təsir gücü ilə əlaqələndirilir.

Dahi şairimiz Səməd Vurğun "Komsomol poeması"nda "qulaq falı" inancından məharətlə istifadə edərək Humayın gərgin psixoloji anlarını, sarsıntılarını inandırıcı şəkildə, poetik dillə tərənnüm et-

mişdir. Bu, eyni zamanda şairin əsərinin poetik qüdrətini artırmışdır.

Xəyalat başını bir an tərk edir,
Xeyirxah bir xəbər eşitmək üçün
Qonşu qapısını pusmağa gedir,
(Qayda belədir ki, birinci kərə
Xeyir söz eşitsə, şad olacaqdır;
Yaman söz eşitsə, yenə qəmlərə
Qərq olub, içində qovrulacaqdır).
Dinləyir... Bu evdən bir səs gəlməyir,
Elə bil bağlayıb qapını tay-tay.
Heç kəs danışmayır, deyib-gülməyir...
Başqa bir qapıya yüyürür Humay.
...De, qız nə eşitsə yaxşıdır birdən?
Kimsə öz oğluna: "Toyunu görək!"
Humay bir quş kimi durdu yerindən;
Sıçrayıb göylərə qanad gərərək.

Qulaq falına folklorun başqa janrlarında, xüsusən də bayatılarda təsadüf edilir:

Mən aşiqəm halı var,
Dəymişi var, kalı var.
Novruzda gənc qızların
Axşam qulaq falı var.

Göz falına nümunə. Bir qədər düyü götürülüb sayılır. Düyü cüt sayı ilə qurtararsa, xeyir, tək sayla qurtararsa, şər hesab olunur.

Andlar. Tədqiqatlardan belə qənaətə gəlmək olur ki, "and" sözü "qan qardaşı" mənasında işlənən monqolca "anda" sözündəndir. Qədim türk və monqollarda adətə görə başqa-başqa qəbilədən olan kişi və gənclər dostlaşmaq və qardaşlaşmaq üçün damarlarını kəsib axan qanı bir qaba yığar, südə qatıb yarıbayarı içərlərmiş. Beləliklə, qan qardaşı olarlarmış. "And" sözü əslində buradan yaranmışdır.

Andlar qədim dövrlərdən indiyə kimi müqəddəs sayılmış, andı pozan adama alçaq nəzərlə baxmış, yalançı kimi tanımış, belə adamların xalq arasında hörməti olmamışdır. Azərbaycanın hər yerində, o cümlədən də Qəbələ bölgəsində indi də belədir. Andı namus, qeyrət və şərəflə bərabər tuturlar. Aşağıdakı misallar göstərir ki, andı pozmaqdansa, ölüm daha şərəflidir: "Ölümümü görəsən", "İki gözüm kor olsun".

Hətta əziz və müqəddəslərin canına, məzarına and içirlər ki, andımı pozsam, qoy mənə qənim olsunlar.

Xalq arasında yaşamaqda olan hər bir andın arxasında xalqımızın müəyyən inkişaf mərhələləri özünü göstərir. Andların ilkin olanları insanın hələ dərindən dərk edə bilmədiyi təsəvvürlərlə bağlı yarananlardır. İnsan Aya, Günəşə, oda, suya, göyə, yerə müqəddəs varlıq kimi baxmış və nəticədə andlar meydana gəlmişdir:

"Bu Günəş haqqı", "Ocaq haqqı" və s.

Maraqlıdır ki, bu andlar xalq arasında indi də yaşayır. Cənubi Azərbaycan şairi Səhəndin şeiri bunu bir daha təsdiq edir:

Hələ də, hələ də bizim yerlərdə
Sadə insanların andı çıraqdır.
Xalqın arasında, kənddə, şəhərdə
Müqəddəs yerlərin adı ocaqdır.

İkinci qisim andlar islam dini ilə əlaqədar yaranmışdır. Məsələn: "Allaha and olsun", "Quran haqqı" və s.

Sonrakı qisim andlar bərəkət və qüdsiyyətlə bağlı yaranmışdır. Məsələn: "Duz-çörək haqqı", "Bərəkət haqqı", "Nemət haqqı" və s.

Nisbətən sonralar isə insan təsəvvürləri dəyişdikcə köhnə andlarla bərabər, yeniləri də meydana gəlməyə başladı. Bunlar arasında ata-ana, qardaş-bacı, övlad, əmi, dayı, xala, bibi və s. ilə bağlı andlar daha çoxdur.

Andlar insanı doğru yola çəkmək, vicdanlı olmaq, yalan danışmamaq və s. yolunda güclü vasitədir. Andı basmaq, az qala, cinayət hesab olunurdu. Çünki andlar müqəddəs sayılırdı.

Əslində indi də belədir. Allaha and içən, əlini Qurani-Kərimə basıb müqəddəs kitaba and içən, sonra andı pozan adam çətin tapılar.

"Qəbələ folkloru"nun müəllifləri folklorun bütün janrları üzrə materiallar toplayaraq tədqiqat süzgəcindən keçirmişlər.

Əslində Qəbələ folkloru ilk dəfədir ki, toplanıb elmi cəhətdən tədqiq edilərək çap olunur və gələcək nəsillərə töhfə edilir.

"Azərbaycan Milli Ensiklopediyası"nda (Bakı, 2007, s.659) göstərildiyi kimi, 1993-cü ildə AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu təsis edilib və bununla respublikada etnoqrafiya elminin inkişafında yeni mərhələ başlayıb. "Qəbələ etnoqrafiyası", eləcə də "Qəbələ tarixi" və "Qəbələ folkloru" bu mərhələdə yazılmışdır.

İlk dəfə araşdırılaraq çap edilən fundamental "Qəbələ tarixi", "Qəbələ etnoqrafiyası" və "Qəbələ folkloru" xalqımıza ən yaxşı ərməğandır. Əminəm ki, bu abidə əsərlər Qəbələnin şan-şöhrətini, millimədəni irsini dünyada tanıtmağa qadir mənbələr olub, Azərbaycan elminə əvəzsiz töhfədir.

NƏTİCƏ

"Qəbələ keçmişdə və günümüzdə" adlanan monoqrafiya fundamental "Qəbələ tarixi", "Qəbələ folkloru", "Qəbələ etnoqrafiyası" əsərlərinin işığında müəllifin təəssüratlarını, qənaətlərini və ideyalarını ehtiva edir.

"Giriş", üç fəsil və "Nəticə"dən ibarət əsərin "Qəbələ keçmişdə və günümüzdə" adlanan I fəslində Qəbələnin yeni eradan əvvəlki dövründən zəmanəmizədək uzun bir zaman kəsiyinə ekskurs edilir.

Azərbaycanda insanlığın ən qədim dövrü Paleolitdən başlamış hər biri tarixin minilliklərini əhatə edən Mezolit, Neolit, Eneolit, Tunc, Dəmir dövrlərinin səciyyəvi xüsusiyyətlərindən bəhs edilir.

Bu fəsildə Qəbələnin Qafqaz Albaniyasının paytaxtı kimi formalaşması və yüksəlişi, şəhər həyatı, elm, təhsil, ədəbiyyat və s. məsələlərə də diqqət yetirilmişdir. "Qəbələ tarixi" işığında monoqrafiyanın I fəslində "Qəbələ XIX əsrdə", "Qəbələ XX əsrdə", "Maarif və mədəniyyət", "Maarif və ədəbiyyat", "Qəbələ XXI əsrin əvvəllərində" və s. tədqiqat obyektinə çevrilmişdir. Monoqrafiyanın bu fəslində "Təhsil", "Səhiyyə", "Sənaye", "Mədəniyyət ocaqları", "Turizm", beynəlxalq və respublika əhəmiyyətli tədbirlərdən (2010–2017), Heydər Əliyev Fondu –

Beynəlxalq Musiqi Festivalları, Azərbaycan Mədəniyyəti Fondu və SEBA Assosiasiyası – Beynəlxalq İncəsənət Sərgiləri və s. kimi beynəlxalq əhəmiyyətli məsələlərdən söz açılır.

Bu fəsildə ulu öndərimiz Heydər Əliyevin Qəbələyə səfərlərinə ayrıca bölmə həsr edilmişdir.

Monoqrafiya boyu Prezident İlham Əliyevin Qəbələ səfərlərindən (2003–2016), eləcə də Prezidentin ideyası və təşəbbüsü ilə Qəbələdə həyata keçirilən möhtəşəm layihələrdən bəhs edilir.

Bu müddət ərzində Prezident İlham Əliyev Qəbələdə təqribən 75 obyektin açılışında şəxsən iştirak etmiş, qırmızı lenti kəsərək xeyir-dua vermişdir.

Bu fəsildə xüsusi vurğulanmışdır ki, Prezident İlham Əliyevin böyük həqiqətdən söz açan, fəxarətlə bəyan etdiyi **"Biz Azərbaycanın son illərdəki inkişafını Qəbələ rayonunun timsalında əyani şəkildə çox yaxşı görürük"** sözləri Ulu Öndərimizin Qəbələyə səfəri zamanı peyğəmbərcəsinə dediyi **"Qəbələnin şərəfli keçmişi, gözəl gələcəyi vardır"** fikrini tamamlayır.

Qəlbi qurub-yaratmaq eşqilə döyünən Prezidentimizin ideyaları əsasında Qəbələdə həyata keçirilən möhtəşəm layihələrin uğur qazanmasına yardımçı olan SEBA Assosiasiyasının xidmətləri xüsusi qeyd edilmişdir.

Dövlətimizin qayğısı nəticəsində Qəbələ qədim şöhrətinə, əzəmətinə qovuşur, dünyanın dilbər guşələrindən birinə, əfsanələr paytaxtına çevrilir.

Bu əfsanələr paytaxtının tarixi yeni eradan əvvələ gedib çıxır. Alimlərimiz arxeoloji qazıntılar aparmış, material toplamış, araşdırmalar aparmış, tədqiqatları ümumiləşdirmiş, nəticədə Qəbələ şəhərinin 2500 il bundan əvvəl yarandığı qənaətinə gəlmişlər.

Qədim Roma tarixçisi Böyük Plininin "Təbii tarix" əsərində yeni eranın II əsrində "Albaniyanın baş şəhəri Kabalaka" deyə bəhs etməsi mütəxəssislərin qənaətinə şübhə yeri qoymur. Odur ki, bu qədim şəhərin 2500 illiyi münasibəti ilə Qəbələ şəhərində Beynəlxalq Konqres keçirilməsi tarixi əhəmiyyəti olan hadisəyə çevrilərdi.

Monoqrafiyanın II fəslində insana beşikdən qəbrədək yol yoldaşı olan etnoqrafiyadan bəhs edilir.

Etnoqrafiya yunan sözü olub, "etnos" – xalq, "qrafo" – yazıram, təsvir edirəm mənasında işlənir. **Etnoqrafiya elmi xalqın həyatının bütün sahələrini öyrənir və araşdırır.**

Məlumdur ki, etnoqrafiya elmi arxeologiya, diyarşünaslıq, ölkəşünaslıq, mədəniyyət tarixi, sənətşünaslıq, dilçilik, coğrafiya və s. elmlərlə sıx əlaqədardır. Onlar qoşa yaranıb və qoşa addımlayır. Odur ki, bu elmlərin qarşılıqlı öyrənilməsi xalqın ictimai həyatını, maddi-mənəvi mədəniyyətini, adət-ənənələrini, ruhunu, məişətini, şifahi ədəbiyyatını hərtərəfli öyrənməkdə əvəzsiz xəzinəyə çevrilir.

Qəbələ etnoqrafiyasının öyrənilməsi ideyası bu zərurətdən qaynaqlanır.

SEBA Assosiasiyasının təşəbbüsü, maliyyə və təşkilati dəstəyi ilə Qəbələ Etnoqrafik Ekspedisiyası yaradılmış və AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun alimləri akademik Teymur Bünyadovun rəhbərliyi ilə Qəbələnin müxtəlifmillətli sakinlərinin adət-ənənəsi, tarixi, etnoqrafiyası, folkloru barədə zəngin material toplamışlar.

Mövsüm, toy və yas mərasim və nəğmələri xüsusilə diqqət mərkəzində olmuşdur. Toy və yas mərasim və nəğmələrinin müxtəlif anlarına, psixoloji və səciyyəvi cəhətlərinə həsr olunan ağılar və nəğmələr xalqın bədii təfəkkürünü, rəngarəng adət-ənənələrini əhatəli əks etdirmək baxımından tədqiq edilmişdir.

Qəbələ bölgəsində toy və yas mərasimləri, monoqrafiyada göstərildiyi kimi, özünəməxsusluğu ilə seçilir. Qəbələdə təsərrüfat işlərində, məhsul yığımında, ev tikintisində olduğu kimi, toy və yas mərasimlərində də əhali heç bir təmənna gözləmədən köməklik göstərərdi.

İndi də əsrlər öncə olduğu kimidir. Xüsusən də şəhərlərdə az təsadüf edilən mehribanlıq, diqqət və canyanğısı kəndlərdə təmənnasızdır. Sidqi-qəlbdən adamın dərdinə şərik olmağı borc hesab edirlər.

"Qəbələ etnoqrafiyası" fəslində qədim Qəbələnin qısaca tarixi, təsərrüfat həyatı, sənətkarlıq sahələri,

ailə və ailə məişəti, maddi-mənəvi mədəniyyəti, etnik mənzərəsi, arxeoloji mənbələr, arxiv sənədləri, mədəniyyət tarixi, yazılı abidələr, habelə yerli informatorlardan toplanmış məlumatlar əsasında ilk dəfədir, tədqiq edilir.

Elmi əhəmiyyət kəsb edən önəmli cəhət ondan ibarətdir ki, Qəbələ etnoqrafiyası başqa bölgələrin etnoqrafiyası ilə müqayisəli şəkildə araşdırılıb və nəticədə unikal "Qəbələ etnoqrafiyası" meydana gəlmişdir.

Monoqrafiyanın "Bitib-tükənməyən incilər xəzinəsi" adlanan III fəsli folklora həsr edilmişdir.

Folklor ingilis sözü olub "folk" – xalq, "lore" – şifahi ədəbiyyat mənasında işlənir və hər ikisi eyni hüquqa malik "folklor" və "şifahi xalq ədəbiyyatı" terminləri elmi dövriyyəyə daxil olmuş və sabitləşmişdir.

Folklorşünaslıq bir elm sahəsi kimi xalqın mənəvi dünyasını öyrənir.

Bu fəsildə Qəbələ folkloru ümumazərbaycan folkloru kontekstində tədqiq edilir və milli-mədəniyyət tariximizi əhatəli öyrənmək baxımından maraq doğurur.

Əsərin bu fəslində kamil sənət abidəsi olan folklorun mövcud janr və növləri araşdırılmış, "İlkin janrlar"a ("Arxaik janrlar" da adlanır), xalq mərasim və nəğmələrinə xüsusi diqqət yetirilmişdir. Nəzərə alınmışdır ki, insanların real həyat hadisələrinə inam

və etiqadının bir növ bədii əksi olan ilkin janrlar və eləcə də xalq mərasimləri qədim adət-ənənələrin, xalqın düşüncə tərzinin, həyata baxış və münasibətinin, etik, estetik, etnoqrafik görüşlərinin, mərasimlərinin sistemli şəkildə izlənməsində böyük dəyər və elmi əhəmiyyət kəsb edir.

Yüksək bədii təfəkkürün məhsulu olan bayatılar və beşik nəğmələri əsərdə öz tədqiqini lazımınca tapmışdır. Onların poetik gücü və zənginliyi tam parlaqlığı ilə göstərilmişdir.

Epik növə daxil olan atalar sözü və məsəllər, nağıllar, tapmacalar və lətifələr də hər şeydən əvvəl bu baxımdan tədqiqata cəlb edilmişdir. Çox geniş yayılmış bu mükəmməl janrların hər birinin özünəməxsus səciyyəvi xüsusiyyətləri vardır. Təsadüfi deyildir ki, tədqiqatçılar yorulmadan bu mənəvi incilərə istinad edir, onların vasitəsilə müəyyən hadisələrin izlərini və köklərini axtarırlar. Burada atalar sözü və məsəllərlə bağlı gətirdiyimiz misal bu və ya digər dərəcədə bütün janrlara aid edilə bilər. Məsələn, tarixçi atalar sözü və məsəlləri qədim tarixə, tarixi hadisələrə dair məlumat baxımından, hüquqşünas onları xalq həyatının yazılmamış qanunları baxımından, etnoqraf atalar sözü və məsəlləri unudulub getmiş adət-ənənələrin hifz olunub saxlandığı mənəvi incilər mənbəyi baxımından qiymətləndirir. Filosof atalar sözü və məsəllər vasitəsilə

xalqın düşüncə tərzini öyrənməyə, məntiq aləmində yerini dürüstləşdirməyə can atır. Dilçi və dialektoloq isə atalar sözü və məsəllərə insan nitqinin inkişaf pillələrini, dilin leksik-qrammatik qayda-qanunlarını tədqiq etmək işində əvəzsiz mənbə nöqteyi-nəzərindən yanaşır.

Göründüyü kimi, atalar sözləri və məsəllər, həm xalqın dünyagörüşü və təfəkküründü ifadə etmək baxımından, həm də xalqın keçmişi barədə bir növ tarixi sənədə çevrilmək baxımından böyük əhəmiyyət kəsb edir.

SEBA Assosiasiyasının sədri, tarix üzrə fəlsəfə doktoru Ruhəngiz xanım Heydərovanın ideyası, təşkilatçılığı və maddi-mənəvi dəstəyi sayəsində bənzərsiz "Qəbələ tarixi", "Qəbələ etnoqrafiyası" və "Qəbələ folkloru" işıq üzü görmüşdür.

Bu əsərlərin təsir gücü o qədər böyükdür ki, yaxın gələcəkdə başqa bölgələrdə də belə fundamental əsərlərin yaranacağına inanırıq.

MÜNDƏRİCAT

Ön söz 7
Giriş 13
I fəsil. Qəbələ keçmişdə və günümüzdə 23
II fəsil. Qəbələnin etnoqrafiya dünyası 90
III fəsil. Bitib-tükənməyən incilər xəzinəsi 166
Nəticə 216

Qəzənfər Paşayev
QƏBƏLƏ KEÇMİŞDƏ VƏ GÜNÜMÜZDƏ
Bakı, "Təhsil", 2021.

Bədii-texniki redaktor *Abdulla Ələkbərov*
Kompüter dizaynı *Səadət Quluzadə*
Üz qabığının tərtibatı *Təhmasib Mehdiyev*
Korrektor *Günel Məmmədova*

Müəllif maddi-mənəvi dəstəyə görə
Sabir Əli oğlu Əliyevə
minnətdarlığını bildirir.

Çapa imzalanmışdır 09.09.2021. Kağız formatı 60x90$^{1}/_{16}$.
Ofset çapı. Fiziki çap vərəqi 14. Sifariş 6. Tiraj 300.

"Təhsil Nəşriyyat-Poliqrafiya" müəssisəsinin
mətbəəsində çap olunmuşdur.

Bakı, AZ 1052, Fətəli xan Xoyski küç., 149
Tel.:(+994 12) 567-81-28/29; Faks: (+994 12) 567-82-68
E-mail: tahsil_az@yahoo.com